# QURANDA TƏBLİĞ VƏ MÜBAHİSƏ



Harun Yahya

# MÜNDƏRİCAT


- Giriş
- Quranda təbliğ
- Allahın tanıdılması
- Axirətin xatırladılması
- Tövhid və şirkin izah edilməsi
- Dinin izah edilməsi
- Təbliğat apararkən istifadə ediləcək metodlar
- Müxtəlif təbliğat metodları
- Təbliğat aparan möminə lazım olan keyfiyyətlər
- Qövmlərin, onlara qarşı təbliğat aparan elçilərə göstərdiyi müqavimət
- Allahın möminləri azğın kafirlərdən xilas etməsi
- Rəsulların Allaha olan güclü imanları
- Quranda mübahisə
- İlk mübahisə
- İnkarçıların möminlərlə mübahisələri
- İnkarçıların öz aralarında mübahisələri
- Yəhudilərlə xristianların mübahisələri
- Möminlər arasında mübahisə salmağa çalışanlar
- Mübahisə edənlərə Qurandan cavablar
- Cəhənnəm əhlinin aralarındakı mübahisələr
- Quranda söhbət
- Darvinizmin süqutu

# MÜƏLLİF VƏ ONUN ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya imzasından istifadə edən müəllif 1956-cı ildə Ankarada anadan olub. Orta məktəbi Ankarada oxuyub. Sonra İstanbulda Memar Sinan Universitetinin incəsənət fakültəsində və İstanbul Universitetinin fəlsəfə bölümündə təhsil alıb. 80-ci illərdən bu günə qədər imani, elmi və siyasi mövzularda xeyli əsər yazıb. Bununla yanaşı müəllifin təkamülçülərin (darvinistlərin) saxtakarlığını, onların iddialarının heç bir elmi həqiqətə əsaslanmadığını göstərən, habelə darvinizmin qanlı ideologiyalarla şübhəli əlaqələrini üzə çıxaran bir çox mühüm əsərləri var.

Müəllifin bu imzası inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət əlaməti olaraq seçilib: Onları yad etmək məqsədilə Harun və Yəhya adlarından istifadə edilib. Rəsulullahın möhürünün müəllif tərəfindən kitabların üz qabığına vurulmasının simvolik mənası isə onların içindəkilərlə bağlıdır. Bu möhür Qurani-Kərimin Allahın sonuncu Kitabı və sonuncu sözü, Peyğəmbərimizin isə peyğəmbərlərin sonuncusu olmasının rəmzidir. Müəllif bütün yazılarında Quranı və Rəsulullahın sünnəsini rəhbər tutur. Bununla da inkarçı düşüncə sistemlərinin bütün əsas iddialarını bir-bir puça çıxarmağı və dinə qarşı yönələn etirazları tamamilə susduracaq sonuncu sözü deməyi hədəf seçir. Çox böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu sonuncu sözü demək niyyətinə bir dua kimi istifadə edilib.

Müəllifin əsərlərindəki əsas məqsəd Quranı bütün dünyada təbliğ etmək, bununla insanları Allahın varlığı, birliyi və axirət kimi əsas iman məsələləri barədə dərindən düşünməyə sövq etmək, inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqatlarını hər kəsə göstərməkdir.

Harun Yəhyanın əsərləri Hindistandan ABŞ-a, Böyük Britaniyadan İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan Braziliyaya,

Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və MDB ölkələrinə qədər dünyanın əksər ölkələrində maraqla qarşılanır və birnəfəsə oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, indoneziya, malay, benqal, bolqar, yapon, çin, azərbaycanca kimi dillərə tərcümə edilən bu əsərlər geniş oxucu kütləsi tərəfindən maraqla izlənir.

Dünyanın dörd tərəfində böyük rezonans doğuran bu diqqətəlayiq əsərlər insanların çoxunun iman gətirməsinə, əksər adamların da öz imanını kamilləşdirməsinə səbəb olur. Bu kitabları oxuyan və araşdıran hər kəs onlardakı hikməti, habelə yığcam, dolğun, asan başa düşülən səmimi üslubu, həyati həqiqətlərin elmi-məntiqi izahını dərhal görür. Bu əsərlər hər bir kəsə tez bir zamanda təsir etmək, tam nəticə vermək, etirazlara yer qoymamaq və dəlillərin elmi olması kimi xüsusiyyətlərə malikdir. Bu əsərləri oxuyan və onların üzərində ciddi düşünən adamların materialist fəlsəfəni, ateizmi, başqa batil fikir və fəlsəfələri müdafiə etməsi əsla mümkün deyil. Bəziləri müdafiə etsələr belə bunu yalnız inadkarlığa görə edəcəklər, çünki onların fikirlərinin əsasları çürükdür.

Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhyanın külliyyatında elmi düşüncə nöqteyi-nəzərindən məğlub ediliblər. Şübhə yoxdur ki, bu xüsusiyyətlər Quranın hikmətindən və onun ifadə etdiyi fikirlərin gözəlliklərindən qaynaqlanır.

Müəllifin özü isə bu əsərlərinə görə lovğalanmır, əksinə, Allahın hidayətinə vasitəçi olmağa niyyət edir. Bundan başqa bu əsərlər nəşr edilərkən heç bir maddi qazanc güdülmür.

Bu həqiqətlər nəzərə alınmalıdır. O zaman məlum olar ki, insanları onlara görmədiyini görməkdə kömək edən, onların hidayətə gəlməsinə səbəb olan belə əsərlərin oxunmasına həvəsləndirməyin özü də çox mühüm xidmətdir. Bu dəyərli əsərləri tanıtmaq əvəzinə insanların zehnini qarışdıran, fikirlərinin qarışmasına səbəb olan, şübhə və tərəddüdləri aradan qaldırmağa, imanı xilas etməyə təsiri olmadığı təcrübədən keçirilən kitabları yaymaq yalnız

və yalnız əmək və vaxt itkisi demək olacaq. İmanı xilas etməkdən daha çox müəllifin ədəbi gücünü göstərməyə yönəlmiş kitablarda bu təsirin olmayacağı aydındır. Bu mövzu ilə bağlı şübhəsi olanlar varsa, onlar Harun Yəhyanın əsərlərinin yeganə məqsədinin dinsizliyi aradan qaldırmaqdan və Quran əxlaqını yaymaqdan ibarət olduğunu, bu xidmətdəki təsir gücünün, müvəffəqiyyət və səmimiyyətin aydın göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilər. Bunu qəti şəkildə yəqinləşdirmək və anlamaq lazımdır ki, dünyadakı zülm və iğtişaşların, müsəlmanların çəkdiyi əziyyətlərin əsas səbəbi dinsizliyin ideya hakimiyyətidir.

Bunlardan qurtulmağın yolu isə dinsizliyin ideya cəhətdən məğlub edilməsi, imani həqiqətlərin ortaya çıxarılması və Quran əxlaqının insanların dərk edib mənimsəyə biləcəyi şəkildə çatdırılmasıdır. Dünyanı hər gün daha çox zülmə, iğtişaş və fəsadlara məruz qoymaq istəyənlərin niyyətini nəzərə alsaq bəlli olar ki, bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə yerinə yetirilməsi çox vacibdir. Əks təqdirdə çox gec ola bilər. Bu əhəmiyyətli xidmətdə çox böyük bir vəzifəni öz üzərinə götürmüş Harun Yəhyanın külliyyatı Allahın icazəsi ilə XXI əsrdə insanları Quranda bildirilən əmin-amanlığa və barışa, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmaqda bir vasitə olacaq.

# OXUCUYA

Bu kitabda və digər çalışmalarımızda təkamül nəzəriyyəsinin özünü doğrultmamasına və puç olmasına aid fikirlərə geniş yer ayırmağımızın əsas səbəbi adı çəkilən nəzəriyyənin əslində din əleyhinə düşüncə və təlimlərdən ibarət olmasıdır. Yaradılışı və bilavasitə Allahın varlığını inkar edən darvinizm 140 ildir ki, bir çox insanların öz imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olur. Buna görə də bu nəzəriyyənin aldadıcı olduğunu sübuta yetirmək və diqqətə çatdırmaq çox mühüm imani vəzifədir. Bunu insanlara çatdırmaq isə daha vacibdir.

Bəzi oxucularımızın bəlkə də təkcə bir kitabımızı oxumağa fürsəti olacaq. Buna görə də hər bir kitabımızda bu mövzuya qısa da olsa yer ayırmağı məqsədəuyğun bilirik.

Nəzərə çatdırılılacaq digər bir məsələ də bu kitabların içindəkilərlə əlaqədardır. Müəllifin bütün kitablarında imani mövzular Quran ayələri əsasında izah olunur, insanlar Allahın ayələrini öyrənməyə və onlara uyğun yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə bağlı bütün məsələlər isə oxucunun şüurunda heç bir şübhə və ya sual yaratmayacaq şəkildə açıqlanır.

Bu izahatda istifadə edilən səmimi, sadə və axıcı üslub kitabların 7 yaşdan 70 yaşa qədər hər kəs tərəfindən rahat başa düşülməsini təmin edir. Belə təsirli və dəlil-sübutlu izahat sayəsində kitablar birnəfəsə oxunur. Hətta dini rədd etmək fikrində qəti olanlar da bu kitablarda göstərilən həqiqətlərdən təsirlənir və deyilənlərin doğruluğunu inkar edə bilmir. Bu kitabı və müəllifin digər əsərlərini həm təklikdə, həm də qarşılıqlı söhbət, polemika şəraitində rahat oxumaq mümkündür. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun onları birlikdə oxuması mövzu ilə bağlı fikir və təcrübəsini də bir-biri ilə bölüşməsi səbəbindən yararlı olacaq.

Bununla belə sadəcə olaraq Allah rizası üçün yazılan bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmətdir. Çünki müəllifin bütün kitablarında oxucuya müsbət təsir bağışlayan məsələləri sübut etmək üsulu çox güclüdür. Həmçinin dini izah etmək istəyənlərin əlindəki ən təsirli üsullardan biri də bu kitabları hamının oxumasını təşviq etmək, buna çalışmaqdır.

Müəllifin digər əsərlərinin üz qabığının şəkillərinin kitabların son hissəsinə əlavə edilməsinin də mühüm səbəbləri var. Kitabı əlinə alan hər bir adam yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri özündə toplayan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə malik olan çoxlu əsərlərin olduğunu görəcək. Eyni zamanda həm dini, həm də siyasi mövzularda istifadə edəcəyi mənbələrin mövcudluğuna şahid olacaq.

Başqa kitablarda rast gəldiyimiz şəxsi fikirlərə, müəllif qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirməyən üslublara, ümidsizliyə aparan şübhəli yazılara və digər çatışmazlıqlara bu əsərlərdə rast gələ bilməzsiniz.

# GİRİŞ

Allah Quranda iman gətirənlərin başlıca ibadətlərindən birinin təbliğ, yəni Quranda bildirilən həqiqətləri insanlara çatdırmaq və onları iman gətirməyə dəvət etmək olduğunu bildirir. Bu ibadət həyatın hər sahəsini əhatə edir. Mömin yaşadığı müddət ərzində sözləri və hərəkətləri ilə Allahın dinini digər insanlar arasında yaymaqla və islamı təmsil etməklə vəzifələndirilmişdir.

Möminlərin öz aralarındakı danışıqları da əslində qarşılıqlı bir təbliğdir. Onlar da bir-birini Quranda bildirilən hökmlərə tabe olmağa, Quranda təsvir edilən əxlaqı göstərməyə dəvət edir. Bir sözlə, möminin başlıca işi və əsas metodu təbliğdir.

Buna baxmayaraq Qurana görə, inkarçılara aid olan "xarakteristik" üslub isə mübahisədir. Ona **"Adəmə səcdə et"** (İsra surəsi, 61) əmrini verdikdə Allah ilə (Allahı tənzih edirik) mübahisə edən şeytandan başlayaraq bütün inkarçılara xas olan mübahisə xudbinliyin nəticəsidir ki, bu da təbliğin əksinə olaraq insana heç bir şey qazandırmaz.

Ümumiyyətlə, mömin hər zaman təbliğ tərzini qorumalı və inkarçılara aid bir üsul olan mübahisəyə əsla meyllənməməlidir. Allah bir ayəsində möminin mübahisədən uzaq duran və hər zaman təbliği hədəf seçən bir davranışını belə bir hökmə bağlayır:

**Əgər səninlə mübahisə edərlərsə, de ki: "Mənə tabe olanlarla birlikdə mən özümü Allaha təslim etmişəm". Kitab verilmiş kimsələrə və ümmilərə də belə de: "Siz də (Allaha) təslim oldunuzmu?" Əgər təslim olarlarsa, doğru yola yönəlmiş olarlar. Əgər üz döndərərlərsə, sənin vəzifən ancaq təbliğ etməkdir. Allah bəndələrini görəndir. (Ali İmran surəsi, 20)**

Bu kitab təbliğin və mübahisənin incəliklərini açıqlamaq üçün yazılıb. Təbliğin hansı məntiq və üsullarla aparılacağı bu kitabda təfsilatı ilə incələnmiş, bununla yanaşı mübahisəni yaradan şeytani xarakter də Quran ayələri ilə təhlil edilmişdir.

Məqsəd hər şeydə olduğu kimi danışıq üsullarında da Allahın bəyəndiyi yolu seçmək və Onun məsləhət görmədiyi çirkin yoldan çəkinməkdir.

# QURANDA TƏBLİĞ

*De: “Haqq gəldi, batil yox oldu. Şübhəsiz ki, batil yox olmağa məhkumdur!” (İsra surəsi, 81)*

## TƏBLİĞAT APARAN MÖMİNİN ÖZÜNÜ TANITMASI

**Həqiqətən, mən sizə göndərilən etibarlı bir elçiyəm.**

**(Şuəra surəsi, 107)**

Cahil cəmiyyətlərdə insanlar bir-biri ilə yalnız mənfəət məqsədi ilə münasibət qurur. Bir insanın digərinə qayğı göstərməsinin arxasında mütləq mənfəət güdülməsi dayanır. Təbii ki, bu vəziyyət cahil cəmiyyətin bir çox üzvü tərəfindən də dərk edilir. Bunun nəticəsi olaraq da bu insanlar onlara göstərilən münasibətin müqabilində “görəsən necə bir mənfəət gözləyir” şəklində fikirləşirlər. Əgər bir kimsə yeni bir “dünyagörüşü” yaratmağa çalışsa, bu refleks yenə dəyişməz. Həmişə “mənə bunu başa salmaqda nə marağı var” sualı ağıllarının bir tərəfində durur.

Ancaq möminin təbliğdə, yəni Allahın dinini yaymaqda yeganə məqsədi Allahın ona fərz qıldığı bir ibadəti yerinə yetirməkdir. Bu hərəkəti ilə sadəcə Allahı razı salmağı, Onun mərhəmət və sevgisinə nail olmağı hədəf seçmişdir. Bu səbəbdən də danışdığı insandan heç bir mənfəət güdməz. Əlaqə qurduğu insan dini qəbul etdiyi zaman ondan özü üçün heç bir şey istəməyəcək. Çünki anlatdıqları öz şəxsi fikirləri deyil, kainatı yoxdan var edən Allahın dinidir.

Ancaq cahil insanlar bu vəziyyətdən xəbərsizdir. Qarşılaşdıqları insanın bir mömin olduğunun çox vaxt fərqində belə olmurlar. Fərqində olsalar belə, möminin mənfəət güdməmək kimi bir xüsusiyyətinin olduğunu bilə bilməzlər. Bu səbəbdən bir mömin təbliğ məqsədi ilə onlara yaxınlaşsa, Allahın dinini anlatmaq istəsə, böyük ehtimalla “bu insanın bunları deməkdə məqsədi nədir, məndən nə umur?” kimi düşüncələrə qapılacaqlar.

Buna görə də, qarşı tərəfi bu düşüncələrdən çəkindirmək təbliğindəki ən başlıca məsələlərdən biridir. Ünsiyyət qurulan tərəfə heç bir mənfəət əlaqəsinin olmadığı, təbliğdəki yeganə məqsədin Allahın rizası olduğu başa salınmalıdır.

Rəsullar da təbliğlərində bu metoddan istifadə etmişdi. Quranda peyğəmbərlərin qövmlərinə xitablarına baxdıqda onların öz qövmlərinə əvvəlcə etibarlı olduqlarını vurğuladığı görünür. Məsələn, Ad tayfasına göndərilən hz. Hud belə demişdir:

**Ad qövmünə də qardaşları Hudu (peyğəmbər) göndərdik. O demişdi: “Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa heç bir ilahınız yoxdur. Siz yalnız (Allaha) böhtan atırsınız. Ey qövmüm! Mən buna görə sizdən heç bir əvəz tələb etmirəm. Mənim mükafatım yalnız məni yaradana aiddir. Hələ də düşünüb dərk etmirsinizmi? (Hud surəsi, 50-51)**

Hz. Nuh isə ona **“...Biz sizi yalançı hesab edirik...”** (Hud surəsi, 27) deyən qövmünə qarşı belə demişdi:

**“Nuh dedi: “Ey qövmüm! Deyin görək, əgər Rəbbimdən gələn açıq-aydın bir dəlilə əsaslanıramsa, Rəbbim mənə Öz**

**dərgahından bir mərhəmət bəxş edibsə və o sizə gizli qalıbsa, istəmədiyiniz halda sizi ona məcbur edə bilərikmi?! Ey qövmüm! Mən buna görə sizdən mal-mülk istəmirəm. Mənim mükafatım yalnız Allaha aiddir...” (Hud surəsi, 28-29)**

Təbliğ edilən insanın narahatçılığına bəhsi keçən mənfəət şübhəsi ilə yanaşı digər müxtəlif amillər də səbəb ola bilər. Cahil cəmiyyətdə “zərərli” və “təhlükəli” insanlarla qarşılaşmağa, onlardan uzaq olmağa və onlarla təmkinli davranmağa adət edilmişdir. Buna görə də o bu refleksin bir nəticəsi olaraq bəlkə möminlərdən də çəkinə bilər. Ona zərər verəcək insanlarla qarşılaşdığı kimi yersiz və mənasız şeylər düşünə bilər. Xüsusilə də möminlərin inkarçıların qabaqcıllarına qarşı irəli sürdükləri fikri mübarizədən narahat olub müdafiə psixologiyasına qapıla bilər.

Bu vəziyyətdə də qarşı tərəfə etibarlılığın vurğulanması və sahib olduğu ehtimalı ya da görünən qorxuların bir-bir dəf edilməsi lazım gəlir. Əgər qarşı tərəf möminlərin inkarçıların qabaqcıllarına qarşı irəli sürdüyü fikri mübarizədən narahat olmuşsa, əvvəlcə edilənlərin Quran ayələrinə söykənən məntiqi geniş şəkildə açıqlanmalıdır. Möminlərin yalnız Allahın dininə düşmənçilik edən, Quran ayələrinə qarşı mübarizə aparan və yer üzündə fitnə-fəsad salan insanlara qarşı mübarizə apardıqları və bütün insanlara ədalət, xoşniyyətlilik və hörmət çərçivəsində dost kimi yaxınlaşdıqları anladılmalıdır.

Təbliğ edilən insan inkarçıların iman gətirənlər əleyhinə uydurduğu çirkin böhtanlardan da təsirlənə bilər. Əgər bundan yaranan narahatçılıq müşahidə edilərsə, bu böhtanların mahiyyəti ona izah edilməli və onların həqiqətlə heç bir əlaqəsinin olmadığı, bu böhtanların uydurma olduğu açıqlanmalıdır. Tarix boyu Quranda bütün elçilərə və saleh möminlərə atılan böhtanlarla bağlı ayələr dəlil kimi göstərilərək bunların “mömin əlaməti” olduğu təsvir edilməlidir.

Ancaq unutmaq lazım deyil ki, sözlə ediləcək bütün bu açıqlamaları daha təsirli edəcək əsl faktor möminin "görünüşüdür". Etibar qazanmaq hər şeydən əvvəl hərəkətlərlə, baxışlarla, mimikalarla, daha doğrusu, bütün bu xarici təsirləri ortaya çıxaran ruh görünüşü ilə mümkündür. Mömin qarşı tərəfə Allahın dinini üstün tutması, ixlası, səmimiyyəti və güclü imanı ilə təsir göstərə bilər. Qəti və ya müəyyən bir məqsədə, əsla sarsılmayacaq bir səbat və əzmə sahib olduğu müddət ərzində qarşı tərəfin təkidli şübhələri yaxud da cahil sistemin atdığı böyük iftiralar ona heç bir mənfi təsir göstərməz. Belə olduqda isə etibarlılıq onun xarakterinin sağlam bir hissəsi halına gələr və bütün hərəkətlərində özünü göstərər.

Bu vəziyyət Allahın dinini anlatmaqla vəzifələndirdiyi elçilərində çox açıq şəkildə görünür. Məsələn, hz. Yusif "üz qızardıcı" bir hərəkətlə, yəni zina böhtanı ilə günahlandırılaraq boş yerə zindana atılsa da Allaha olan təslimiyyətindən və ümumiyyətlə, ciddiyyət və alicənablığından heç bir şey itirməmişdi. Onun bu vəsfi də zindandakı digər məhkumlar tərəfindən sezilmişdi. Quranda göstərilənlərə görə, zindanda olduğu zaman ona iki nəfər yaxınlaşmış, gördükləri yuxunu demiş və bunların yozumunu soruşmuşdu. Zina kimi bir ittihamla məhkum olunmuş hz. Yusifdə belə bir "hikmət" olduğunu hiss etmələrinin yeganə səbəbi isə hz. Yusifin görkəmindəki və hərəkətlərindəki etibarlılıqdır. Yuxularının yozumunu soruşarkən belə deyərlər:

**"...Bunun yozumunu bizə xəbər ver! Həqiqətən, biz sənin xeyirxahlardan olduğunu görürük", – dedi. (Yusif surəsi, 36)**

Möminin belə vüqarlı və etibarlı xarakterə malik olmasındakı başlıca amillərdən biri təbliği sadəcə bir ibadət kimi qəbul etməsi və qarşı tərəfi inandırmaq kimi məcburiyyətin olmadığını bilməsidir. Çünki bir insanın iman

gətirib-gətirməməsi **"Allah kimi doğru yola yönəltmək istəyərsə, onun qəlbini İslama açar, kimi (haqq yoldan) azdırmaq istəyərsə, göyə çıxırmış kimi onun qəlbini daraldar..."** (Ənam surəsi, 125) ayəsinin sirri ilə ancaq Allahın diləməsi əsasında olur. Və "...**doğrudan da, insanların çoxu fasiqlərdir"** (Maidə surəsi, 49) hökmünə görə də insanların bəzilərinin iman gətirməməsi çox təbiidir. Bu halda təbliği etmək istədiyi bir insanın iman gətirməməsi möminə qətiyyən təsir etməməlidir. Mömin sadəcə öz borcunu yerinə yetirib dini təbliğ etməklə və insanları iman gətirməyə dəvət etməklə vəzifələndirilib. Bir insana hidayət vermək isə ancaq Allaha məxsusdur. Bu sirri bilən mömin qarşı tərəfi yola gətirmək üçün heç vaxt lazımsız təkid etməz. Bunlarla yanaşı, təbliğin insan üçün önəmli olduğunu xatırlatmaq da çox mühümdür. Təbliğə məruz qalan bəzi insanlar cahil olmalarına görə təbliğə müsbət cavab verib dinə tabe olacaqları halda böyük bir "lütf' qazanacaqlarını zənn edirlər. Möminlərin onlarla maraqlanmasını da sahib olduğunu düşündüyü "yüksək" xüsusiyyətləri ilə əlaqələndirir və iman gətirdiyi zaman ona təbliğ edənlərə çox böyük "yaxşılıq" etmiş olacağını düşünürlər. Bu ilkin məntiq haqqında bəhs edilən insanın cəhalətinin və ağılsızlığının bir nəticəsidir. Quranda da bu mövzuya diqqət çəkilir:

**Müsəlman oldular deyə sənə minnət qoyurlar. De: "Müsəlman olduğunuza görə mənə minnət qoymayın! Əksinə, əgər sadiqlərdənsinizsə, bilin ki, əslində sizi imana yönəltdiyinə görə Allah sizə minnət qoymalıdır". (Hucurat surəsi, 17)**

Bir insanın iman gətirməsinin sadəcə özünə xeyri olar. Və insan başlıca olaraq bilməlidir ki, iman gətirməyə yalnız özünün ehtiyacı var. Allahın heç bir şeyə ehtiyacı yoxdur və kiminsə iman gətirməsinə ehtiyacı olmayandır. Amma hər kəs imana və Allahın rizasını qazanmağa möhtacdır. Söhbət edilən şəxsə bu həqiqət açıqlanmalı və müsəlman olmaqla dinə böyük qazanc gətirəcəyini

düşünüb özünü çox "qiymətli" bir insan kimi görməsinin nə qədər yanlış və ağılsız fikir olduğu başa salınmalıdır. Bilməlidir ki, özü ilə fəxr etmək çox böyük xətadır. Çünki yaşadığı cahil həyata görə "atəş dərəsi"nin kənarındadır. Onu oradan çıxarıb əbədi qurtuluşa aparacaq olan yeganə çıxış yolu isə islamdır. Buna görə də, də ona edilən bu dəvət həqiqətdə çox böyük nemət, çox böyük lütfdür.

Möminlərin onlarla maraqlanması onlar üçün şərəfdir. Bu, ona bildirilməli, islamla tanışlığın Allahın ona bəxş etdiyi bir lütf olduğu anladılmalıdır. Möminlərin onlarla boşuna maraqlanmadıqlarını, Allahın dinini təbliğ edən və onları bir tərəfdən əbədi qurtuluşa çağırarkən digər tərəfdən də əbədi cəhənnəm əzabı ilə xəbərdar edən biri olduqlarını bilməlidir.

Cahil cəmiyyətin yuxarıda saydığımız duyğu və reflekslərindən yaranan əngəllər götürülüb mömінə hörmət və etibar göstərilərsə, artıq "əsl məsələ"yə, yəni Allahın Quranda bildirdiyi həqiqətləri anlatmağa keçə bilərik. Çünki bütün bu hazırlıqlar nəticə olaraq dini daha gözəl şəkildə anlamaq üçündür.

# ALLAHIN TANIDILMASI

**Səmud qövmünə də qardaşları Salehi (peyğəmbər) göndərdik. O demişdi: "Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa heç bir ilahınız yoxdur. O sizi torpaqdan yaratdı və orada sizi məskunlaşdırdı. Elə isə, Ondan bağışlanmağınızı diləyin və Ona tövbə edin! Həqiqətən, mənim Rəbbim (bəndələrinə) yaxındır, (dualarını) qəbul edəndir". (Hud surəsi, 61)**

Cahil cəmiyyətdəki Allaha inamın Qurandakı əsli ilə heç bir uyğunluğu yoxdur. O cəmiyyət öz prinsiplərinə uyğun şəkildə doğru olmayan, nağıla bənzər və "mifoloji" bir Allah inancı yaratmışdır. Cahillər Allahın kainatı və insanları bir dəfə yaratdıqdan sonra onları özbaşına qoyduğunu, kosmosun bir tərəfində "oturduğunu" (Allahı tənzih edirik) düşünürlər. Beyinlərində qurduqları Allah təsviri (Allah göstərməsin) səmada bir yerdə, bəlkə də bir ulduzun arxasında oturan və uzaqdan insanları seyr edən yaşlı bir insan kimidir. Qurduqları yanlış və əsassız inanc Allahı unutmalarına və Onu öz kiçik ağılları ilə "dəyərsiz" varlıq kimi görmələrinə səbəb olmuşdur.

Şüeyb peyğəmbər də qövmünün bu yanlış inancına diqqət çəkərək **"...Ey qövmüm! Məgər mənim əşirətim sizə Allahdan da əzizdir ki, Onu unudub saymırsınız?..."** deyir və Allahın həqiqi xüsusiyyətini belə açıqlayır: **"...Həqiqətən Rəbbim nə etdiklərinizi biləndir!"** (Hud surəsi, 92).

Allah bu insanların dilində "Allah göstərməsin", "İnşaAllah", "Allah verməsin" kimi sözlərlə arabir zikr edilən, amma haqqında heç vaxt düşünülməyən abstrakt bir anlayış kimidir. Allahın varlığını və gücünü sözdə qəbul etsələr də, həqiqətdə buna səmimi şəkildə inanmırlar. Bu hal özünü

Allah üçün fədakarlıq lazım gəldikdə büruzə verir. Dara düşəndə yaxud da hər hansı mənfəət itkisinə məruz qalacaqlarını anladıqları vaxt dərhal inkarçılarla birləşib öz səmimiyyətsizliklərini göstərirlər. Cahil cəmiyyətin böyük bir hissəsi isə açıq şəkildə Allahın varlığını inkar edib Quran ayələrinə qarşı mübarizə aparır. Bəziləri materialist fəlsəfə, yaxud da təkamül nəzəriyyəsi kimi əsaslar taparaq bu inkarlarını buna bağlayırlar. Özlərini "müasir, aydın, modern, elmli, intellektual" və s. kimi insanlara təsir edə biləcək adlarla tanıdan və Allahı inkar etməklə "şəxsiyyət" qazandıqlarını zənn edən bu zavallılar həqiqətdə Allahın varlığını görüb qavramayacaq qədər düşüncəsizdir.

Cahil cəmiyyət içindəki bu iki ayrı qrup arasında aparılacaq təbliğ əslində eynidir. Allahın varlığının dəlilləri onların hər ikisinə açıqlanacaq və batil inanclarla yaranmış düşüncələrinin həqiqətləri görməsi üçün səy göstəriləcək. Ancaq inkarlarını ideologiyaya bağlayanlar üçün əvvəlcə bu ideologiyalarının köklərinin çürüdülməsi lazımdır. Məsələn, gözübağlı və cahil bir şəkildə inandıqları təkamül nəzəriyyəsi onun daxilindəki ziddiyyətlər və açılmaz düyünlər ortaya qoyularaq dağıla bilər. İnsan inandığı bu sistemin əslində səfil bir yalan olduğunu görməlidir.

Bu mərhələdən sonra görüləcək iş hər iki qrup üçün eynidir. Cahil sistemin batil fikirləri ilə düşünmə qabiliyyətlərini itirmiş, mühakimələri məhv olmuş, ağılları təzyiq altında boğulmuş bu insanlar bəlkə də həyatında ilk dəfə Quranda buyurulduğu kimi düşünməyə dəvət ediləcəkdilər. İllər boyu yedikləri meyvənin, içdikləri suyun, udduqları havanın necə yarandığını düşünməyə başlayacaqlar. Sahib olduqları bədənin, gözlərin, qulaqların, qəlbin necə və kim tərəfindən yaradıldığını fikirləşməyə sövq ediləcəklər. Onu da qeyd etmək lazımdır ki, Quranda insana düşünmək üçün yol göstərilir və nəyi düşünməyin vacib olması tez-tez vurğulanır. Məsələn, "Vaqiə" surəsində insana belə səslənilir:

Elə isə deyin görək, (ana rəhminə) atdığınız nədir? Onu siz yaradırsınız, yoxsa Biz?! Sizin aranızda ölümü də Biz müəyyənləşdirdik. Heç kim Bizə mane ola bilməz – Sizin yerinizə bənzərlərinizi gətirməkdə və sizi bilmədiyiniz bir şəkildə yenidən yaratmaqda! Şübhəsiz ki, siz ilk yaradılışı bilirsiniz. Elə isə düşünüb ibrət almalı deyilsinizmi? Bəs əkdikləriniz barədə nə deyirsiniz? Onu siz bitirirsiniz, yoxsa Biz? Əgər Biz istəsəydik, əlbəttə, onu bir saman çöpünə çevirərdik. Siz də təəccüb içində qalıb: "Həqiqətən, biz ziyana uğramışıq. Daha doğrusu biz (ruzimizdən) məhrum qalmışıq", – (deyərdiniz). Bəs içdiyiniz su barədə nə deyirsiniz? Onu buluddan siz endirirsiniz, yoxsa Biz? Əgər Biz istəsəydik, onu duzlu edərdik. Bunun üçün şükür etməli deyilsinizmi?! Bəs yandırdığınız od barədə nə deyirsiniz? Onun ağacını siz yaradırsınız, yoxsa Biz? Biz onu ibrət olsun və yolçular istifadə etsin deyə yaratdıq. Ona görə də uca Rəbbinin adını təsbeh et! (Vaqiə surəsi, 58-74)

Təbliğ ediləcək qarşı tərəf ilk əvvəl bu məntiq üzərində düşünməyə başlamalıdır: Nizam və ya estetikaya malik heç bir şey təsadüfən yaxud öz-özünə yaranmaz. Əgər bir yerdə bir qayda-qanun, plan və estetikaya malik bir istehsal varsa, bu, mütləq ağıl sahibi varlıq tərəfindən qurulmuş və meydana gətirilmiş deməkdir. Bir kağızın üzərinə çəkilmiş düzgün həndəsi şəkil yaxud tək bir düzgün hərf görən insan bunların ağıl sahibi bir insan tərəfindən çəkildiyinə əmindir. Çox böyük bir hesab və tarazlıq üzərində qurulmuş olan kainat da şübhəsiz ki, yüksək ağıl sahibi bir Yaradıcı tərəfindən yaradılmışdır. O Yaradıcı hər şeyin sahibi olan Allahdır.

Ümumiyyətlə, gözümüzlə gördüyümüz, qulağımızla eşitdiyimiz ya da hiss etdiyimiz hər şey bizlərə yerlərin və göylərin sahibi olan Yaradıcını, yəni

Allahı tanıdır. Əslində yaradılışın məqsədi də budur. Allah üstündə Öz sifətlərini əks etdirmək üçün əşyanı var etmişdir. İnsanın kainatı bürüyən qüsursuzluq, sonsuz gözəlliklər üzərində ətraflı düşünməsi bu açıq həqiqəti duyması üçün kifayətdir. Çünki onu əhatə edən yaradılış həqiqətləri bu möhtəşəm quruluşun bir sahibinin olduğunu açıq şəkildə göstərir.

Təbliğ edilən şəxs bu anlayışa sahib olduqdan sonra Quran əxlaqının və dinin anladılması daha da asanlaşacaq. Şəxsə anladılanlar bu idrakdan etibarən bir şey ifadə etməyə başlayacaq, beynindəki qarışıq fikirlər saflaşaraq öz yerini tapacaqdır.

# AXİRƏTİN XATIRLADILMASI

Heç kimin başqasının əvəzinə bir şey ödəyə bilməyəcəyi, heç kəsdən şəfaət qəbul olunmayacağı və heç kimdən (günahlarının yerinə) fidyə (əvəz) alınmayacağı o gündən qorxun! Onlara heç bir köməklik göstərilməyəcəkdir.

(Bəqərə surəsi, 48)

Cahil cəmiyyətdəki insanların başlıca iman məsələlərindən biri axirətin varlığına kifayət qədər inanmamasıdır. Axirəti, varlığı şübhəli bir "təmənna" kimi görürlər. Sanki həqiqətdə belə bir şey yoxdur, insanlar bunu ölüm mövzusunda özlərinə təsəlli vermək üçün "uydurmuşlar". Həmçinin, inkarçı sistemin ideoloqları bu ideyanı tez-tez irəli sürürlər.

Cahil toplumun axirətə olan imandakı zəifliyinin ən böyük göstəricisi ölüm haqqında danışdıqda yaxud da bir yaxınları öldükdə göstərdiyi rəftardır. İnkarçı şəxslər ölüm haqqında danışmağı heç sevməz, bu mövzudan söz düşəndə onu tez bitirmək və ya başqa bir mövzuya keçmək istəyərlər. Axirətə tam inanan bir insan, yəni mömin isə ölüm qarşısında üzülməz. "Həyatı Allah vermişdir və yenə O geri alır. Bunun üçün üzülməyə də dəyməz: Ölən insan yoxluğa deyil, əbədi yurduna gedir" - deyərlər.

Ancaq axirətə olan imandakı zəiflik cahilin axırına çıxır. Bir yaxınları öldükdə bir-birinə "üzülmə, yaxşı insan idi, inşaAllah cənnətə gedər" kimi Quran məntiqinə uyğun sözlər deyirlər, amma heç birini həqiqətdə axirətə iman etmədiyi üçün bu sözləri qəlbdən demirlər. Qəlbində dünyanın həqiqət olduğuna, axirətin isə buludların arxasındakı mifoloji əfsanədən başqa bir şey

olmadığına dair ibtidai və yanlış inanc var. Qurandakı ifadə ilə desək, **"Onlar dünya həyatının zahirini bilirlər, axirətdən isə xəbərsizdirlər"** (Rum surəsi, 7).

Halbuki, axirət həqiqətin özüdür, aldadıcı və şübhə oyadacaq bir şey varsa, o da dünya həyatıdır. Cəhənnəm əhlindən **"...Yer üzündə neçə il qaldınız?" deyə soruşduqda onlar "bir gün yaxud bir gündən də az!"** deyə cavab verəcəklər. Bunun müqabilində Allah buyuracaq: **"Əgər bilirsinizsə, siz (orada) çox az qaldınız! Yoxsa sizi əbəs yerə yaratdığımızı və hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?"** (Muminun surəsi, 112-115).

Allah insanın nəfsinə verdiyi bütün istəkləri nemətləri ilə qarşılayır. Məsələn, insan yemək və içmək istəyir. Allah yeməklər və içkilər yaratmışdır. İnsan qarşılıqlı sevgi, hörmət və ünsiyyətdən çox böyük zövq alır. Allah insanları, qadını və kişini yaratmışdır. İnsan gözəllik, estetika istəyir. Allah bütün kainatı və dünyanı əbədi gözəlliklərlə bəzəmişdir. Qeyd etmək lazımdır ki, Allahın insana bir istək verməkdə məqsədi də ona o neməti göstərmək istəməsidir. Bir islam dahisi bunu "vermək istəməsə, istək verməzdi" sözü ilə ifadə edir.

Bütün bunlarla yanaşı insan sonsuza qədər yaşamaq istəyir. Amma inkarçıların məntiqinə görə, bu istək ölüm səbəbindən təmin edilməz. Halbuki bu, onlara aid batil və xətalı bir düşüncədir. Həqiqətdə Allah axirəti və insanı əbədi həyat sürəcək şəkildə yaratmaqla insanın bu istəyini də cavabsız qoymamışdır. Ölüm sadəcə bir keçid qapısıdır. İnsanın müvəqqəti və aldadıcı bir yurd olan dünyadan çıxıb axirətə tərəf gedən səfərində ilk mərhələdir. Əsas olan ruhdur, bədən deyil. Ölümlə birlikdə ruh canlı qalır, ancaq görünüş dəyişir.

İnsanların etdikləri əməllərinə görə cəza və mükafat alması da axirətdə olur. Dünya həyatında bir mömin üzülüb çətin şəraitlə üzləşərkən inkarçılar çox böyük bir zənginlik, rahatlıq içində həyatını davam edə bilirlər. Bu, dünya həyatındakı bir imtahandır. Ancaq Allahın sonsuz ədaləti möminin mükafatlandırılmasını, inkarçıların isə əzaba düçar edilməsini buyurur. Bu isə

böyük bir məhkəmədə, məhşər günü ediləcək hesabla qərara bağlanacaq və mömin üçün cənnət, kafir üçün isə cəhənnəm əbədi məkan olacaqdır.

Təbliğ tətbiq edilən insanın bu həqiqəti qavramasının böyük əhəmiyyəti var. Çünki axirət Allahın varlığı ilə birlikdə imanın iki təməl mövzusundan biridir. Təbliğ edilən insana Quran ayələrinə əsaslanan açıq və təsir yaradacaq Quran təsviri edilməli, məhşər günü hesab, cənnət və cəhənnəm təfsilatı ilə açıqlanmalıdır. Etdiyi hər bir əməlin Allah tərəfindən görülüb bilindiyini, mələklər tərəfindən yazıldığını bilməli, axirətdə dünyada gördüyü hər işə, hətta ağlından keçirdiyi hər düşüncəyə görə cavabdeh olacağından agah olmalıdır.

**Sizin ilahınız tək olan Allahdır. Ondan başqa heç bir ilah yoxdur. O, Rəhmandır, Rəhimdir! (Bəqərə surəsi, 163)**

**İnsanlardan elələri var ki, Allahdan qeyrilərini Ona şərik qoşur və onları Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin Allaha olan sevgisi isə daha qüvvətlidir. Kaş zalımlar əzabı görəcəkləri zaman anlayacaqları kimi, bütün gücün Allaha məxsus olduğunu və Allahın əzabının şiddətli olduğunu dərk edəydilər. (Bəqərə surəsi, 165)**

Əslində insanların mühüm bir hissəsi Allaha inanır. Ancaq onları əsl iman yolundan azdıran şey özlərinə Allahdan başqa ilahlar seçmələridir. Bu hal Quranda şirk (ortaq qoşmaq) adlanır; şirk qoşanlara isə “müşrik” deyilir. İslamın əsası “tövhid”dir, yəni Allahı “vahid”, tək olaraq qəbul etmək və Ondan başqa heç bir varlığa qulluq etməmək.

Maraqlıdır, Allahdan başqasına səcdə edənlərin demək olar ki, hamısı müşrik olduqlarını qəbul etmir. Əksinə, müxtəlif açıqlamalarla ideal bir müsəlman olduqlarını deyirlər. Allahı qoyub bütləri özlərinə dost tutanlar üçün **"...Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik..."** (Zumər surəsi, 3) deyirlər. Şirk qoşduqlarını bu və ya buna bənzər üsullarla inkar etməyə çalışan müşriklərdən Quranda bu şəkildə söz edilir:

**O gün onların hamısını toplayacaq, sonra (Allaha) şərik qoşanlara: "İddia etdiyiniz şərikləriniz haradadır?!" – deyəcəyik. Sonra onların: "Rəbbimiz olan Allaha and olsun ki, biz şərik qoşan deyildik!" – deməkdən başqa bəhanələri qalmayacaqdır. Bax gör, özlərinə qarşı necə yalan dedilər. Özlərindən uydurduqları (bütlər) isə onlardan uzaqlaşıb yoxa çıxdılar. (Ənam surəsi, 22-24)**

Bugünkü cahil cəmiyyəti də tam mənası ilə müşrik bir cəmiyyət olduğu halda bunu qəbul etmir və özlərini ideal müsəlman zənn edirlər. Çünki onların düşüncəsinə görə, şirk qoşmaq yalnız taxtadan, daşdan düzəldilmiş bütlərin və ya totemlərin qarşısında səcdə etməkdən ibarətdir. Allahdan başqasına səcdə etməyi yalnız cansız bir surət qarşısında yerə qapanmaq zənn edirlər.

Ancaq səcdə bir varlığa qulluq etməyin yalnız simvolik ifadəsidir. Və insan bir varlığın qarşısında səcdə etməsə də Ona qulluq etmiş ola bilər. Allaha aid olan sifətləri öz zehnində bəhsi keçən varlıqla dəyişməsi "müşrik" olması üçün kifayətdir.

Allah rizası axtarılmağa layiq olan yeganə varlıqdır. Buna baxmayaraq əgər insan Allahdan başqa varlığın rizasını qazanmağa çalışarsa, məsələn, özünü insanlara bəyəndirməyə və onları xoşbəxt etməyə çalışarsa, onları özünə ilah seçmiş olar. Allahdan başqa varlıqlardan kömək istəsə, mədət

umsa, onlara səcdə etmiş olur. Həyatını Allahın qanunlarına görə deyil, digər varlıqların qanunlarına uyğun istiqamətləndirməyə qərar verərsə, o varlıqları “Rəbb” qəbul etmiş olur.

Bunun müqabilində “müvahhid” (tək sayılan, şirk qoşmayan) mömin xarakteri Allahdan başqa bir Rəbb, maarifləndirici, dost, sahib və ilah tanımır. Quranın ilk surəsi olan “Fatihə” surəsindəki **“Yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik”** (Fatihə surəsi, 4) ayəsi bu saf imanın ifadəsidir.

Onsuz da insan fitrət (yaradılış) baxımından tövhidə inanmağa və tövhidə görə yaşamağa meyllidir. **“Mən cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım”** (Zariyat surəsi, 56) hökmü insanın sadəcə olaraq Allaha ibadət etməsi üçün yaradıldığından xəbər verir. Belə halda insanın vəzifəsi yaradılış məqsədinə uyğun olaraq “müvahhid” bir şəkildə Allaha ibadət etməkdir. İnsanın yaradılışına məhz bu uyğun olduğu üçün ən asan yol da budur. Quranda həmçinin belə deyilir:

**Allahın insanları yaratdığı fitrət üzrə hənif olaraq üzünü dinə (İslama) çevir! Allahın (insanları fitrət üzrə) yaratmasında heç bir dəyişiklik yoxdur. Doğru din budur! Lakin insanların çoxu bunu bilmir. (Rum surəsi, 30)**

Təbliğ edilən insana anladılacaq ən vacib mövzu şirk və tövhid mövzusudur. Ona içindən çıxdığı cəmiyyətin şirk qoşan olması açıqlanmalı, həqiqi imana qovuşmaq üçünsə özündə köklü dəyişiklik etməsinin vacibliyi başa salınmalı, Allahın dinindən üstün tutduğu hər şeydən əl çəkməsinin mühüm olması bildirilməlidir.

Başa salmaq lazımdır ki, insanın hər hansı başqa bir varlığı deyil, öz istəklərini Allahın əmr və qadağalarından üstün tutması, öz ağlını Qurandan yüksək görməsi də açıq-aşkar şirkdir. Quranda belə insanlar **“nəfsini ilah**

**edənlər"** (Furqan surəsi, 43) kimi təsvir edilir və Quran ayələrinə görə vəziyyəti bu şəkildə açıqlanır:

> **Nəfsinin istəklərini özünə ilah qəbul edəni gördünmü?! Allah onu Öz əzəli elmi ilə bildiyi üçün haqq yoldan azdırıb qulağını və qəlbini möhürləmiş, gözünə də pərdə çəkmişdir. Elə isə Allahdan başqa kim onu doğru yola yönəldə bilər?! Hələ də düşünüb öyüd almırsınızmı? (Casiyə surəsi, 23)**

İnsanı şirkdən qurtarmaq üçün ona verilməsi vacib olan məlumat isə həqiqətdə maddənin əsl mahiyyəti ilə bağlı "köklü məlumat"dır.

Nəticədə insanın şirkdən canını qurtara bilməsi üçün Allahı hər şeydən üstün tutması, Onu hər şeydən çox sevməsi və Onun hökmündən başqa heç bir hökmü qəbul etməməsi lazımdır. Bu isə cahil cəmiyyətdə xarakter və zehnin quruluşunun tamamilə yıxılması və onun əvəzində Qurana əsaslanan bir xarakter və zehin quruluşu yaratmaqla mümkün olar. Təbliğ edilən insandan umulan hərəkət də budur, əks halda din ona açıqlanmış, ancaq buna itaət etməmiş bir insan kimi çox böyük əzab görəcəkdir.

Ancaq daxilində bu "çevrilişi" etməsi üçün ona kömək etmək lazımdır. İlkin olaraq həmin şəxsə həqiqi İslam anladılmalıdır. Çünki onun cahil cəmiyyətdə tanıdığı din bir çox xurafat və ədalətsizlikdən ibarət azğın bir modeldir və buna görə islama qarşı bir çox fikirlərə sahib olması mümkündür. Yaxud dini heç tanımamış ola bilər. Bu səbəbdən dini ona ətraflı şəkildə açıqlamaq lazımdır.

## 1) Quran haqdır və dəyişdirilməmişdir

Dünya üzərindəki istənilən bir insandan Qurani-Kərim haqqında nə bildiyini soruşsanız, o, sizə bunun İslam dininin müqəddəs kitabı olduğunu deyəcək. Bu, düzgün bir cavabdır, ancaq kifayət edəcək qədər deyil. Çünki Quran insanların böyük bir hissəsinin zənn etdiyi kimi, sadəcə dünyaya müsəlman kimi gəlmiş və ya sonradan müsəlmanlığı qəbul etmiş insanlara deyil, Allahın bütün bəşəriyyətə göndərdiyi və qiyamət günündə insanları cavabdeh sayacaq müqəddəs kitabdır. Ancaq insanların bir hissəsi qiyamət günündə cavabdeh olacaqları Quran haqqında çox az məlumata malikdir. Bu halda bütün insanların Quranın göndərilmə məqsədi və dinin hökmləri ilə bağlı hər xırdalıqları bilməsi və bunları da həyatında tətbiq etməsi lazımdır. İnsanın onu yaradan Rəbbinə qarşı cavabdehliyini öyrənəcəyi yeganə qaynaq Qurandır. Allah hesab günü insanları Qurana görə cavabdeh sayacağını "Zuxruf" surəsində belə bildirir:

**Ona görə də sənə vəhy olunandan möhkəm yapış! Həqiqətən, sən doğru yoldasan. Şübhəsiz ki, o (Quran) həm sənin üçün, həm də qövmün üçün öyüd-nəsihətdir. Siz bundan sorğu-sual olunacaqsınız. (Zuxruf surəsi, 43-44)**

Quran Allahın kəlamıdır. Quran özündən əvvəl endirilmiş müqəddəs kitabları təsdiqləyir və haqla batili ayırır. Quran bütün inananlar üçün bir rəhbərdir və onun bənzərinin olması qeyri-mümkündür.

Quranın haqq kitab olduğunun açıq şəkildə ortada olmasına baxmayaraq tarix boyu bunu inkar edən insanlar olmuşdur. Bu insanların

dediklərindən biri Quranın Peyğəmbər (s) tərəfindən yazılmış olması və ya özlərinin də belə bir kitab yaza biləcəkləri ilə bağlıdır. Allahın və Quranın üstünlüyünü qəbul etməmək üçün bu cür azğın fikirlər deyən insanların bu hərəkətləri hər dəfə böyük bir uğursuzluqla nəticələnmişdir. Həmçinin, Quranın Allah dərgahından göndərilmiş haqq və misilsiz kitab olması ilə bağlı ayələr bu şəkildə bildirilir:

**De: "Əgər bu Qurana bənzər bir şey gətirmək üçün insanlar və cinlər bir yerə yığışsalar və bir-birinə dəstək olsalar, yenə də onun bənzərini gətirə bilməzlər". (İsra surəsi, 88)**

**Bu Quran Allahdan başqasına isnad edilə bilməz. O, ancaq özündən əvvəlkiləri təsdiqləyən və Kitabı (hökmləri) bəyan edəndir. Onda heç bir şübhə yoxdur. O, aləmlərin Rəbbi tərəfindəndir. Yoxsa onlar: "(Məhəmməd) onu özündən uydurdu!" - deyirlər? De ki: "Əgər haqlısınızsa, Allahdan başqa bacardığınız kimsələri (köməyə) çağırın və siz də ona bənzər bir surə gətirin!" Əksinə, onlar həqiqətini dərk edə bilmədikləri və yozumu onlara gəlib çatmayan Quranı yalanladılar. Onlardan əvvəlkilər də belə yalanlamışdılar. Bax gör, zalımların sonu necə oldu! (Yunis surəsi, 37-39)**

Əslində təbliğdəki əsas hədəf bəhsi keçən insanların Quranı özlərinə rəhbər seçməsidir. Əks halda həqiqi imandan və qurtuluşdan danışmaq olmaz. İnsan cahil əxlaqının bütün şifahi və ya yazılı qanunlarından uzaqlaşaraq özünə yalnız Quranı rəhbər seçən və Quranın hər hökmünə çox dəqiq davranan bir möminə çevrilməlidir.

Bunun üçün də əvvəlcə Quranı tanımalı və onun Allah sözü olduğuna inanmalıdır. Bu səbəbdən təbliğ edilən şəxsə Quranın Allahdan bir vəhy olduğuna və endiriləndən bəri bir hərfinin belə dəyişmədiyinə dair açıq sübutlar göstərilməlidir.

**"Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur. O, hər şeyi eşidən və biləndir!"** (Ənam surəsi, 115) ayəsindən də göründüyü kimi, Quran Allah tərəfindən endirilmişdir və yenə Onun tərəfindən qorunaraq dəyişdirilməsi əngəllənmişdir. Bu qorunmanı Allah **"Şübhəsiz ki, Quranı biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq"** (Hicr surəsi, 9) ayəsi ilə də xəbər verir.

Quranın qorunmasının ən mühüm dəlillərindən biri içində heç bir ziddiyyət və əyriliyin olmamasıdır. 23 il ərzində müxtəlif hadisə və şərtlərə görə endirilmiş olan ayələrin heç biri digəri ilə ziddiyyətli olan fikir və ya hökm daşımır. Bu vəziyyətə Allah bu ayə ilə diqqəti yönəldir:

**Onlar Quranı düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən gəlmiş olsaydı, həqiqətən, onda çoxlu ziddiyyətlər tapardılar. (Nisa surəsi, 82)**

Bir başqa ayəyə görə də **"Həmd olsun o Allaha ki, Quranı heç bir əyriliyə yol vermədən öz bəndəsinə nazil etdi"** (Kəhf surəsi, 1). Əksini deyənlərə verilən cavab isə açıqdır: **"Əgər doğru deyirsinizsə, ona bənzər bir surə gətirin və Allahdan başqa kimə gücünüz çatırsa, onu da çağırın!"** (Yunis surəsi, 38). Allahın haqq dinini bildirdiyi Quran elə bir kitabdır ki, **"Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər"** (İsra surəsi, 88).

## 2) Quran əxlaqını hər an yaşamaq

> **Yoxsa onlar (İslamdan əvvəlki) cahiliyyə dövrünün hökmünümü istəyirlər? Yəqinliklə inanan bir qövm üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər?!**
>
> **(Maidə surəsi, 50)**

İnsanlar Allahın rizasını və cənnəti yalnız Qurana iman gətirdiklərini bəyan etməklə qazanmayacaqlar. Bu imanın həyata keçirilməsi, insanın gündəlik həyatının hər mərhələsində Quranı rəhbər tutması lazımdır. Əgər kitabı bilib tətbiq etməsə, **"Tövrata əməl etməyə mükəlləf olduqdan sonra ona əməl etməyənlər belində çoxlu kitab daşıyan ulağa bənzərlər..."** (Cümə surəsi, 5) ayəsində göstərilən kimi ola bilər. Mühüm olan məsələ hər mövzunu Quranın rəhbərliyi ilə düşünmək, bununla bərabər içindəki cahil cəmiyyətin adət və ənənələrini rədd etməkdir.

İnsan qınadığı hər şeyi yalnız Qurana zidd olduğu üçün rədd etməli, bəyəndiyi bir şeyi yalnız Qurana uyğun olduğu üçün bəyənməli, qarşılaşdığı hər hadisədə Quranın rəhbərliyi ilə qərar verib hərəkət etməlidir. Əlbəttə ki, bu dəyişiklik bir gündə ola bilməz. Quranın əvvəlcə öyrənilməsi, sonra da həyata keçirilməsi müəyyən bir vaxt tələb edir. Ancaq mühüm olanı bu dəyişiklik üçün niyyət etmək, sonra da qərarlı şəkildə davranmaqdır. Təbliğat aparan insanın üzərinə düşən vəzifə isə əvvəlcə təbliğ etdiyi insanın bu dəyişikliyə başlaması üçün onu yola gətirmək, sonra da onun Qurana keçid mərhələsində etdiyi səhvləri gözəl bir dillə açıqlayaraq həmin şəxsə kömək etməkdir.

## 3) DÜNYA İMTAHAN YERİDİR

Təbliğ edilən şəxs iman gətirdiyini bəyan etməklə "cənnət əhli" mömin olduğunu zənn edə bilər. Ancaq iman gətirdiyini bəyan etmək Qurana bağlı olaraq davam etdiriləcək olan uzun bir təlimin ilk addımıdır. Quran, möminləri **"...Bizim Rəbbimiz Allahdır – deyən, sonra da düz olan kəslər..."** (Fussilət surəsi, 30) kimi təsvir edir. Bu düz istiqamət Allahın insanın imanını sınamaq və kamilləşdirmək məqsədi ilə edəcəyi bir çox imtahan və əngələ baxmayaraq tutdurulacaq. Bir ayədə bu şəkildə bildirilir:

**İnsanlar imtahana çəkilmədən yalnız: "İman gətirdik!" – deməklə onlardan əl çəkiləcəyinimi hesab edirlər? Şübhəsiz ki, Biz onlardan əvvəlkiləri də imtahana çəkmişdik. Allah doğru deyənləri də, yalançıları da, əlbəttə, bilir.**

**(Ənkəbut surəsi, 2-3)**

Əslində müvəqqəti və yetərsiz olan bu dünyanın və onun üzərində yaşadığımız həyatın yaradılmasındakı səbəblərin birincisi insanın imtahan edilməsidir. İnsan üçün əsl yurd bu deyildir və müvəqqəti "gözləmə salonu"nda yalnız sınaq üçün olur. Quranda bu həqiqətdən belə bəhs edilir:

**O, hansınız daha yaxşı əməl edəcək deyə sizi sınamaq üçün ölümü və həyatı yaratdı. O, qüdrətlidir, bağışlayandır.**

**(Mülk surəsi, 2)**

Sahib olduğu bədən də insana bir məqsədlə verilmişdir. Allah belə buyurur:

**Şübhəsiz ki, Biz insanı sınamaq üçün qarışıq bir nütfədən yaratdıq, sonra da onu eşidən və görən bir varlıq halına gətirdik. (İnsan surəsi, 2)**

İnsanın sınanmasının müxtəlif üsulları var. Ən mühüm olanlarından biri Allahın imtahan məqsədi ilə göstərdiyi çətinliklərdir. Bu hal Quranda belə açıqlanır:

**Şübhəsiz, Biz sizi bir az qorxu, bir az aclıq, bir az mal-dövlət, can və məhsuldan əskiltməklə sınayarıq. Səbir edənlərə müjdə ver! (Bəqərə surəsi, 155)**

Quranda da rəsulların və ya onların yolunu gedən möminlərin necə imtahan edilməsinə dair bir çox nümunələr var. İman gətirdiklərinə görə ailələrinin və ya ətrafdakıların təzyiqi, böhtanlar, istehzalar, özlərinin xətaları; bunların hamısı bir sınaqdır. Bu üzüntü və çətinliklərə qarşı mömindən gözlənən davranış **"...Mənə düşən gözəl bir səbirdir..."** (Yusif surəsi, 18) deyərək heç vaxt Allahın rəhmətinə və yaxınlığına şübhə etmədən hər növ çətinliyi yenə Allahın köməyi ilə dəf edəcəyini bilərək qəti qərarlılıq göstərməkdir.

Çətinliklər imtahan səbəbi olduğu kimi nemətlər də imtahan səbəbidir. Allah insana verdiyi nemətlə onun kamilliyini, Ona olan sədaqətini yoxlayır.

Nemətlə sınanmaqda məqsəd möminin cahiliyyə xarakterinin mühüm xüsusiyyətlərindən olan rifaha çatdıqda lovğalıqdan uzaq olmasının

isbatlanmasıdır. Bu primitiv hərəkət cahil insanların ortaq düşüncəsi kimidir, əllərinə böyük bir sərvət və ya şöhrət keçdiyi zaman lovğalanmağa, azğınlaşmağa, digər insanlara qarşı zalım və təkəbbürlü davranmağa başlayırlar. Qəlbi daşlaşır, Allahdan tamamilə uzaqlaşırlar.

Ancaq nemət insanı azğınlaşdırmaq üçün deyil, şükür etdirmək üçün verilir. Bunu düşünən mömin Qurandakı ifadə ilə desək, "dünya həyatının müvəffəq bəzəyindən" sadəcə olaraq Allahın rizasını qazanmaq üçün yararlanır, dünyəvi zövqləri və gözəllikləri istehlak etmək üçün yarışa girmir. Yaşadığı həyatda qarşısına heç bir şey təsadüfən çıxmamışdır, mütləq necə hərəkət edəcəyinin sınandığı bir vəziyyətlə qarşılaşır. Bunu bilən kimsə artıq dünyanın mühüm bir sirrindən agah olmuşdur. Beləliklə, Allaha xoş gedəcək ən gözəl, düzgün və ağıllı davranışı da göstərmiş olur.

Qısa dünya həyatında Rəbbi tərəfindən sınandığını qavrayan bir insan, dinin ən mühüm təməllərindən birini qavramışdır. Buna görə də, təbliğ edilən şəxs bu mövzuda əvvəlcədən maarifləndirilməlidir. Çünki həqiqətən iman gətirmişsə, qısa müddət ərzində müxtəlif çətinliklərlə qarşılaşacaq və səmimi imtahana sahib olub-olmayacağı məsələsində sınaqdan keçiriləcək.

## 4) DİN ƏXLAQI ASANDIR VƏ İNSANIN YARADILMASINA UYĞUNDUR

Cahil cəmiyyətdə dinə adət-ənənələr, yanlış inanclar və daha bir çox kənar ünsürlər təsir etmiş və nəticədə ortaya tətbiqi çox çətin, sapqın və yanlış bir model çıxmışdır. Buna dinə qarşı mübarizə aparan inkarçıların hədəfi olan təbliğatları da əlavə etdikdə bir çox insan İslamı çox çətin, tətbiq etdikdə insanı çətinliyə salacaq din kimi təsəvvür edir.

Ancaq bu, bir aldanma və yanlışdır. İnsanı yaradan Allahdır və **“Məgər yaradan bilməzmi? O, incəliyinə qədər biləndir; xəbərdardır”** (Mülk surəsi, 14) ayəsində də vurğulandığı kimi, yaratdığı bəndəni ən yaxşı tanıyan, onun istək və ehtiyaclarını ən yaxşı bilən Odur. İnsanlar üçün müəyyən etdiyi dini də onlara ən uyğun şəkildə vermişdir. Məqsəd insanları üzmək yox, onların ruhlarına ən uyğun olan sistem içində Rəbbini tanıması, Ona qulluq etməsi, həqiqi qurtuluş və xoşbəxtliyə çatmasıdır. Bir ayədə Allah belə buyurur:

**Allah yolunda layiqincə cihad edin! O sizi seçdi və atanız İbrahimin dinindəki kimi, din barəsində sizə də heç bir çətinlik vermədi. Peyğəmbərin sizə şahid olması, sizin də insanlara şahid olmağınız üçün O, həm daha əvvəl (gələn kitablarda), həm də bunda (Quranda) sizi “müsəlmanlar” adlandırdı. Elə isə namazı qılın, zəkatı verin və Allaha sarılın (güvənin)! O, sizin mövlanızdır (himayədarınızdır). O nə gözəl mövla və nə gözəl yardımçıdır! (Həcc surəsi, 78)**

Bir başqa ayədə isə belə deyilir:

**Biz Quranı sənə əziyyət çəkəsən deyə nazil etmədik! Məhz (Allahdan) qorxanlara nəsihət olsun deyə (nazil etdik).**

**(Taha surəsi, 2-3)**

İslamın məqsədi insanları asan və rahat olana dəvət etmək və insanları ən çox rahat edəcəkləri həyatla təmin etməkdir. Bu, Allahın rəhmətindəndir. Quranda belə deyilir:

**Allah sizin yükünüzü yüngülləşdirmək istəyir. Axı, insan zəif olaraq yaradılmışdır. (Nisa surəsi, 28)**

Bu həqiqət təbliğ edilən insana mütləq geniş şəkildə anladılmalıdır. Beləliklə, dindən uzaq durmaq üçün nəfsin gətirdiyi ən böyük bəhanələrdən biri yox edilmiş olur. Dinin asanlığını insana açıqlayarkən onun cahiliyyədə öyrəndiyi din modelinin yanlışlıqları da göz önünə gətirilməli, İslamın bir parçası bildiyi xurafatlar onun beynindən silinməlidir.

## 5) Din məhdudiyyət və zorakılıq deyil, azadlıqdır

Cahil cəmiyyət dinin "çətin" olduğuna inandığı qədər onun "zorakı" və "azadlıqları məhdudlaşdıran" olduğunu da düşünür. Bu səhv məntiqə görə, din insanlara müxtəlif məhdudiyyətlər qoyur və beləliklə də onların sərbəstliyini yox edir. Bu cəmiyyət içində özlərini "sərbəst" adlandıranlar da mümkün olduğu qədər dindən uzaqlaşır, hətta dinə qarşı çıxırlar.

Ancaq həqiqət bunun tam əksinədir. Din sərbəstlik, dinsizlik isə təzyiq və əsarət gətirər.

Lakin bu həqiqətin qavranması üçün əvvəlcə insan ruhunun tam mahiyyətinin tanınması lazımdır. Mövzunu bizə açıq şəkildə Quran bildirir və insan ruhunun "cüt yönlü" olduğunu "Şəms" surəsində belə açıqlayır:

**And olsun günəşə və onun aydınlığına! And olsun ondan sonra çıxan aya! And olsun onu (günəşi) üzə çıxardan**

**gündüzə! And olsun onu (günəşi) örtən gecəyə! And olsun göyə və onu xəlq edənə! olsun yer üzünə və onu döşəyənə! And olsun nəfsə, onu yaradıb surət verənə, Ona şər və xeyir duyğularını ilham edənə (and olsun)! Nəfsini günahdan təmizləyən nicat tapmışdır. Nəfsini günaha batıran isə ziyana düşmüşdür. (Şəms surəsi, 1-10)**

Ayələrdə nəfslə bağlı verilən məlumatlarda göstərilir ki, Allah insanı yaradarkən onun nəfsinə (mənliyinə) həm pisliyi, həm də ondan qorunmağa, yəni yaxşılığı ilham etmişdir. İnsanın içində bu iki güc eyni anda olur. İnsanın qurtuluşu isə bu pislikdən qorunmağı seçməsidir. Yox, əgər belə etməsə, süquta məhkum olar. Nəfsində pislik olduğunu qəbul etməz. Etmədiyi halda da bu pislikdən qorunacaq şüura sahib ola bilməz, ayənin ifadəsi ilə o pisliyin "üstünü örtər", daxilində onu bəsləyər. Bir sözlə, o pislik onu udar.

Nəfsin içindəki bu pisliyin varlığını qəbul edib ondan qorunmaq insana "fəlah"ı, yəni qurtuluşu gətirir. Sərbəstlik isə bu fəlahın özüdür.

Çünki insanı ətraf güclərdən daha böyük təzyiq altına alan əsl güc nəfsindəki bəhs edilən pislikdir. Bu pislik insanı xudbin edir, ona qısqanclıq gətirir. Həmişə bir inamsızlıq və gələcək qorxusu yaradır. Ən pisi də insanın nəfsindəki bu gücə görə sonu olmayan məhdudiyyət və qəzəb içində boğuşmasıdır. Nəfsin içindəki bu güc həmişə insana daha çox mal-dövlət yığmasını, çox pul qazanmasını və cəmiyyətdə status əldə etməsini əmr edir. Zəngin olmaq böyük həvəsdir, bu, təmin edilsə, yeni həvəslər yaranacaq. Beləliklə də onlar bir-birinin ardınca davam edəcək. Nicatı bunlardan qurtarmaqla əldə etmək olar. Qurandakı ifadə ilə desək, **"...nəfsinin xəsisliyindən, tamahından qorunub saxlanan kimsələr – məhz onlar nicat tapıb səadətə qovuşanlardır"** (Həşr surəsi, 9).

İnsan bu həvəslərin əsarətindən qurtardığı zaman müstəqilləşir. Bu məqamda artıq onun həyatının mənası bəhsi keçən bitib-tükənməz həvəsləri

əldə etmək deyil. Həyatdakı məqsədi yalnız Allahın razılığını qazanmaqdır ki, insan da elə bunun üçün yaradılmışdır.

Həqiqi sərbəstlik elə budur: Allaha qul olmaq və beləliklə də Allahdan başqa hər şeydən azad olmaq. Bu səbəbdəndir ki, hz. İmranın həyat yoldaşı Quranda keçən bu duanı etmişdir:

**Bir zaman İmranın zövcəsi belə demişdi: "Ey Rəbbim, mən bətnimdəkini azad bir bəndə olaraq Sənin üçün nəzir etdim. (Onu) məndən qəbul et! Şübhəsiz ki, Sən eşidənsən, bilənsən". (Ali İmran surəsi, 35)**

Eyni səbəbdən hz. İbrahim atasına belə demişdir:

**Bir zaman o, atasına demişdi: "Atacan! Eşitməyən, görməyən və sənə heç bir fayda verə bilməyən şeylərə (bütlərə) nə üçün ibadət edirsən? (Məryəm surəsi, 42)**

Rəsulların işi isə insanları nəfslərindəki tamahlardan və ya başqa insanlara qul olmaqdan qurtarmaq və onları yalnız Allaha qul olmağa dəvət etməkdir. İnsanlar yaradılış məqsədinə zidd olan bu azğınlıqlardan özləri qurtardıqca sərbəst olurlar. Buna görədir ki, Quranda rəsul möminlərin **"ağır yüklərini yüngülləşdirən və üstündəki buxovları açan"** (Əraf surəsi, 157) insanlar kimi təsvir edilmişlər.

Elə bu səbəbdəndir ki, islam cahil cəmiyyətin əksinə olaraq insana təzyiq etməz, onu sərbəst buraxar. Bunun təbliğ edilən qarşı tərəfə açıqlanması olduqca mühümdür. Mövzu yuxarıda anlatdığımız "sərbəstlik təsviri" ilə açıqlanmalı, həm də dini "təzyiq göstərən" bilməsinə səbəb olan xurafatlar və

bidətlər (dinə sonradan keçmiş kənar ünsürlər) qarşı tərəfin zehnindən silinməlidir.

İslam müstəqillik tərəfdarı olduğuna görə onun təbliğ edilməsində də təzyiqdən istifadə edilməyəcək. Rəsulullaha (s) Allah Quranda bu əmri vermişdir:

(Ey Peyğəmbər!) Sən öyüd-nəsihət ver! Sən yalnız öyüd-nəsihət verənsən. Sən onları məcbur edən deyilsən. (Ğaşiyə surəsi, 21-22)

Eyni mövzudan aşağıdakı ayədə də bəhs olunur

Dində məcburiyyət (zorakılıq) yoxdur. Doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edilmişdir. Artıq kim Tağutu (bütləri və ya şeytanları) inkar edib Allaha iman gətirərsə, o, heç vaxt qırılmayan ən möhkəm qulpdan yapışmış olar. Allah hər şeyi eşidəndir, biləndir! (Bəqərə surəsi, 256)

Təbliğ edilən şəxsə bu mövzu açıqlanmalı, nə İslamın qanunları, nə də onlarla yaxınlıq edən möminlər tərəfindən heç bir təzyiq və ya məcburiyyətlə qarşılaşmayacağı, bunun Quran əxlaqına zidd olduğu və Allahın razı olmadığı bir əxlaq olacağı denilməlidir. Beləcə, cahillərin keçirdiyi yersiz həyəcan hissi ortadan qalxar və təbliğin qarşısındakı əngəllərdən biri də aradan götürülər.

# TƏBLİĞAT APARARKƏN İSTİFADƏ EDİLƏCƏK ÜSULLAR

Təbliğdə nələrin dendiyi qədər bunların necə denməsi də vacibdir. Təbliğat aparanın vəzifəsi sadəcə Quran ayələrini bir-birinin ardınca oxumaq, iman məsələlərini anlatmaq və qarşısındakına "iman gətir" deməkdən ibarət deyil. Bütün bunlarla yanaşı qarşı tərəfin ən çox hansı üslubdan, hansı izah etmə tərzindən təsirlənəcəyini müəyyənləşdirməli, ünsiyyət zamanı həmişə onun reaksiyasını diqqətlə izləyərək anlayıb-anlamadığını nəzarətdə saxlamalı, əgər bir əskiklik varsa, buna uyğun bir metod təşkil etməlidir.

Şübhəsiz ki, təbliğin nəticə verməməsi, qarşı tərəfin inkarda israr etməsi də mümkündür. Belə olan halda təbliğin hansı nöqtəyə qədər gedəcəyi, harada kəsiləcəyi və sonda nə etmək lazım gəldiyi də mühüm məsələlərdəndir.

Bütün bu məsələlərlə bağlı Quranda möminlərə yol göstərilir. Ayələrə nəzər salsaq, rəsulların təbliğat apararkən müxtəlif üsullardan istifadə etdiyini, mövcud şərtlərə və qarşılarındakı insanlara görə fərqli metodlardan yararlandığını görərik.

## 1) Təbliğə uyğun olan insanı müəyyən edə bilmək

Təbliğat aparan əsasən onu bilməlidir ki, hər insan ilk andan iman gətirməyəcək. İnsanlar istər o vaxta qədər olduqları təlim-tərbiyə və təhsilin, istərsə də ətrafındakıların təsiri ilə onlara edilən bu təbliğə mənfi münasibət

göstərə, hətta dinləməyi belə rədd edə bilər. Hər insanın qısa müddət ərzində iman gətirməsini düşünmək sadəlövhlük olar. Bu səbəbdən də təbliğ edərkən ilk öncə fitrətən dinə meylli olan və vicdanlı insanları seçmək lazımdır. Əksinə, dini bütün hərəkətləri ilə dinə qarşı çıxan təkəbbürlü birisinə təbliğ etməyin heç bir xeyri yoxdur. Allah kitabında belə buyurur:

**Sən ölülərə (haqqı) eşitdirə bilməzsən. Arxasını dönüb gedən karlara da (haqq yola) dəvəti eşitdirə bilməzsən. Sən korları zəlalətdən uzaqlaşdırıb haqq yola yönəldə bilməzsən. Sən (bu dəvəti) yalnız ayələrimizə inanıb təslim olanlara eşitdirə bilərsən. (Nəml surəsi, 80-81)**

İman gətirənlər və gətirməyənlər arasındakı fərq başqa bir surədə belə bildirilir:

**Həqiqətən, onların əksəriyyəti barəsində söz (əzab hökmü) vacib olmuşdur. Çünki onlar iman gətirməzlər. Biz onların boyunlarına çənələrinə dirənən zəncirlər vurduq. Buna görə də başları yuxarı qalxmışdır. Önlərinə bir sədd, arxalarına da bir sədd çəkib onları bağlamışıq. Buna görə də onlar (haqqı) görə bilməzlər. Sən onları xəbərdar etsən də, etməsən də onlar üçün birdir. Onlar iman gətirməzlər. Sən yalnız Qurana tabe olan və görmədiyi halda Rəhman olan Allahdan qorxan kimsəni xəbərdar edə bilərsən. Buna görə də onu bağışlanma və gözəl bir mükafatla müjdələ! (Yasin surəsi, 7-11)**

Mömin təbliğat aparmağa başladığı zaman bu məhdudiyyətlərə görə düşünməlidir. Əgər ünsiyyət qurduğu şəxsdə az da olsa vicdan və səmimiyyət əlaməti görmürsə, təbliğdə israr etmək vaxt itkisi demək olacaqdır. Çünki bir çox ayədə vurğulandığı kimi, insanların çoxu iman gətirməzlər. Möminin vəzifəsi bu çoxluğun arasında yaşayan, ancaq ürəyi imana meylli olan nadir insanları tapıb onları iman gətirməyə dəvət etməkdir.

## 2) Təbliği qarşıdakı insan haqqında qənaətə gələnədək davam etdirmək

Yuxarıda dediklərimizə baxmayaraq bir insanın imana meylli olması hesab oluna və bununla da təbliğə başlana bilər. Ancaq təbliğ aparılan zaman izahlardan, reaksiyalardan, göstərdiyi münasibətlərdən onun dinə baxışını müəyyən etmək olar. Bu səbəbdən əgər insanın səmimiyyətinin bir əlaməti yoxdursa, təbliği onun haqqında bir qənaətə gələnə qədər davam etdirmək lazımdır. Bu məqamda əgər danışılan şəxsin dinə meylli olmadığı anlaşılsa, möminlər qiymətli vaxtlarını daha xeyirli işlərə və yenə təbliğə xərcləmək üçün bu insandan ayrılırlar.

Bu məqamda unudulmamalıdır ki, qarşı tərəfin iman gətirib-gətirməməsi ilə möminə qiymət verilməz. Möminin vəzifəsi sadəcə olaraq dini təbliğ etməkdir, hidayət vermək isə Allaha məxsusdur. Möminin uğuru ancaq təbliğ fəaliyyətini tam mənada, Allahın istədiyi kimi yerinə yetirməsi ilə ölçülər. Təbliği lazım olan yerdə kəsib daha xeyirli bir işə istiqamətlənmək isə yenə Allahın rizasına uyğun bir hərəkətdir. Mömin imana qarşı çıxan insana hz. Hudun öz qövmünə dediyi aşağıdakı söz kimi bir tərzdə üz tutmalıdır:

Əgər üz çevirsəniz, bilin ki, mənimlə göndəriləni sizə təbliğ etdim. Rəbbim (istəsə,) sizin yerinizə başqa bir qövm gətirər və siz Ona heç bir zərər verə bilməzsiniz. Şübhəsiz ki, Rəbbim hər şeyə nəzarət edir". (Hud surəsi, 57)

## 3) İNSANIN REAKSİYASINI VƏ SƏMİMİYYƏTİNİ ANALİZ ETMƏK

Təbliğat aparan mömin danışdığı insanın hərəkətlərini ölçüb-biçməli, qarşısındakının deyilənlərə münasibətini diqqətlə analiz etməlidir. İnsanın qavrama imkanlarına görə bəzən mövzunu, üslubunu dəyişdirməsi və ya onun ruh halına, anlama qabiliyyətinə görə müəyyən bir vaxt ayırması lazım gələcək. Yalnız bu şəkildə təbliğdə bir manevrdən yararlanmaq və təbliğ edilən insana faydalı, ən uyğun münasibət göstərilmiş mümkün olar. Bu üsulla insanın səmimiyyətini də ölçmək olar. Əgər dini öyrənməyə meyli varsa, davam edilir, lakin mənfəət əldə etmək kimi fərqli düşüncəsi yaxud da səmimi olmadığı düşünülsə, vaxtı boş yerə itirmək olmaz.

Bir mövzu anladıldıqdan və ya bir məlumatı verdikdən sonra qarşı tərəfin münasibətinə diqqət yetirmək və ondan sonrakı mövzunu ona uyğun müəyyən etmək Quranda hz. Süleymanın istifadə etdiyi bir üsul kimi bildirilir. Hz. Süleyman dəstəsindəki Hüdhüdün vasitəsilə Səba hökmdarına məktub yolladığı zaman Hüdhüdə bu əmri verir:

Mənim bu məktubumu apar və onlara at! Sonra da bir kənara çəkil və bax gör nə cavab verəcəklər!" (Nəml surəsi, 28)

## 4) İNSANIN İMANI GÜCLƏNMƏDƏN, İBADƏTƏ DƏVƏT ETMƏMƏK

Dini təzəcə tanıyacaq insanların ilk öncə Allaha və axirət gününə iman gətirməsi təmin edilməlidir. Çünki dinin vacib bildiyi şeyləri etməsi üçün bunların məntiqini qavramalı, bu ibadətləri şüurlu olaraq və öz istəyi ilə etməlidir. Belə olmasa, yamsılayaraq nə etdiyini bilməz və ya məntiqini bilmədiyi üçün etmək istəməz. Bu səbəbdən bir insanı dini ibadətləri yerinə yetirmək istəyəcəyi və anlayacağı imani səviyyəyə gətirmək mühüm məsələlərdəndir. Bu müddət ərzində o, sual verənə və ya tətbiq etmək düşüncəsi formalaşana qədər ibadətə aid təkliflər verməmək də olar. Onsuz da Allaha səmimi qəlblə iman gətirən və axirət gününə inanan bir insan da vaxtı gəldikcə Quranda göstərilən ibadətləri yerinə yetirməyi özü istəyəcəkdir.

## 5) MÖMİNLƏRİN GÜC VƏ ƏZƏMƏTİNİ GÖSTƏRMƏK

Cahil cəmiyyətdə dinin yalnız kasıb insanlara xitab etdiyinə dair batil inanc var. Şübhəsiz ki, bu, məntiqsiz bir sözdür, çünki İslam bütün insanları eyni yola, Rəbbi olan Allahın yoluna dəvət edir. Ancaq cahillərin düşündüyü bu yanlış inancın darmadağın olması üçün bəzən "hərəkətli" nümunələrə ehtiyac var. Dünyanın gözqamaşdıran nemətlərini əldə etmişkən, böyük bir zənginliyə və gücə sahib ikən ixlaslı bir şəkildə islamı yaşayan və bəhsi keçən imkanlarından da din yolunda istifadə edən müsəlmanlar cahillərin öz fikirlərindən ayrılması üçün ən yaxşı nümunədir.

Üstəlik insanlar gücə, zənginliyə və əzəmətə həsəd aparmağa meyllidir. Gözəl əxlaqlı, səmimi, ancaq maddi tərəfdən güclü olmayan müsəlmanlardan uzaqlaşıb bəsit və əxlaqsız insanlara sırf zəngin olduqları üçün rəğbət bəsləmələrinin, onlar kimi olmaq istəklərinin səbəbi budur. Ancaq möminlərin inkarçılardan da çox zənginlik və əzəmət içində görünməsi onların əlindəki bu "psixoloji" mənfəəti möminlərin lehinə çevirəcək.

Quranda hz. Süleymanın güc və əzəmətini və bunlardan təbliğdə istifadənin vacibliyinin vurğulanmasının səbəblərindən biri də budur. Ayədə hz. Süleymanın mülkündən təsirlənən Səba məlikəsinin təslim olması belə qeyd edilir:

**Ona: "Saraya daxil ol!" – deyildi. Oranı görən zaman onu dərin bir su gölməçəsi zənn etdi və ətəyini qaldırdı. (Süleyman) dedi: "Bu, büllurdan düzəldilmiş bir döşəmədir". (Bəlqis:) "Ey Rəbbim! Həqiqətən, mən özümə zülm etmişəm. Süleymanla birlikdə aləmlərin Rəbbi olan Allaha təslim oldum!" – dedi. (Nəml surəsi, 44)**

Hz. Süleymanın etdiyi kimi, Allahın verdiyi nemətlərdən Allahın dinini tanıtmaqda istifadə edilməsi də bir ibadətdir. Hz. Süleyman hazırlatdığı bir çox sənət əsərindən bu məqsədlə istifadə etmişdir. Digər möminlər də malik olduqları qüvvə və əzəmətdən dinin yayılması üçün vasitə kimi istifadə edə bilərlər.

## 6) İZAH EDİLƏNLƏR HAQQINDA DÜŞÜNDÜKLƏRİNİ SORUŞMAQ

Heç vaxt unutmaq lazım deyil ki, təbliğ yalnız bir "anlatma" işi deyil. Qarşı tərəfin fikirlərinin öyrənilməsi, suallarına cavab verilməsi, onu narahat edən məsələlərin dəlillərlə aradan götürülməsi lazımdır. Buna görə ünsiyyət zamanı onun fikrini soruşmaq, əmin olub-olmadığına nəzarət etmək və buna uyğun olaraq yeni mövzuya və ya üsluba keçilməlidir.

Quranda rəsulların istifadə etdiyi metodlara nəzər salsaq, onların sorğu-sual yolu ilə qövmlərinin fikirlərini öyrəndiyini görürük. Qövmünə **"Ey qövmüm, fikirləriniz nədir, deyə bilərsinizmi?..."** (Hud surəsi, 88) deyə soruşan hz. Şüeyb buna bir nümunədir. Hz. İbrahim isə bir-birinin ardınca gələn suallarla qövmünə təbliğ edir:

Şübhəsiz ki, daha əvvəl İbrahimə də doğru yolu bəxş etmişdik. Biz onu yaxşı tanıyırdıq. Vaxtilə o, atasına və qövmünə: "Sizin ibadət etdiyiniz bu heykəllər nədir?" – demişdi. Onlar: "Biz atalarımızın onlara ibadət etdiklərini görmüşük", – demişdilər. İbrahim: "Həqiqətən, siz də, atalarınız da açıq-aydın bir zəlalət içindəsiniz!" – demişdi. Onlar: "Bizə haqqı gətirmisən, yoxsa (bizimlə) oyun oynayırsan?" – demişdilər. İbrahim isə belə demişdi: "Xeyr! Rəbbiniz, yaratdığı göylərin və yerin Rəbbidir. Mən də buna şahidlik edənlərdənəm. Allaha and içirəm ki, siz dönüb getdikdən sonra bütlərinizə bir hiylə quracağam!" Beləcə, (bütlərdən) böyük olanı istisna olmaqla, digərlərini parça-parça etdi ki, bəlkə, ona müraciət edələr. Onlar belə dedilər: "İlahlarımıza bunu kim edib? Həqiqətən, o, zalımlardandır!" (Bəziləri də:) "İbrahim deyilən bir gəncin

onları ələ saldığını eşitmişdik", – dedilər. "Elə isə onu insanların hüzuruna gətirin ki, bəlkə, şahidlik edələr!" – dedilər. (İbrahimi gətirdikdən sonra ona:) "Ey İbrahim! İlahlarımıza bunu sənmi etdin?" – dedilər. İbrahim dedi: "Xeyr, bunu onların bu böyük olanı etmişdir. Əgər danışa bilirlərsə, özlərindən soruşun!" Bu zaman onlar öz vicdanlarına səslənərək: "Həqiqətən, əsil zalımlar sizsiniz!" – dedilər. Sonra öz inanclarına (küfrlərinə) qayıtdılar (və belə dedilər:) "Sən də yaxşı bilirsən ki, bunlar danışa bilmirlər". İbrahim dedi: "Elə isə, hələ də Allahı qoyub sizə nə bir xeyir, nə də bir zərər verə bilən şeylərəmi ibadət edirsiniz? Tfu sizə də, Allahı qoyub ibadət etdiklərinizə də! Siz hələ də dərk etmirsinizmi?" (Ənbiya surəsi, 51-67)

Təbliğat aparan mömin anlatdıqlarının təsirini ölçmək, hansı anlatma üsuluna üstünlük verəcəyini bilmək və qarşıdakı insanın qavrama tərzini yoxlamaq üçün arabir suallar verməlidir. Qarşısındakı insanın fikirlərində irəliləyiş olub-olmadığını ölçməli, deyilənlər haqqında nə düşündüyünü öyrənməlidir. Bu yolla insanın həm səmimiyyətini, həm də nəyi necə deyəcəyini müəyyən etmiş olur.

## 7) İnsanın xarakterinə ən çox uyğun gələn və ən təsirli izahat metodundan istifadə etmək

Təbliğin təsiredici olması üçün deyilənlərin həqiqətə uyğun olması ilə yanaşı anlatma vurğusunun gücü də nəzərə alınmalıdır. Həmçinin, Quranda

**"Rəbbinin yoluna hikmətlə və gözəl öyüdlə çağır..."** (Nəhl surəsi, 125) hökmü verilir.

Anlatmaq istənilənin üzərində durub mövzunun təsirli nümunələrlə, insanın ehtiyacını tam ödəyəcək şəkildə izah edilməsi bunun bir formasıdır. Bununla yanaşı hər kəsin fərqli xarakteri və fərqli ehtiyacları olduğundan eyni danışıq tərzi və xitabdan yararlanmaq olmaz. Buna görə də müxtəlif insanlara fərqli üslublar tətbiq ediləcəyi kimi müxtəlif izahat metodlarından istifadə etmək də öz təsirini göstərəcəkdir. Məsələn, bir mövzunu lazım gəldikdə geniş şəkildə, ətraflı olaraq deməyin xeyri ola bilər. Bəzən isə arada söhbət açıb qısa və konkret fikirlər demək olar. Bu metodlar qarşıdakı insanın qavrama qabiliyyətini, vəziyyətini və hansı şəkildə daha çox təsirlənəcəyini müəyyən olunmaqla tətbiq edilir.

## 8) İNSANI FİKİRLƏŞMƏYƏ SÖVQ ETMƏK

Sual verməkdə məqsəd qarşı tərəfin fikrini öyrənməklə yanaşı onu müəyyən bir mövzu üzərində düşünməyə vadar etmək də ola bilər. Bu ikincisi təbliğat apararkən çox təsiredici bir metoddur.

Cahil cəmiyyətin xüsusiyyətlərindən biri də Quranda buyurulduğu kimi, düşünməyi bilməməsidir. Cəmiyyət həyatın həqiqi mənasını düşünməyib, sadəcə qazanacağı pul və ya edəcəyi iş haqqında düşünür. Heç biri kainatın necə yarandığını, sahib olduqları bədənin kimin tərəfindən yaradıldığını, ölümlə bərabər insanın hara getməsi kimi təməl imani mövzuları haqqında düşünmür. Fikirləri də sadəcə öz fərdi maddi maraqları üzərində qurulur.

Elə bu səbəbdən də insanı mütləq düşünməyə sövq etmək lazımdır. Həm içində yaşadığı sistemin əyriliyini görməsi, həm də imana aid mövzuları qavraması üçün bu, onun həyatı qədər önəmlidir. Düşünmək insanın

öz-özünə bəzi suallar verməsinə, çatışmazlıq və qüsurları görməsinə və düşdüyü vəziyyətdən sıxıntı keçirməsinə səbəb olacaq. Quranda düşünməyin insanlar üçün böyük faydasından da bəhs olunur. Məsələn, bir yerdə insanlara belə xitab edilir:

> **De: "Deyin görüm, əgər Allah eşitmə və görmə qabiliyyətinizi (əlinizdən) alsa və qəlblərinizə də möhür vursa, Allahdan başqa hansı ilah onları sizə geri gətirə bilər?" Bax gör, ayələri necə açıqlayırıq! Sonra onlar yenə (haqdan) üz çevirirlər.**
>
> **(Ənam surəsi, 46)**

Başqa ayələrdə də yenə düşünməklə bağlı məsələlər var:

> **De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqların və gözlərin sahibi kimdir? Ölüdən dirini, diridən də ölünü çıxardan kimdir? Hər cür işi nizamlayan kimdir?" Onlar: "Allah!" – deyə cavab verəcəklər. O zaman de ki: "Elə isə Allahdan çəkinmirsinizmi?! O, sizin həqiqi Rəbbiniz olan Allahdır. Haqq ortadan qalxdıqdan sonra zəlalətdən başqa nə qalar?! Bəs necə olur ki, (haqdan) döndərilirsiniz?"**
>
> **(Yunis surəsi, 31-32)**

Hz. İbrahim də qövmünün azğınlığının səbəbini, onları düşündürərək tapmalarına kömək olur:

(Ey Peyğəmbər!) Onlara İbrahimin qissəsini də danış! Bir zamanlar o, atasına və qövmünə: "Siz nəyə ibadət edirsiniz?" – demişdi. Onlar da: "Biz bütlərə ibadət edir və (gün boyu) onlara sitayiş etməyə davam edirik!" – demişdilər. O demişdi: "Dua etdiyiniz zaman onlar sizi eşidirlərmi? Yaxud sizə xeyir və ya zərər verə bilirlərmi?" Onlar: "Xeyr, ancaq atalarımızın belə etdiyini görmüşük!" – demişdilər. (Şuəra surəsi, 69-74)

İnanmaq insanın öz iradə və istəyinə veriləcəyi üçün mühüm olan məsələ onu həqiqətlər üzərində düşünməyə sövq etməkdir. Doğrunu görə bilmək üçün insan gərək mövzu haqqında mühakimə yürüdə bilsin. Bu səbəbdən mömin təbliğat apardığı insanı düşünməyə sövq edən tərzdə söhbətlər aparmalıdır.

## 9) "Atalarının dini"nin təsirindən qurtarmaq

İnsanlarda yaşadığı cəmiyyətin yüz illər boyu meydana gətirdiyi adət-ənənəyə uymaqda, atalarından qalan adətləri davam etdirməyə meyllilik vardır. Əlbəttə, əgər bu adət-ənənə Qurana uyğundursa, bunun qorxusu yoxdur. Ancaq Quranda bildirilən həqiqətlərə, islam qanununa zidd tərəfləri varsa, (çox vaxt belə olur) Allah bunları qadağan edir. Çünki müsəlmanın yol göstərəni Allahın endirdiyi Kitabdır: Bu ilahi yol göstərənə qarşı çıxdıqları zaman nə atalarının, nə də başqa "müdrik" insanların miras qoyduğu ənənə və qanunlar onun üçün heç bir məna kəsb etmir. Aşağıdakı ayə mövzunu açıq şəkildə hökmə bağlayır:

> Onlara: “Allahın nazil etdiyinə tabe olun!” – deyildiyi zaman: “Xeyr, biz atalarımızın getdiyi yolu izləyirik!” – deyərlər. Bəs əgər şeytan onları (atalarını) cəhənnəm əzabına çağırırdısa (onda necə)?! (Loğman surəsi, 21)

Bu mühüm mövzu şübhəsiz ki, dinin təbliğ edildiyi insana da anladılmalı, o insan “ataların dini”nin yerinə saf və heç bir təsirə məruz qalmayan şəkildə Qurana uymağa dəvət edilməlidir. Əks halda onun islamı qavraması və həyata keçirməsi mümkün olmayacaq.

## 10) Cahil həyatını təsvir etmək və təsirlərini ortadan qaldırmaq

Təbliğ edilən şəxsə izah edilməli vacib və yararlı mövzulardan biri də içindən çıxdığı cahil cəmiyyətin səfalətidir. Beləcə, bu yanlış quruluşu İslam əxlaqının mükəmməlliyi ilə müqayisə edə və aradakı fərqi açıq şəkildə görə bilər.

Dindən uzaq qalmış cəmiyyətlərin yaşayış sistemində insanların əxlaqi təməli, ədalət anlayışı tamamilə tənəzzülə məruz qalmışdı. İctimai münaqişə və qeyri-sabitlik çoxalır, cinayətlərin sayı artır. Ədalətsizliklər də eyni nisbətlə çoxalır. Allahın elçiləri cəmiyyətlərinə yaşadıqları bu azğın vəziyyəti təsvir etmiş, nicat tapmaq üçün Allahın buyurduqlarını tapdamamağı və bunlara bağlı qalmağı tövsiyə etmişlər. İnsanların sosial və fərdi çatışmazlıqların din vasitəsi ilə aradan qaldırılacağına, Allahın hökmlərinin cəmiyyətdə tətbiq edilməsi ilə o ədalətsiz sistemin avtomatik olaraq dəyişəcəyinə inanması onları dinə yaxınlaşdıran mühüm səbəblərdən biri olacaq.

Hz. Yusif zindanda ondan yuxu yozumunu soruşan iki şəxslə danışarkən bunları deyir:

**Yusif dedi: "Sizə verilən yemək gəlmədən əvvəl onun yozumunu sizə xəbər verəcəyəm. Bu, Rəbbimin mənə öyrətdiklərindəndir. Şübhəsiz ki, mən Allaha inanmayan bir qövmün dinini tərk etmişəm. Məhz onlar axirəti də inkar edirlər. Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe olmuşam. Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın bizə və insanlara olan lütfündəndir. Lakin insanların çoxu (Allaha) şükür etməz. Ey zindan yoldaşlarım, müxtəlif ilahlar daha yaxşıdır, yoxsa hər şeyə qadir olan tək Allah?! Allahı qoyub ibadət etdikləriniz sizin və atalarınızın (uydurarau bütlərə) qoyduğu adlardan başqa bir şey deyildir. Allah onlar haqqında heç bir dəlil nazil etməmişdir. Hökm ancaq Allahındır. O, yalnız Özünə ibadət etməyinizi əmr etmişdir. Doğru din budur, lakin insanların çoxu bilmir. (Yusif surəsi, 37-40)**

Hz. Yusif təbliğat apardığı insanlara yaşadıqları cəmiyyətin müşrik xarakterini başa salmış və **"ayrı-ayrı ilahlar daha yaxşıdır, yoxsa bir olan, qadir olan Allah?!"** deməklə şirk ilə tövhid arasındakı böyük fərqi göstərmişdi. Şübhəsiz ki, bunu çox ətraflı bir şəkildə də etmək olar. Müşrik xarakterinin meydana gətirdiyi eqoist, tamahkar, mənfəətçi, bəsit və kobud insan modelini anlatmaq və bunun müqabilində möminlərin saf xüsusiyyətlərini sadalamaq olar. Şirk nizamının ədalətsiz, zülmkar, saxtakar və mənafe güdən quruluşu təsvir edilə və bunun müqabilində İslamın yaratdığı ideal quruluş ortaya qoyula bilər.

Bu növ müqayisələr cahillərin içindən çıxıb gəlmiş insanı o sistemdən tamamilə uzaqlaşdırıb islamla şərəfləndirmək üçün çox yararlıdır. Nümunələr isə qarşı tərəfin yaşadığı ictimai həyatdan seçilməlidir.

## 11) Danışarkən istiqamətverici olmaq

Mömin təbliğat apararkən əsl məqsədinin qarşı tərəfə dini anlatmaq və onun inamına vəsilə olmaq olduğunu heç vaxt unutmamalıdır. Çünki qarşı tərəf böyük ehtimalla mövzunu başqa tərəfə çəkməyə meyllidir. Fikrini dini mövzulara cəmləməkdə çətinlik çəkməsi, vicdanında narahatlıq duyması və yaxud da ciddi olmaması kimi müxtəlif səbəblərdən bunu edə bilər.

Mömin bu mövzuda diqqətli davranmalıdır. Əlbəttə ki, eşitmək istəməyən, darıxan birinə nəyisə başa salmağın bir mənası yoxdur. Şüurlu şəkildə mövzunu dəyişdirərək başqa bir üsluba keçmək və qarşı tərəfə dincəlmək üçün vaxt vermək olar. Ancaq söhbətə nəzarət hüququnu qarşı tərəfə verərək onun boş və lazımsız fikirləri ilə və ya əlacsız problemləri ilə məşğul olmaq böyük xəta olacaqdır.

Bir sözlə, mömin danışanda mütləq istiqamətverici olmalıdır. Qarşı tərəfin eşitmək istədiklərindən çox öz fikirlərini deməlidir. Hz. Yusifin zindandakılarla danışarkən yararlandığı metod bu baxımdan yaxşı bir nümunədir:

**Onunla birlikdə iki gənc də zindana girdi. Onlardan biri: “Mən (yuxuda) şərab sıxdığımı gördüm”, – dedi. Digəri isə: “Mən başımın üstündə bir çörək apardığımı gördüm. Quşlar da o çörəkdən yeyirdilər. Bunun yozumunu bizə xəbər ver!**

Həqiqətən, biz sənin xeyirxahlardan olduğunu görürük", – dedi. Yusif dedi: "Sizə verilən yemək gəlmədən əvvəl onun yozumunu sizə xəbər verəcəyəm. Bu, Rəbbimin mənə öyrətdiklərindəndir. Şübhəsiz ki, mən Allaha inanmayan bir qövmün dinini tərk etmişəm. Məhz onlar axirəti də inkar edirlər. Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe olmuşam. Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın bizə və insanlara olan lütfündəndir. Lakin insanların çoxu (Allaha) şükür etməz. Ey zindan yoldaşlarım, müxtəlif ilahlar daha yaxşıdır, yoxsa hər şeyə qadir olan tək Allah?! Allahı qoyub ibadət etdikləriniz sizin və atalarınızın (uydураraq bütlərə) qoyduğu adlardan başqa bir şey deyildir. Allah onlar haqqında heç bir dəlil nazil etməmişdir. Hökm ancaq Allahındır. O, yalnız Özünə ibadət etməyinizi əmr etmişdir. Doğru din budur, lakin insanların çoxu bilmir. Ey zindan yoldaşlarım! (Yuxunuzun yozumuna gəldikdə,) Sizdən biriniz yenə ağasına şərab içirdəcək, digəri isə asılacaq və quşlar onun başını yeyəcəklər. Soruşduğunuz məsələ barəsində hökm verilmişdir". (Yusif surəsi, 36-41)

Göründüyü kimi, hz. Yusif ona yuxu yozumunu soruşan insanlara əvvəlcə təbliğat aparmış, suallarının əsl cavabını isə axırda vermişdir. Əgər əvvəlcə yuxunun yozumunu desə, sonra təbliğata başlasaydı, bəlkə də onu daha az maraqla dinləyəcəkdilər.

Eyni şəkildə hz. Musa da Fironla danışarkən istiqamətverici bir üslubdan yararlanır:

(Firon:) “Elə isə bəs əvvəlki millətlərin halı necə olacaq?” – dedi. Musa dedi: “Onların məlumatı Rəbbimin dərgahındakı bir kitabdadır (lövhi-məhfuzdadır). Rəbbim əsla xəta etməz və əsla unutmaz!” O (Rəbb) ki, yer üzünü sizin üçün beşik etdi, orada sizin üçün yollar saldı və göydən su endirdi. Onunla da (yerdən) müxtəlif növ bitkilərdən cüt-cüt çıxartdıq. (Taha surəsi, 51-53)

Hz. Yusifin və hz. Musanın danışıqlarında göstərdiyi bu “ağıl” möminlərin də hər zaman müdrik, ağıllı və yolgöstərici danışıq üslubundan istifadə etmələrinin vacibliyinə işarədir. Mömin söhbətin ümumi gedişatına hakim olmalı, söhbəti qarşısındakının istəyinə uyğun şəkildə deyil, özünün lazım bildiyi və çox faydalı olacağına inandığı şəkildə aparmağı və istiqamətləndirməyi bilməlidir.

## 12) Təbliğ edilən şəxsin ilk reaksiya verməsini gözləmək və buna uyğun olaraq yeni metod müəyyən etmək

Danışıqda istiqamətverici olmağın üsullarından biri də əvvəlcə qarşı tərəfin fikrini və ya ideyasını öyrənib sonra da buna görə bir mövzu və metod müəyyən etməkdir. Bu, qarşı tərəfi çox tez tanımaq üçün şərait yaradar və möminin həmsöhbətinin ehtiyacı olmayan bir mövzudan danışaraq vaxt itirməsinin qarşısını alar.

Quran bu incə taktikanı hz. Musa hekayəsində verir. Hz. Musa ilə Fironun cadugərləri arasındakı dialoq belədir:

Firon qövmünün başçıları dedilər: "Həqiqətən, bu, çox bilikli bir sehrbazdır. O sizi torpağınızdan çıxartmaq istəyir. Elə isə nə əmr edirsiniz?" Onlar dedilər: "Onu da, qardaşını da saxla və şəhərlərə (sehrbazları) yığan adamlar göndər ki, Bütün bilikli sehrbazları sənin yanına gətirsinlər!" Sehrbazlar Fironun yanına gələrək: "Əgər qalib gəlsək, bizə həqiqətən, bir mükafat veriləcək!" – dedilər. Firon da: "Bəli, həm də siz mütləq yaxın adamlarımdan olacaqsınız", – dedi. (Sehrbazlar) dedilər: "Ey Musa! Ya sən (əsanı) at, ya da biz (əlimizdəkiləri) ataq?" Musa: "Siz atın!" – dedi. Onlar (əllərindəki ipləri və çomaqları) atdıqları zaman insanların gözlərini sehrlədilər və onları qorxudaraq böyük bir sehr göstərdilər. Biz də Musaya: "Əsanı at!" – deyə vəhy etdik. Bir də baxdılar ki, (əsa ilana çevrilib) onların uydurduqları şeyləri udur. Beləliklə, həqiqət ortaya çıxdı, onların etdikləri isə yox olub getdi. Beləcə, (Firon və qövmü) orada məğlub oldular və zəlil hala düşdülər. (Əraf surəsi, 109-119)

Hz. Musa Fironun sehrbazlarına "əvvəlcə siz atın" deməklə bu təsirli metodu istifadə etmiş və bu metod rəsulların yolunu davam etdirən möminlər üçün də hər zaman istifadə edəcəkləri bir qaynaqdır. Əvvəlcə qarşı tərəfin fikrini soruşmaq, onun düşündüklərini ortaya çıxarıb buna uyğun münasibət və anlatma tərzi müəyyən etməklə o batil fikir quruluşunu yıxmaq daha təsirli olacaq.

## 13) İNSANI SƏHV DAVRANIŞLARDAN ÇƏKİNDİRƏN ÜSLUBLARDAN İSTİFADƏ ETMƏK

"Yaxşılığı əmr edib pis əməldən çəkindirmə" Quranın müxtəlif ayələrində əmr edilən çox önəmli bir ibadətdir. Bu ibadətin təbliğat aparılan insana qarşı tətbiq edilməsinin vacibliyi də açıqdır: Yalnız təbliğat aparmaqla, yəni "yaxşılığı əmr etməklə" kifayətlənməyəcək, eyni zamanda "pis əməldən çəkindirmə" hökmü də tətbiq ediləcəkdir.

İnsanı səhv hərəkət və düşüncələri ortaya çıxarılaraq Quran ayələrinə görə, doğru olanlar izah edilməlidir. Yenə eyni hərəkətləri etsə, rəzil bir hala düşəcəyi deyilməlidir. Qarşı tərəfin xətaları əsla ona qarşı deyil, sanki üçüncü bir şəxsdən bəhs edilmiş kimi deyilə bilər. Bunları davam etdirməsinin ağıl və vicdandan kənar bir davranış olacağını deyərək doğruları tətbiq etməyə yönləndirilir.

## 14) DOLAYI YOLLA ANLATMAQ

Qarşılıqlı söhbətlərdə çox vaxt insanın şəxsinə xitab tərzindən istifadə edilir. Ancaq bir təbliğ metodu olaraq bundan başqa bir də başqa şəxslər və insanlar nümunə götürülərək, bəzi izahatlar verilərək, amma yenə qarşıdakına çatdırılmaq istənənləri demək mümkündür. Bu da təbliğat aparanla təbliğ edilən arasında yaranacaq gərginliyi əngəlləmək yaxud da onun müdafiə psixologiyasına girərək ona deyilənlərə qulaq asmamağa mane olmaq üçün faydalı bir metoddur.

## 15) Vicdanlı və həssas olmağa istiqamətləndirmək

Təbliğdəki məqsəd sadəcə məlumat vermək, yəni öyrətmək deyil. Əksinə, bundan daha mühüm olan iş qarşı tərəfin vicdanını oyandırmaq, onu nəfsini səmimi şəkildə sorğu-sual etmək. Bunun üçün də iki tərəf arasında səmimi və isti bir dialoqun, öyrədici üslubdan çox kömək edici bir üslubun qurulması lazımdır. Hz. İbrahimin qövmü ilə olan dialoqu nəticəsində qabaqcıl inkarçıların vicdanlarının oyanması məcburiyyətində qalması buna nümunədir. Quranda belə deyilir:

**Beləcə, (bütlərdən) böyük olanı istisna olmaqla, digərlərini parça-parça etdi ki, bəlkə, ona müraciət edələr. Onlar belə dedilər: "İlahlarımıza bunu kim edib? Həqiqətən, o, zalımlardandır!" (Bəziləri də:) "İbrahim deyilən bir gəncin onları ələ saldığını eşitmişdik", – dedilər. "Elə isə onu insanların hüzuruna gətirin ki, bəlkə, şahidlik edələr!" – dedilər. (İbrahimi gətirdikdən sonra ona:) "Ey İbrahim! İlahlarımıza bunu sənmi etdin?" – dedilər. İbrahim dedi: "Xeyr, bunu onların bu böyük olanı etmişdir. Əgər danışa bilirlərsə, özlərindən soruşun!" Bu zaman onlar öz vicdanlarına səslənərək: "Həqiqətən, əsil zalımlar sizsiniz!" – dedilər. (Ənbiya surəsi, 58-64)**

Bu hekayədən də göründüyü kimi, vicdan insanın içindəki doğru yol göstərəndir. İnsanlar vicdanlarına uyduğu zaman düzgün hərəkət edirlər. Bu, dinin əsasında da var. Allah rizasına ən uyğun olan davranışı insana vicdanı vasitəsilə bir növ ilham edər. Buna görə də dini öyrənən insanın vicdanı qarşısında ondan səmimi olaraq istifadə etməsini əngəlləyən şeylər varsa

(məsələn, ətrafdakıların təsirindən çəkinmək, adətlərdən əl çəkmək və s. kimi), bu əngəlləri ortadan qaldırmaq və onu vicdanına itaət etməyə istiqamətləndirmək lazımdır.

## 16) Müstəqil düşünməsini təmin etmək

İnsanın doğrunu görə bilməsi, doğru qərar verə bilməsi, Quran ayələrinə görə, yanlış düşüncəsini doğru ilə əvəz edə bilməsi üçün müstəqil düşünməsi əsas şərtdir. Bunun üçün ağlın təzyiqlərdən uzaq olması, təəssübdən təmizlənməsi lazımdır. Dini təzə öyrənən bir insanı cahil cəmiyyətdə bunlara nail olmayacağını düşünərək müstəqil düşünməsini əngəlləyəcək səbəbləri aradan götürən izahlar vermək olar. Bu şəkildə rahat olması üçün şərait hazırlamaq deyilənlərin təsirini artıracaqdır.

## 17) Təzyiq göstərməmək və məcbur etməmək

Təbliğat aparan insan qarşısındakına bir şeyi inandırmaq, fikrini ona qəbul etdirmək məcburiyyətində deyil. Onun üzərinə düşən iş sadəcə Allahın dinini təbliğ etməkdir. Hidayəti və iman gətirməsini ona Allah verəcəkdir. Bu səbəbdən təzyiq göstərməsinin və məcbur etməsinin heç bir köməyi olmayacaq. Həmçinin, Quran **"Artıq sən öyüd-nəsihət ver. Sən ancaq öyüd verənsən. Onların üzərində hakim deyilsən"** (Gaşiyə surəsi, 21-22) və ya **"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?"** (Yunis surəsi, 99) kimi hökmlərlə mömini bu davranışdan uzaqlaşdırır. Təzyiq göstərməmək və qarşıdakı insanı

inanmaqda sərbəst buraxmaq təbliğat aparanın səmimiliyinə və mənfəət düşünmədiyinə dair təsəvvür oyadacağı üçün deyilənləri daha təsirli edəcəkdir.

## 18) Deyilənlərə biganə qalmamasını təmin etmək

Görünüşdə onlarla danışmağın çox asan, ancaq əslində ən çətin olan insanlar deyilənlərə biganə qalanlardır. Çünki bu tip insanların fikirlərini öyrənmək asan deyil. Deyilənlərə susaraq və ya münasibət göstərmədən təsdiq etmiş kimi görünmələri ilə danışılanları qəbul etdikləri zənn edilir. Əslində daxilən bunu qəbul etmir və ona maraq göstərmirlər. Əks fikirlə mübahisə edən biri heç olmasa reaksiya göstərir və nəhayət bir nəticə əldə edilir. Qərarsız və biganə insanın vəziyyəti daha dolaşıq olur. Belə insanları mövzuya cəlb etmək üçün normal danışıq tərzindən başqa onlarda maraq oyatmaq üçün çox təsiredici üsullardan istifadə etmək lazımdır. Məsələn, ölümdən bəhs edib onun da bir gün çürüyüb torpağa qarışacağından, maddənin əslindən və ya onun çox böyük əhəmiyyət verdiyi dəyərlərin boş, mənasız olmasından bəhs edib onu bu vəziyyətdən çıxarmaq olar. İnsanların maraq göstərməsini bu şəkildə təmin etmək olar.

## 19) Hər kəslə layiq olduğu şəkildə davranmaq

Təbliğat zamanı onlara göstərilən rəftara görə, Allahın elçiləri bir üslubdan yararlandığını görürük. Bəzən çox mülayim danışıq tərzindən yararlanan elçilər bəzən də Allahın əzabı ilə qorxudaraq sərt danışıq üslubu və

davranış tərzi göstərirlər. Həmçinin Allah da insanların dinə və möminlərə qarşı olan rəftarına görə onlara müxtəlif cür davranmağı məsləhət görmüşdür. Məsələn, ikiüzlülərə, Quran ayələrinə qarşı mübarizə aparanlara, inkar edənlərə qarşı sərt davranmağı uyğun görərkən (Tövbə surəsi, 73), aman istəyən bir müşrikə də aman verməyi demişdir (Tövbə surəsi, 6). Bunun kimi təbliğat aparan mömin də qarşısındakının dinlə və möminlərlə rəftarına görə üslub və metod göstərə bilər. Danışıq tərzində və mövzuların izahında dozanı insanların vəziyyətinə görə azaldıb-çoxalda bilər. Üstəlik hərənin bir cür təsirlənməsi və ehtiyacı ola bilər. Bəziləri mülayim sözə, bəziləri də konkret bir izaha ehtiyacı var. Bu, bir həkimin qarşılaşdığı müxtəlif xəstələrə aspirin verməkdən, iynə vurmaqdan əməliyyat etməsinə qədər ən müxtəlif müalicələr aparması kimi bir şeydir.

## 20) ƏVVƏLKİ XALQLARIN MƏHV EDİLMƏSİNİ ANLATMAQ

İnsanı inkara aparan faktorlardan biri ona əbədi olaraq yaşayacağı, heç ölməyəcəyi hissini verən bir aldanmadır. Cavanlar həmişə cavan qalacaqlarını və ya çox uzun müddətdən sonra yaşlanacaqlarını zənn edirlər. Orta yaşlılar da özlərini ömürlərinin uzun olması təsəllisi ilə ovudurlar. Ətrafındakı mədəniyyət də onların aldanmasına səbəb olur. İnsanlar tərəfindən qurulmuş yüksək binalar, bəzəkli və gözqamaşdırıcı əsərlər, evlər, maşınlar və s. hamısı onlara yaşadıqları həyatın əbədi və sağlam olması ümidini verir.

Əslində bu aldanma kainatın ilk və ən böyük aldanmasından başqa bir şey deyil. Hz. Adəmin və həyat yoldaşının cənnətdən qovulmalarına səbəb şeytanın **"sənə əbədiyyət ağacını və köhnəlib xarab olmayacaq bir mülkü göstərimmi?"** (Taha surəsi, 120) şəklindəki ifadəsi olmuşdur.

Elə bu səbəbdən də qarşı tərəf, yəni təbliğ edilən çox böyük bir fitnədən qorunmalıdır. Özünü və ətrafdakıları əbədi və sağlam varlıqlar cəmiyyəti kimi görməməli və əslində hər şeyin və hamının Allahın iradəsi ilə var olan və O, diləyəndə yox olacaq bir xəyal, fəhm olduğunu öyrənməlidir. Bilməlidir ki, kainatdakı bütün həyat Allahın "Hayy" ("Həyat verən") sifətinin təcəllisindən başqa bir şey deyil. Və Allah bu görüntüləri çox zəif və müvəqqəti formada yaratmışdır.

Əvvəllər yaşanmış və Allah tərəfindən yox edilmiş xalqların xəbərləri təbliğat aparılan insanın beyninə yerləşmiş bu aldanmanın silinməsi üçün yararlı ola bilər. Neçə güclü qövmlər, böyük mədəniyyətlər sırf Allahın əmrinə itaət etmədikləri üçün qorxunc bir şəkildə məhv edilmiş, Onun qəzəbinə gəlmişlər. Quranda belə bildirilir:

**Onlardan əvvəl neçə-neçə nəsilləri məhv etdiyimizi görmədilərmi?! Onlara yer üzündə sizə vermədiyimiz imkanlar vermişdik. Onlara göydən bol yağış göndərmiş və (evlərinin) altından çaylar axıtmışdıq. Biz onları günahları səbəbilə məhv etdik və onlardan sonra başqa nəsillər yaratdıq. (Ənam surəsi, 6)**

Allahın elçilərini göndərdiyi bütün xalqlar dini yalan saymaları və rəsullara qarşı çıxmaları nəticəsində Allah tərəfindən məhv edilmişlər. Quranda bu həqiqət **"Beləcə, onu təkzib etdilər. Buna görə də kölgəli günün əzabı onları yaxaladı. Həqiqətən, o, böyük bir günün əzabı idi."** (Şuəra surəsi, 189) ayəsi ilə bildirilir. Bir başqa ayədə isə belə deyilir:

**Biz xəbərdar edən bir peyğəmbər göndərmədən heç bir məmləkəti məhv etmədik. (Bu onlar üçün) öyüddür. Biz zalım deyilik. (Şuəra surəsi, 208-209)**

Həlak olmuş qövmlərin anladılması, hətta bunlardan qalan arxeoloji tapıntıların göstərilməsi və yaşadığı qövmü də Allah istərsə hər an dağıla biləcəyini anlatması, təbliğat aparılanın Allahdan başqa inandığı şeylərin mühüm bir hissəsini yox edər. Böyük bir güc olaraq qəbul etdiyi mədəniyyət və texnologiyanın insanları Allahın aciz bir bəndəsi olmaqdan uzaqlaşdırmadığını, Allahdan başqa da gücünə inanılacaq və qorxulacaq bir qüdrət sahibi olmadığını ona hiss etdirir.

## 21) ÖLÜMÜ XATIRLATMAQ

Mədəniyyətlərin və cəmiyyətlərin məhvi qədər bəlkə də daha çox düşündürücü və "ayaqları yerə bağlayan" bir mövzu varsa, o da insanın məhvi, yəni ölümüdür. Bu səbəbdən insanların çoxu başqalarının ölümünə şahid olduqları halda özlərinin də bir gün mütləq bu aqibətlə qarşılaşacaqlarını, öləcəklərini düşünmür. Bundan həmişə qaçır, sanki heç ölməyəcəklərmiş kimi özlərini aldadırlar. Ölümdən heç bəhs etmir, onu düşünməkdən qaçır və böyük bir qəflət içində yaşayırlar. Halbuki, Allah bu hökmü verir:

**De: "Qaçdığınız ölüm, əlbəttə, sizi yaxalayacaqdır. Sonra gizli olanı da, aşkar olanı da bilən Allaha qaytarılacaqsınız. O da etdiyiniz əməlləri sizə xəbər verəcəkdir. (Cümə surəsi, 8)**

İman gətirənlər isə inkarçıların əksinə olaraq tez-tez ölümü düşünür, etdiklərinin hesabını verəcəklərini bildikləri üçün hər an Allahı razı salmağa çalışırlar. Dini öyrənməyə, Allahı tanımağa başlayan birisinin ölümü düşünməsi, hər an hər yerdə öləcəyini bilməsi onu dərrakəli davranmağa və dini saf bir şəkildə yaşamağa sövq edir.

Bu səbəbdən də insanın imani şüurunu açan bu mühüm mövzunun qarşı tərəfə anladılması çox lazımlı və xeyirlidir. Onun ölüm haqqında düşünməsinin dünyanın müvəqqətiliyini anlayıb dinə yönəlməsinə böyük təsiri olacaq.

## 22) İNSANIN ACİZLİYİNİ ANLATMAQ

Allahı lazımi qədər qiymətləndirməyən bir insan özünün mahiyyətini də qavraya bilməz. Allahın böyüklüyünü və qüdrətini anlamamışsa, özünün acizliyini də dərk edə bilməz. Bu səthi düşünən insan hər şeyi özünün etdiyini, güclü olduğunu, həqiqətdə Allahın sahib olduğu surətlərə özünün də sahib olduğunu zənn edib öz-özünə lovğalanır. Bu düşüncəyə görə də hər şeyi azğın bir anlayışla görür. Bu səbəbdən onun ətdən, sümükdən olduğunu, damarında cüzi bir zədə almaqdan ölə biləcəyini, bədənindəki heç bir şeyə az da olsa təsirinin olmadığını, ağzı qoxuyan, gözü, qulağı, burnu çirklənən, ayaqyoluna ehtiyacı olan aciz və zəif bir varlıq olduğunu yaxşıca təsvir etmək lazımdır. Üstəlik onu yaşadanın, nəzarət edib qoruyanın, ona ruzi verənin, bütün güc və qüvvət sahibinin Allah olduğunu, sahib olduğunu zənn etdiyi şeylərin ona Allah tərəfindən verildiyini və sahibinin də O olduğunu, bir sözlə, Allahın böyüklüyünü və öz acizliyini anlaması üçün şərait yaratmaq lazımdır. İnsan üçün vacib olan ən böyük elm Quranda belə göstərilir:

Ey insanlar! Allaha möhtac olan sizsiniz. Allah isə heç bir şeyə möhtac deyil, hər cür tərifə layiqdir. (Fatir surəsi, 15)

# MÜXTƏLİF TƏBLİĞAT ÜSULLARI

## 1) ŞİFAHİ TƏBLİĞATLA YANAŞI YAZILI TƏBLİĞAT METODUNU DA TƏTBİQ ETMƏK

Hz. Süleyman Səba hökmdarı Bəlqisə məktub göndərərək yazılı təbliğ metodundan istifadə etmişdir (Nəml surəsi, 28). Bu gün Allahın dinini anlamaq və bununla bağlı bir mesaj göndərmək üçün mütləq yazılı metoddan istifadə etmək lazımdır. Bunu istər məktub göndərərək, istərsə də kitab, qəzet, jurnal çap edərək, məqalələr, silsilə yazılar hazırlayaraq yerinə yetirə bilərlər. Yazı daimi olduğundan və beləcə təkrar oxuna bildiyindən bu üsul çox təsirlidir.

## 2) KÜTLƏVİ TƏBLİĞAT

Hz. Musa cəmiyyətin liderlərinə təbliğ etməklə yanaşı bütün xalqa da kütləvi təbliğat aparmaq üçün onları bərabər olmağa çağırmışdır (Taha surəsi, 59; Şuəra surəsi, 39). Bu gün də möminlər kütləyə xitab vasitələri ilə izdihamlı cəmiyyətlərə eyni anda təbliğat apara bilərlər. Yazılı mətbuat, televiziya, radio, məktub, kitab kimi vasitələrlə cəmiyyətin bütün təbəqələri ilə əlaqə saxlamaq və Allahın dinini təbliğ etmək mümkündür.

## 3) Cəmiyyətin qabaqcıllarına və rəhbərlərinə təbliğ etmək

Allahın elçiləri yaşadıqları cəmiyyətin rəhbərlərinə, sistem rəhbərlərinə təbliğat aparmışdılar. Çünki onlar cəmiyyətin əlində gücü olan və xalqı idarə edən bir qoludur. Bu səbəbdən mühüm vəzifələrdə olan insanlarla dialoq qurmaq, onlara təbliğ etmək çox təsirli bir metoddur.

## 4) Təbliğata hazırlıq görmək

Quranda **"Əgər onlar (cihada) çıxmaq istəsəydilər, əlbəttə, ona hazırlıq görərdilər. Lakin Allah onların çıxmalarını istəmədi. Buna görə də onlara mane oldu. (Onlara:) "(Evlərində) oturanlarla birlikdə oturun!" – deyildi."** (Tövbə surəsi, 46) ayəsi ilə Allah yolunda mübarizə aparmaq istəyənlərin qabaqcadan bu işə hazırlanmasının vacibliyinə işarə edilir.

Bu gün möminlərin ən böyük elmi mübarizəsi insanlara apardıqları təbliğatdır. Bu səbəbdən də aparılan təbliğatlar üçün insanın özünü hərtərəfli hazırlaması çox mühümdür.

Təbliğə hazırlanmanın iki üsulu var. Birincisi, yazılı təbliğatı yerinə yetirmək üçün görülən hazırlıqdır. Qəzet, kitab kimi mətbuat vasitələri ilə aparılan təbliğat üçün araşdırma, yazı və texniki işləri əhatə edən arxa plandakı işləri yerinə yetirmək, maddi imkanı gücləndirmək bir hazırlıqdır. İkincisi, möminin özünü maarifləndirməsi, Allahın dinini anlada biləcək səviyyədə ola bilmək üçün özünü mənəvi və bilik baxımından yetişdirməsidir.

## 5) Təbliğatda ixtisaslaşmış möminlər yetişdirmək

Allah Quranda möminlərin vacib olan "iş bölməsi"ndən belə söz edir:

**Möminlərin hamısının birdən döyüşə getmələri doğru deyildir. Onların hər qəbiləsindən bir dəstə dini yaxşı öyrənmək və döyüşə gedənlər geri qayıtdığı zaman onları (Allahın əzabı ilə) xəbərdar etmək üçün arxada qalsın. Ola bilsin ki, onlar (pis əməllərdən) çəkinərlər. (Tövbə surəsi, 122)**

Bütün möminlər təbliğat aparır, mömin camaatı eyni zamanda təbliğatçı camaatdır. Ancaq Allahın dini üçün ediləcək bir çox iş var və möminlər də bunları bir iş rejimi olaraq daha yaxşı və xeyirli şəkildə yerinə yetirirlər.

Təbliğat üçün də yetişmiş, Quranı yaxşı bilən, xitab gücü yüksək olan və yaxşı yazı yazan ixtisaslaşmış möminlərin olması və onların əsasən təbliğat işini aparması da səmərəni və təsiri artırar.

# TƏBLİĞAT APARAN MÖMİNİN MALİK OLACAĞI KEYFİYYƏTLƏR

## 1) Hidayətin Allaha aid olduğunu bilmək

Təbliğatı aparan mömin qarşısındakının hidayətə gəlməsinin, iman gətirməsinin və ya gətirməməsinin ona bağlı olmadığını və bunun yalnız Allaha aid bir iş olduğunu heç vaxt unutmamalıdır. Allah Peyğəmbərə (s) də **“Sən istədiyini doğru yola yönəldə bilməzsən. Lakin Allah dilədiyini doğru yola yönəldər. Doğru yola yönələnləri ən yaxşı bilən Odur.”** (Qəsas surəsi, 56) ayəsi ilə bunu xatırlatmışdır. Mömin təbliğ üçün özünü yetişdirir, bir çox mövzuda ustalaşır və Allahın dinini təbliğ edir, bu, onun ibadətidir. Amma insanların iman gətirməsi, doğru yola düşməsi qəlbi əlində saxlayan Allahın diləyi ilə olur. Möminin təbliğ zamanı bunu düşünməsi onun səmimiyyətinin daha yaxşı hiss edilməsinə səbəb ola bilər. Üstəlik bu, onun daha rahat və səmimi üslub yaratmasına, daha təsirli olmasına kömək edəcək.

## 2) Səmimi olmaq

Allah möminləri səmimiyyətinə görə qiymətləndirir. Bu səbəbdən də Quranda üzərində çox durulan mövzulardan biri də budur. Allaha qarşı tam ixlaslı olmaq mömini Allaha yaxınlaşdıran, onu püxtələşdirən və uğur əldə etməsinə səbəb olan önəmli bir xüsusiyyətdir. Hidayəti Allahın verəcəyini

bilərək dinin mənfəətini güdən hərəkət və səmimi görünüşlə təbliğat aparmaq lazımdır. Danışarkən də eyni şəkildə səmimi bir metoddan istifadə etmək vacib şərtlərdəndir.

## 3) Səbirli olmaq

İnsanın imanının sağlamlığını göstərən ən mühüm xüsusiyyətlərdən biri səbirdir. Mömin hər növ çətinliyə, ağır şərtlərə baxmayaraq ölənə qədər Allah rizası üçün çalışır. Səbir budur və ölümə qədər davam edir. Qurandakı ayələrdə səbirdən bəzi nümunələr var. Bir ayədə belə deyilir: **"Ona görə də səbirli ol! Həqiqətən, Allahın vədi haqdır. Yəqinliklə iman gətirməyənlər səni biganəliyə sövq etməsinlər!" (Rum surəsi, 60).**

Səbrin ən çox göstəriləcəyi sahələrdən biri də təbliğatdır. Mömin qarşısındakı insanda iman işığını gördüyü müddətdə ona qarşı anlayışlı olmalı, ona bu hərəkətlərini düzəltməsi üçün vaxt verməlidir. Dini tanımayan insanların səhv hərəkət və düşüncələrini, boş danışıqlarını və möminin ona dediyi gözəlliklər qarşısındakı anlayışsızlığını səbirlə qarşılamalıdır. Üstəlik mömin bunu böyük bir zövqlə edər. Çünki bir insanın belə ürəyinin islama qarşı yumşalmasına səbəb olmaq böyük bir işdir.

Mömin apardığı təbliğata görə başqa insanlardan və ya bütün bir qövmdən əks münasibət görə bilər. Amma o, dayanıb durmamalı, hər növ çətinliyə və nəticəsizliyə baxmayaraq təbliğatı davam etdirməlidir.

Yer üzündə 950 il yaşayan (Ənkəbut surəsi, 14) və bu zamanın mühüm bir hissəsinin qövmünə təbliğat aparmaqla keçirən hz. Nuh təbliğdə səbrin açıq nümunəsidir. Hz. Nuhun qövmünə etdiyi təbliği anladan sözləri Quranda belə keçir:

> "Nuh dedi: "Ey Rəbbim! Mən qövmümü gecə-gündüz (haqq yola) dəvət etdim. Ancaq mənim dəvətim onların (haqq yoldan) qaçmalarını daha da artırdı. Hər dəfə onları bağışlayasan deyə mən onları (haqq yola) dəvət etdiyimdə, barmaqlarını qulaqlarına tıxadılar, (məni görməmək üçün) paltarlarına büründülər, dirəndilər və çox təkəbbürləndilər. Sonra mən onları ucadan dəvət etdim. Sonra mən onlarla həm açıq-aşkar, həm də gizlicə danışdım. Mən dedim: "Rəbbinizdən bağışlanmağınızı diləyin! Şübhəsiz ki, O, çox bağışlayandır". (Nuh surəsi, 5-10)

## 4) Hikmətli danışmaq

Danışıqda hikmət, yəni əsaslı, düzgün, lazım olan, əminliklə və qaneedici, təsir edici bir şəkildə danışmaq böyük sənətdir. Allah Quranda sevdiyi bəndələrinə xüsusi bir hikmət verdiyini bildirir. Məsələn, hz. Davud üçün **"Biz onun hökmranlığını möhkəmləndirdik. Ona hikmət və gözəl danışıq qabiliyyəti verdik."** (Sad surəsi, 20) deyilir. Başqa bir ayədə isə hikməti belə açıqlayır:

> Allah dilədiyi kimsəyə hikmət verər. Kimə hikmət verilmişsə, deməli, ona çoxlu xeyir verilmişdir. Ağıl sahiblərindən başqa heç kəs (bunu) dərk etməz. (Bəqərə surəsi, 269)

Təbliğat aparan mömінin hikmətli danışması çox vacibdir. Həmçinin ayədə **"Rəbbinin yoluna hikmətlə və gözəl öyüdlə çağır..."** (Nəhl surəsi, 125)

əmri verilir. Ümumiyyətlə, mömin hikmətli danışa bilmək üçün Allaha dua etməli, hərəkətlərinə də diqqət edib bir mövzu ətrafında düşünməlidir. Hikmətli təbliğin necə olduğunun əsasları isə bəllidir: Qarşısındakının ehtiyaclarını müəyyən etdikdən sonra bunlara çox gözəl və təsir edici şəkildə cavab verməlidir. Allahın dinini anladan zaman qəliz üslubdan uzaq durmaq lazımdır. Özünü elmli göstərməyə çalışmadan, insanın ehtiyaclarına uyğun və onun ürəyini rahatlayacaq, qaneedici və səmərəli, açıq və konkret bir şəkildə danışmaq təbliğat aparan möminin xüsusiyyətlərindən biri olmalıdır.

Hikmət möminin Quran ayələrinə olan hakimiyyəti ilə düzgün nisbətdədir. Allahın ayədə bildirdiyi **"Onların sənə çəkdiyi elə bir məsəl yoxdur ki, Biz sənə (onun) doğru olanını və daha yaxşı izahını gətirməyək."** (Furqan surəsi, 33) hökmünə görə, inkarçıların irəli sürdüyü hər növ azğın məntiqin cavabı Quranda vardır. Mömin Quranı çox yaxşı bilirsə, onu özünə aid edirsə və qarşılaşdığı hər hadisəni Quran süzgəcindən keçirərək dəyərləndirirsə, qarşı tərəfin suallarına və azğın məntiqinə qarşı ən uyğun və hikmətli cavabı verə bilər.

## 5) Qüvvətli, xalis və təvazökar bir xarakter

Mömin Allahın Öz ruhundan göndərdiyi, ondan razı qalan və yaradılmış bütün canlılardan üstün tutduğu bir varlıqdır. İnkarçılara qarşı isə onların fiziki və maddi gücləri nə qədər çox görsən də **"Ruhdan düşməyin və kədərlənməyin! Əgər inanırsınızsa, üstün olan sizsiniz!" (Ali-İmran surəsi, 139)** hökmünün sirri ilə yüksək üstünlüyə sahibdir. Bu üstünlük davamlı hiss edilərsə, hərəkətlərdə də özünü göstərər və təbliğ edilən insan da təbii olaraq bu gücdən təsirlənər.

Sadəcə Allaha qulluq edən mömin eyni zamanda Qurandan öyrəndiyi yüksək xarakterə və peyğəmbər əxlaqına bənzər əxlaqa sahibdir. Onun heç bir zəifliyi yoxdur və hədəfi sadəcə olaraq Allahın rizasını qazanmaqdır. İmanın ona verdiyi kamillik və sahib olduğu yüksək nailiyyətlər sayəsində həmişə gözəl düşünür, xırda və bəsit hərəkətlərə fikir vermir, bu səbəbdən də nümunə olur. Təbliğat aparan möminin bu xalis xarakteri nümayiş etdirməsi, bununla yanaşı təvazökar, səmimi hərəkətləri qarşı tərəfə müsbət təsir bağışlayacaqdır.

# TƏBLİĞAT APARAN ELÇİLƏRƏ QARŞI XALQIN GÖSTƏRDİYİ MÜQAVİMƏT

## 1) Dəvət olunduqları dinə baxışı; inancsızlıq, qəzəb və möcüzə gözləmələri

> Allah tək olduğu (vəhdaniyyəti) anıldığı zaman axirətə inanmayanların qəlbləri nifrətlə dolar. Lakin Ondan başqaları anıldığı zaman onlar dərhal sevinərlər. (Zumər surəsi, 45)

İnkara təslim olmuş şəxslərin möminlərə və təbliğ edilən dinə reaksiyasını incələdiyimiz zaman qarşıdurma, qəzəb və təkəbbür kimi şeytana məxsus xüsusiyyətlərlə qarşılaşırıq. Bunları və təbliğat zamanı qarşıya çıxacaq müqaviməti qabaqcadan bilmək (bu, Quran ayələrinin köməyi ilə mümkündür) isə bunlara qarşı hazırlıqlı olmaq və ümumiyyətlə müvəffəqiyyət əldə etmək yolunda sağlam addım atmaq mənasına gəlir.

Təbliğat aparanlara tez-tez göstərilən bu müqavimət və inanmaq üçün möcüzə görmək istəyidir. Quranda bu istək belə təsvir edilir:

> Kafirlər: "Rəbbindən ona bir möcüzə endirilməli deyildimi?" – deyirlər. De ki: "Allah dilədiyi kimsəni (haqq yoldan) azdırar, Ona yönələn kimsəni də hidayətə (İslama) çatdırar". (Rad surəsi, 27)

İnanmayanlar arasında möcüzə görməyə çox böyük istək var. Onlara təbliğ edilən dinə inanmaq üçün mütləq belə şeylər görmək istəyirlər. Onsuz da hər tərəf möcüzələrlə doludur, bir az düşünə bilən insan bunları çox rahat şəkildə görə bilər.

Məsələn, "Havada duran bir daş var!" deyilsə, bu, böyük bir möcüzə kimi dəyərləndirilir, ancaq milyardlarla tonluq dünya yaradıldığı gündən bəri kosmik boşluqda durmaqdadır. Üstəlik dayanmadan, qüsursuz və ahəngdar bir şəkildə bir orbit üzərində günəşin ətrafında dolanır.

Atomlar arasındakı güclü cazibə qüvvəsi də bir möcüzədir, günəşin uzaq məsafədən dünyanı isitməsi, canlılara həyat verməsi də möcüzədir... Bu hadisələrin bir səbəbinin olması onların dəyərini azaltmaz, çünki səbəblər də heyrətamizdir. Ancaq belə hadisələr Allahın qüdrətini bilməyən və Onun sübutlarını görmədən keçənlər üçün heç bir şey ifadə etmir.

"İsra" surəsinin 90-93-cü ayələri inkarçıların necə möcüzə istədiyini açıq şəkildə təsvir etmişdir:

**Onlar dedilər ki: "Bizim üçün yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik; Yaxud sənin xurma və üzüm bağın olmalı, onların arasında şırıl-şırıl çaylar axıtmalısan. Yaxud iddia etdiyin kimi, göyü üstümüzə parça-parça edib yağdırmalı və ya Allahı və mələkləri qarşımıza gətirməlisən. Yaxud da sənin qızıldan bir evin olmalı, ya da sən göyə qalxmalısan! (Yoxsa sənə inanmarıq.) Bizə oxuyacağımız bir kitab endirmədiyin müddətcə göyə qalxdığına da əsla inanmarıq". De ki: "Rəbbim pak və müqəddəsdir! Mən yalnız peyğəmbər olaraq göndərilən bir insanam".**

**(İsra surəsi, 90-93)**

Ancaq inanmayanların möcüzə görmək istəkləri də səmimi deyil. Yəni bu insanları möcüzə gördükdən sonra yenə iman etməyəcəklər. Bu istəklərinin tək səbəbi rəsulun belə bir şey edə bilməyəcəyini və möcüzə olmadıqda isə inanmaları üçün bir məcburiyyətin qalmayacağını düşünmələridir. Quranda bu insanların səmimi olmamasından belə bəhs olunur:

**Əgər onlara göydən bir qapı açsaydıq və oradan yuxarı çıxsaydılar, Hökmən: "Sadəcə olaraq gözlərimiz bağlanmış, daha doğrusu, biz sehrlənmişik", – deyərdilər.**

**(Hicr surəsi, 14-15)**

**Əgər sənə kağız üstünə yazılmış bir kitab nazil etsəydik və onlar əlləri ilə ona toxunsaydılar, inkar edənlər yenə də: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir", – deyərdilər. Onlar dedilər: "Ona bir mələk endirilməli deyildimi?" Əgər bir mələk göndərsəydik, şübhəsiz, iş bitmiş olardı. Sonra onlara möhlət də verilməzdi. (Ənam surəsi, 7-8)**

İnkarçıların göstərdiyi bir başqa reaksiya da deyilənləri qəbul etməmək, sonra isə yalanlamaqdır. Dini anladan möminləri və rəsulu yalançılıqda günahlandırırlar. Rəsulu bu cür ittiham etmək üçüncü fəsildə ətraflı açıqlanacaq.

Təbliğ edilən dinə qarşı "**şübhə doğuran tərəddüd**" (Hud surəsi, 62) içində olan inkarçılar materialist dünyagörüşü içində axirəti də inkar edərlər. "Muminun" surəsinin 37-ci ayəsindəki ifadələr bunu göstərir: **"Bizim həyatımız yalnız bu dünyadır, ölür, dirilirik. Biz dirilməyəcəyik"**. Onlara deyilənləri

düşünüb öyüd almaq əvəzinə dinlədikləri şeylərdə səhv tapmağa çalışırlar. Adi söz oyunları ilə mövzudan uzaqlaşmağa səy göstərirlər.

Bununla yanaşı təbliğat aparan insanları alçaltmağa da can atarlar. Hz. Nuha **"Sənə ən rəzil adamlar tabe olmuşkən biz sənə imanmı gətirəcəyik?"** (Şuəra surəsi, 111) deyən kafirlər bunun bir nümunəsidir. Quranda bu insanlarla bağlı başqa bir ayədə bu şəkildə bildirilir:

**Onlara: "İnsanlar iman gətirdiyi kimi siz də iman gətirin!" – deyildiyi zaman: "Biz də səfehlər kimi iman gətirək?" – dedilər. Bilin ki, səfehlər onların özləridir. Lakin bunu bilmirlər. (Bəqərə surəsi, 13)**

Möminləri düzgün qiymətləndirməyən bu insanların hər dəfə dinə dəvət etdikdə göstərdikləri bayağı və əsassız müqavimət onların özlərinin nə qədər dəyərsiz olduğunu göstərir. Hz. Nuh kafirlərin bu sərt mənfi reaksiyalarını belə göstərir:

**Hər dəfə onları bağışlayasan deyə mən onları (haqq yola) dəvət etdiyimdə, barmaqlarını qulaqlarına tıxadılar, (məni görməmək üçün) paltarlarına büründülər, dirəndilər və çox təkəbbürləndilər. (Nuh surəsi, 7)**

Göründüyü kimi, inanmayanların təbliğata göstərdiyi müqavimət müxtəlif olmaqla yanaşı heç birindən ağıllı və mədəni bir reaksiya görmək mümkün deyil. Həmçinin bir az sonra görəcəyimiz kimi, möminlərin qarşılaşdığı reaksiyalar bəzən tamamilə insanlıqdan uzaq və mədəniyyətsizlikdir.

## 2) Qarşıdurma, təzyiq və hədə-qorxu ilə iman gətirənləri hidayət yolundan azdırmağa çalışmaları və hiyləgər metodları

Möminlərin təbliğat fəaliyyəti zamanı qarşılaşdığı ən şiddətli müqavimət Quranda göstərildiyi kimi, o qövmün "inkarçı liderlər" tərəfindən göstərilir. Xalqa iqtisadi və siyasi təzyiqlər göstərən, onları müxtəlif üsullarla özlərinə möhtac edən bu "liderlər" təbliğ edilən dinin öz mənfəətlərinə zidd olduğunu bilirlər. Belə bir dinin insanlar arasında yayılması və hakim olması onların əldə etdiyi üstünlüyü bir anda yox edəcək.

Zuxruf surəsinin 23-cü ayəsində də bildirildiyi kimi, bu liderlərin mühüm bir xüsusiyyəti **"rahatlıq içində azğınlaşmış"** olmalarıdır. Bu insanlar dünya həyatında sahib ola biləcəkləri sərvətin ən çoxuna sahib ola bilmək, bunları **"yığıb saxlamaq yolunda canfəşanlıq göstərirlər"**. Çünki "Huməzə" surəsinin 3-cü ayəsində Allahın dediyi kimi, **"Və elə zənn edər ki, mal-dövləti onu əbədi yaşadacaqdır".**

Bu təlqini onlara edən heç şübhəsiz ki, **"əbədiyyət ağacını və köhnəlib xarab olmayacaq bir mülkü göstərimmi"** (Taha surəsi, 120) deyən şeytandır. Şeytanın nəzarəti altında olan və onun "firqəsi" olmuş liderlərin möminlərə çox şiddətli düşmənçilik etməsi də təbii hal deyil?

Həmçinin bir ölkədə hiyləgər sistemlər quraraq möminləri tələyə salmağa, onları doğru yoldan azdırmağa çalışanlar da "Ənam" surəsinin 123-cü ayəsində bildirildiyi kimi, **"Hər bir adamın günahkarlarını oranın başçıları təyin etdik".** Şeytanın bu məsələ ilə bağlı fəaliyyəti digər bir ayədə belə keçir: **"Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün təlqin edirlər"** (Ənam surəsi, 121).

Şeytanın bəhs edilən "lider" dostlarının peyğəmbərlərə qarşı hazırladığı hiylə və hücumlardan Quranın bir çox yerində deyilir. Qəsas surəsinin 20-ci

ayəsində də hz. Musanı öldürmək məqsədi ilə bir yerə toplanıb görüşənlərin şəhərin lider inkarçıları olduğu deyilir. Həmçinin Əraf surəsinin 109-cu ayəsində lider inkarçılar hz. Musa üçün “bilikli sehrbazdır” ifadəsini işlətməklə xalqın hz. Musa haqqındakı fikirlərini alt-üst etməyə çalışmışdılar. Sonrakı ayədə isə “sizi torpaqlarınızdan çıxarmaq istəyir” ifadəsi ilə təbliğat fəaliyyətini böyük bir təhlükə və dövlət məsələsi halına gətirərək xalqı qızışdırmağı hədəfləmişdilər. “Belə halda nə buyurursunuz?” deyərək də onsuz da idarə edilmiş xalqa fitnənin hökmü olan ölüm cəzasını verdirmək istəyirlər. Əraf surəsinin 123-cü ayəsindən də göründüyü kimi xalq ancaq Fironun izn verdiyi şeylərə iman gətirə bilər. Firon normal bir hadisəni “xalqı sürgün edib çıxarmaq”, “şəhərdə hiylə qurmaq” kimi böyük bir fitnə-fəsad kimi göstərərək bu ölüm cəzasını haqlı göstərməyə çalışır. Onun qərarlarına qarşı gələn sehrbazları ön sıralarda görüb onlara da fitnə cəzasını tətbiq etmək istəyər. Əraf surəsinin 127-ci ayəsində isə bu dəfə qövmün qabaqcılları hz. Musanı öldürməsi üçün Fironu təhrik etməyə çalışırlar.

Şeytanı vəli seçmiş, onun addımlarına uymuş qabaqcıl inkarçılar möminlərlə mübarizə aparmağı adətən özlərinə borc bilirlər. Quranda “İblisin orduları” və “şeytanın atlıları və piyadalar” deyə səciyyələndirilən şeytanın dostları ilə bağlı bir ayə belədir:

**Allahın adına kəsilməyənlərdən yeməyin! Şübhəsiz ki, bu günahdır. Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mübarizə aparmalarını fısıldayarlar (təlqin edərlər). Əgər onlara uysanız, şübhəsiz, siz də müşrik olarsınız.**

**(Ənam surəsi, 121)**

Əslində möminlərin mübarizəsi inkarçıları öz nəzarəti altına almış və onları inananların üstünə salmış şeytanladır. İnkarçılarda şübhələr yaradan,

möminlərin təbliğ fəaliyyətini əngəlləməyə çalışan, Allahın dinini dünyaya hakim olmasını istəməyən həmişə şeytanlar olmuşdur. Bu məqsədinə çatmaq üçün də nəzarət etdiyi bir qrup insandan "firqə" quraraq bunlardan öz istəklərini həyata keçirmək üçün istifadə etmişdir. Bu mövzu ilə bağlı bir başqa ayədə Allah belə buyurur:

**(Ey Peyğəmbər!) Kafirlərin üstünə, onları qızışdırıb günaha sövq edən şeytanları göndərdiyimizi görmədinmi?! (Məryəm surəsi, 83)**

Beləcə, inkarçılara uyanlar şeytana və öz qövmlərinin lider inkarçılarına tabe olaraq möminlərə qarşı hərəkət edərlər.

İnsanın yaradılışına görə təqdir edilmiş dinin geniş kütlələrə təsir etməsi və qəbul etdirilməsi təbii bir prosesdir. Bu dinin təbliğ edilərək insanlara çatdırılması kifayətdir. Ancaq "inkara uymuş liderlər" dinin yayılmasını istəmədikləri üçün möminləri və elçiləri əngəlləməyə çalışır, digər tərəfdən də xalqa müxtəlif yollarla təsir göstərərək möminlərin təbliğat fəaliyyətinin uğursuzluğa düçar olmasına səy göstərirlər. Bu lider inkarçıların xalqla bağlı olan fəaliyyəti bir çox Quran ayələrində açıqlanır. Məsələn, qövmünün qabaqcıllarından inkar edənlər hz. Şüeyb haqqında xalqa **"...Əgər Şüeybin ardınca getsəniz, şübhəsiz ki, ziyana uğramış olarsınız"** (Əraf surəsi, 90) deyə hədə-qorxu gəlmişdilər. Onların bu təbliğatı digər bir ayədə belə təsvir edilmişdir:

**Onun qövmündən kafir olub axirətə qovuşacaqlarını yalanlayan və dünyada bol nemət verdiyimiz rəhbərlər (öz**

**qövmlərinə) belə dedilər: "Bu da sizin kimi bir insandır. Sizin yediyinizdən yeyir, içdiyinizdən içir." (Muminun surəsi, 33)**

Göründüyü kimi, lider inkarçılar xalqı gah "ziyana uğramaqla" təhdid edir, gah da elçilərin qeyri-adi canlı deyil, bir insan olduğunu irəli sürərək çaşdırmağa və insanları öz təsirləri altına almağa çalışırlar. Qabaqcıl inkarçıların bu fəaliyyəti başqa bir ayədə belə təsvir edilir:

**Qövmünün kafir öndərləri isə (öz qövmlərinə) belə dedilər: "Bu da sizin kimi bir insandır. O sizə böyüklük etmək istəyir. Əgər Allah (peyğəmbər göndərməyi) diləsəydi, əlbəttə, mələkləri göndərərdi. Biz əcdadımızdan belə bir şey eşitməmişik. (Muminun surəsi, 24)**

Burada diqqət çəkilən məqam qabaqcıl inkarçıların peyğəmbəri mənafe güdməkdə günahlandırmasıdır. İnkarçılar bu qiymətli insanları pul, var-dövlət, iqtidar kimi dünya həyatında müvəqqəti olan şeyləri əldə etməkdə və beləcə insanlara hakim olmaq üçün çalışmaqda ittiham edirlər. Hz. Musa və hz. Haruna da **"...Bizi atalarımızın tapındığı dindən döndərmək, özümüzə də yer üzündə böyüklük etmək üçünmü gəldiniz?.."** (Yunis surəsi, 78) deyərək eyni ittihamı səsləndirmişlər.

Ancaq əslində buna özləri səy göstərirlər. Bunun müqabilində Rəsulun təbliğdən başqa heç nə etmədiyi bir çox ayədə bildirilir (Yunis surəsi, 72; Şuəra surəsi, 179-180; Ənam surəsi, 90).

Lider inkarçıların təbliğ qarşısındakı cavabları bu cür böhtan və ittihamlarla bərabər hədə-qorxu və şantajı da əhatə edir. Məsələn, kafir qövmünün hz. Luta və yanındakı möminlərə cavabı **"...Onları**

**məmləkətlərindən çıxarın, çünki onlar təmiz adamlardır!" deməkdən başqa bir şey olmamışdır."** (Əraf surəsi, 82).

Hz. Şüeyb də buna oxşar şəkildə təhdid edilmişdi:

**Şüeybin qövmündən olan təkəbbürlü başçılar: "Ey Şüeyb! Səni və səninlə birlikdə iman gətirənləri mütləq məmləkətimizdən çıxaracağıq, ya da siz bizim dinimizə dönəcəksiniz!" – dedilər. (Şüeyb) dedi: "Biz (bunu) istəməsək belə?!**

**(Əraf surəsi, 88)**

Yenə hz. Şüeybə edilən hədə-qorxu ayədə belə ifadə edilir:

**Onlar dedilər: "Ey Şüeyb! Dediklərinin çoxunu başa düşmürük və həqiqətən, biz səni içimizdə aciz görürük. Əgər qəbilən olmasaydı, mütləq səni daşa basardıq. Sənin bizə qarşı heç bir üstünlüyün yoxdur!" (Hud surəsi, 91)**

Bu ayədən də göründüyü kimi, möminlər təbliğat fəaliyyətlərini davam etdirə bilmək üçün kafirlərə qarşı çox güclü olmalıdırlar.

İnkarçılar Allahın adını və ya Onun dinini eşidib hiss etdikləri zaman mənasız yerə əsəbiləşirlər. Hz. İbrahim atasına dini təbliğ etdikdə aldığı cavab belə olmuşdur:

**Atası dedi: “Ey İbrahim! Sən mənim ilahlarımdan üz çevirirsən? Əgər buna son qoymasan, səni mütləq daşqalaq edəcəyəm. Uzun müddət məndən uzaq dur!”**

**(Məryəm surəsi, 46)**

Firon da hz. Musaya ondan başqasına səcdə edərsə, onu həbs edəcəyini (Şuəra surəsi, 29) və öldürəcəyini (Mömin surəsi, 26) iddia etmişdir. Eynilə Firon onun icazəsi olmadan iman gətirən sehrbazların da əllərini və ayaqlarını çarpaz şəkildə kəsməklə və xurma ağacından asmaqla qorxudurdu (Taha surəsi, 71). İnkarçıların bu vəhşi qəzəbi hz. İbrahimi atəşə atmaqla nəticələnmişdi (Ənkəbut surəsi, 24). Eyni şəkildə hz. Nuh da daşa basılıb qovulmaqla təhdid edilmişdi (Şuəra surəsi, 116).

İnkarçıların göstərdiyi bu şiddətli qəzəb Allahın diləməsi ilə imtahan olaraq Qurana, onun ayələrinə və möminlərə qarşıdır. Bu mövzu ilə bağlı başqa iki ayə belədir:

**Ayələrimiz onlara açıq-aydın oxunduğu zaman kafirlərin üzlərində bir məmnuniyyətsizlik sezərsən. Az qalsın, onlara ayələrimizi oxuyanların üstünə hücum etsinlər. De ki: “Bundan daha pisini sizə xəbər verimmi? Cəhənnəm! Allah onu kafirlər üçün vəd etmişdir. O nə pis dönüş yeridir!”**

**(Həcc surəsi, 72)**

**Həqiqətən, kafirlər Zikri (Quranı) eşitdikləri zaman az qala səni gözləri ilə yıxalar (gözə gətirələr). Onlar: "O divanədir!" – deyirlər. (Qələm surəsi, 51)**

İnanmayanların təbliğə göstərdiyi digər münasibət isə bir yerə toplanaraq ortaq hərəkət etmələridir. Böyük ehtimalla buna səbəb möminlərlə təkbaşına mübarizə aparmağa güclərinin çatmaması və buna cəsarət etməmələridir. Bu səbəbdən birləşərək bir-birinə cəsarət verməyə, güclərini artırmağa çalışırlar. Bunun bir nümunəsi, güclərini hz. Musaya qarşı birləşdirən sehrbazlardan görünür. Hz. Musaya qalib gəlmək üçün sehrbazlar bir-birinə **"...bütün hiylə, sehr vasitələrinizi toplayın, sonra da səf-səf gəlin"** (Taha surəsi, 64) deyirlər. Bundan əlavə, qövmün qabaqcılları da bir yerə yığışıb öz aralarında hz. Musanı öldürmək üçün planlar qurmuşdular.

## 3) Peyğəmbərlərə qarşı yönəldilmiş ittihamlar

Qövmün liderlərinin təbliğat edənlərə qarşı istifadə etdiyi strategiyalardan biri rəsulu müxtəlif üsullarla ittiham edərək onların təsirini azaltmağa, xalqın ona olan inamını və etibarını sarsıtmağa çalışmaqdır.

Bu ittihamlardan biri "**dəlilik**"dir. Ayələrdə bu barədə belə xəbər verilir:

**Həqiqətən, kafirlər Zikri (Quranı) eşitdikləri zaman az qala səni gözləri ilə yıxalar (gözə gətirələr). Onlar: "O divanədir!" – deyirlər. (Qələm surəsi, 51)**

Onlar dedilər: “Ey özünə Zikr (Quran) nazil edilən kəs! Həqiqətən, sən divanəsən! (Hicr surəsi, 6)

O, ancaq dəlilik əlamətləri olan biridir. Ona görə də bir müddətə qədər onu gözləyin!” (Muminun surəsi, 25)

Qövmünün kafir başçıları belə demişdilər: “Həqiqətən, biz səni səfeh görür və yalançılardan hesab edirik!”

(Əraf surəsi, 66)

İnanmayanların bu ittiham və böhtanlarının əsasında rəsulu xalqın gözündən salmaq və ona qarşı tətbiq edəcəkləri cəzaların doğru olduğunu sübut etmək dayanırdı. Buna görə də,rdən Allahın dininə qəlbdən bağlanan, bütün təhdid və təzyiqlərə baxmayaraq mübarizədən çəkinməyən bir insanın onların gözündə ancaq bir dəli ola biləcəyidir. Bunun əksinə olaraq Allah rəsullarının kifayət qədər ağıllı və etibarlı olduqlarını belə buyurmuşdur:

Orada (mələklər tərəfindən) itaət ediləndir, mötəbərdir. Sizin yoldaşınız (Məhəmməd) divanə deyildir.

(Təkvir surəsi, 21-22)

Düşünmürlərmi ki, yoldaşlarında (Məhəmməd peyğəmbərdə) heç bir dəlilik (əlaməti) yoxdur? O ancaq açıq bir şəkildə xəbərdar edəndir. (Əraf surəsi, 184)

İnkarçıların rəsula atdığı böhtanlardan biri də təbliğ etdiyi dinin onun uydurması olmasıdır. Bununla bağlı ayələr belədir:

Kafirlər: "Bu (Quran), onun (Məhəmmədin) uydurduğu yalandan başqa bir şey deyildir. Ona bu işdə başqa bir tayfa (əhli-kitabdan bəziləri) kömək etmişdir!" – dedilər. Beləcə onlar haqsızlığa və yalana əl atdılar. (Furqan surəsi, 4)

Yoxsa onlar: "Onu özündən uydurdu!" – deyirlər?! De ki: "Əgər onu uydurmuşamsa, günahım mənə aiddir. Ancaq mən sizin işlədiyiniz günahlardan uzağam!" (Hud surəsi, 35)

Musa açıq-aşkar möcüzələrimizlə onların yanına gəldiyi zaman onlar: "Bu ancaq uydurulmuş bir sehrdir. Biz ulu babalarımızdan da bu barədə bir şey eşitməmişik", – dedilər. (Qəsas surəsi, 36)

Bu ittiham və böhtana qarşı rəsulun cavabı belədir:

Yoxsa onlar: "Onu özündən uydurdu!" – deyirlər?! De ki: "Əgər onu uydurmuşamsa, günahım mənə aiddir. Ancaq mən sizin işlədiyiniz günahlardan uzağam!" (Hud surəsi, 35)

Rəsulun dini uydurduğunu iddia etməsindən başqa onun yalançı olması böhtanı gəlir:

**Sən də bizim kimi bir insansan. Biz səni yalançılardan biri hesab edirik. (Şuəra surəsi, 186)**

Daha sonra böhtanlar ifrat həddə çatır:

**Aramızdan onamı vəhy gəldi? Xeyr! O, lovğa bir yalançıdır". (Qamər surəsi, 25)**

İnkarçıların ən çox üzərində dayandığı mövzu budur: **"Nə üçün bir başqası deyil, məhz o?"** Təbii ki, o, deyil, bir başqası olsaydı, bu səfər: "Nə üçün o, deyil, məhz bu?" sualı veriləcəkdi... Əslində bunun yeganə səbəbi Allahın dinini təbliğ edəcək bir elçini qəbul etməmələridir. Çünki onların azğın "atalarının dinində" belə bir anlayış yoxdur. Olsa da elçilik məqamına ancaq onların uyğun gördükləri biri gəlməlidir, məsələn, **"...İki şəhərdən olan böyük bir adama nazil edilməli deyildimi?"** (Zuxruf surəsi, 31). Liderlər onların adətlərinə riayət etməyən, üstəlik də atalarının dini ilə heç bənzəri olmayan bir dinlə gələn rəsulu belə ittiham edirlər: **"...Biz səni açıq-aydın azmış görürük..." (Əraf surəsi, 60).**

Bütün bunlarla yanaşı, hz. Salehi **"...Bizə sənin və yanında olanların ucbatından uğursuzluq üz verdi..."** (Nəml surəsi, 47) deyərək uğursuzluqla hz. Musanı **"Yaxud mən az qala belə aydın deyə bilməyən bu zavallı, aciz kimsədən daha yaxşı deyiləmmi?!"** (Zuxruf surəsi, 52) deyərək günahlandırmışdılar.

Şübhəsiz ki, tarixdə belə ittiham və böhtanlar çoxdur, ancaq burada toxunduqlarımız ən əsas olanlardır. Təbliğat aparanlara həmişə nifrət və təzyiq göstərərək qarşı çıxanlar olacaqdır. Quranda bizə bu insanlara verəcəyimiz cavablar, reaksiyalar haqqında ətraflı məlumatlar verilmişdir.

## 4) Atalarının dinini möhkəm müdafiə etmələri və möminləri də bu dinə cəlb etmə səyləri

**Səndən əvvəl də hansı məmləkətə xəbərdarlıq edən bir peyğəmbər göndərmişiksə, oranın zəngin sakinləri yalnız: "Biz atalarımızın bir din üzərində olduqlarını gördük. Biz də onların izindən gedirik", – dedilər. (Hər bir peyğəmbər öz qövmünə:) "Əgər sizə atalarınızdan gördüyünüz dindən daha doğrusunu gətirmişəmsə, onda necə?!" – demişdi. Onlar isə: "Biz sizinlə göndərilənləri inkar edirik", – demişdilər.**

(Zuxruf surəsi, 23-24)

İnsanların yeni fikir və düşüncə tərzini mənimsəmələrini əngəlləyən şey onların "**qanına işləmiş**" prinsiplərdir. Bu prinsiplər ömrü boyu yaşadığı şəraitdən, ailə quruluşundan, dostlarından təsirlənərək ortaya çıxmış "**insana məxsus**" bir dünyagörüşü və həyat tərzi mənasına gəlir. Buna insanın "**dünyagörüşü**" də deyə bilərik.

Məhz təbliğat zamanı qarşıya çıxan ən böyük çətinliklərdən biri də dinə uyğun olmayan dünyagörüşlərini yıxıb yerinə Allah rizasına və qorxusuna dayanan, dünyaya deyil, axirətə yönələn bir dünyagörüşü qurmaqdır. Bu dünyagörüşləri tamamilə materialist bir quruluşda ola biləcəyi kimi din adı ilə

ortaya çıxan, ancaq dinlə əlaqəsi olmayan fikirlərdən də yarana bilər. Həmçinin Quranda gördüyümüz kimi, dini təbliğ edən rəsullara və möminlərə verilən cavablar bəzən Allahı inkar edən şəkildə, bəzən isə o dövrdə mövcud olan ənənəvi dini qorumaq şəklindədir.

İnkarçıların var gücü ilə müdafiə etdiyi, onlara deyilənləri heç bir şəkildə qəbul etməməsinə səbəb olan və möminləri də özlərinə tabe etməyə çalışdıqları bu ənənəvi dini Allah "**atalarının dini**" kimi xarakterizə edir. İnsanların böyük bir hissəsi "atalarının dini"nə çox bağlıdır və onlara izah edilən həqiqətləri bu dinə uyğun olub-olmaması ilə qiymətləndirər. Bu mövzu haqqındakı ayələrdən bəziləri bu şəkildədir:

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyiləndə onlar: "Xeyr, biz atalarımızın yolunu izləyirik!" – deyərlər. Bəs, əgər ataları bir şey anlamayıb doğru yolda deyildilərsə necə?! (Bəqərə surəsi, 170)**

**Onlara: "Allahın nazil etdiyinə və Peyğəmbərə tərəf gəlin!" – deyiləndə onlar: "Atalarımızı üzərində gördüyümüz (yol) bizə yetər", – dedilər. Bəs ataları heç bir şey bilməyib doğru yolda deyildilərsə (onların halı necə olacaq)?! (Maidə surəsi, 104)**

Göründüyü kimi, təbliğat aparılan bu insanlar atalarının dinini sipər edərək deyilənləri qəbul etmirlər. Buradan da bəlli olduğu kimi, atalarının dini çox köklü bir quruluşa malikdir. Bu quruluşda tək Allah anlayışı vardır, amma bu anlayış əvvəlki fəsillərdə də ətraflı olaraq anlatdığımız kimi, Quranda bildirilən həqiqətlərdən çox uzaqdır. Burada yenə şeytan fəaliyyətdədir. Quranda keçən **"Şeytan sizi Allaha arxayın edib tovlamasın..."** (Loğman surəsi,

33) şəklindəki ayə şeytanın istifadə etdiyi bir taktikanı ortaya çıxarır. Bu taktika insanların şeytanın təlqini ilə etdiklərini din adına, Allah adına edirmiş kimi göstərir. Allah bu vəziyyətə bir ayə ilə diqqət çəkir:

**Kim Rəhman olan Allahın zikrindən (Qurandan) üz çevirərsə, Biz ona bir şeytanı mübtəla edərik. O da onun ayrılmaz dostu olar. Şübhəsiz ki, şeytanlar onları haqq yoldan çıxardarlar. Onlar isə özlərinin doğru yolda olduqlarını zənn edərlər. (Zuxruf surəsi, 36-37)**

Atalarının dinindəki insanların halı belədir. İnkarçıların liderlərinin vəziyyəti də bundan fərqlənmir. Üstəlik onlar din anlayışından öz mənfəətləri üçün istifadə edirlər. "Allah" kəlməsindən öz mənfəətləri üçün yararlanan bu növ ikiüzlülər Quranda belə təsvir edilir:

**Qövmünün kafir öndərləri isə (öz qövmlərinə) belə dedilər: "Bu da sizin kimi bir insandır. O sizə böyüklük etmək istəyir. Əgər Allah (peyğəmbər göndərməyi) diləsəydi, əlbəttə, mələkləri göndərərdi. Biz əcdadımızdan belə bir şey eşitməmişik. (Muminun surəsi, 24)**

Bu ayədə diqqətlə nəzərdən keçiriləcək bir çox məqamlar var:

**1)** Cəmiyyətin bəzi tanınmış şəxsləri, təbliğ edilən dinə insanlar inanmasın deyə böyük səy göstərir. Bu məqsədlə Allahın adından istifadə edirlər. **"Əgər Allah istəsəydi, mələklər göndərərdi"** ifadəsi də bu azğın anlayışı göstərir. Eyni zamanda da bu ifadə insanların möcüzə gözlədiyinə bir

sübutdur. Birinci fəsildə də qeyd etdiyimiz kimi, inanmaq üçün xüsusi bir möcüzəyə ehtiyac yoxdur, ağıllı insan hər saniyə möcüzə ilə qarşı-qarşıyadır.

İnanmayanların insanları hidayət yolundan çəkindirmək və Quranda bildirilən həqiqətlərdən uzaqlaşdırmaq üçün Allah adından yararlanması digər bir ayədə belə keçir:

**Onlar pis bir iş gördükləri zaman: "Atalarımızın bu yolda olduğunu gördük. Bunu bizə Allah əmr etmişdir", - deyirlər. De: "Şübhəsiz, Allah ədəbsizliyi əmr etməz. Allaha qarşı bilmədiyiniz şeylərimi söyləyirsiniz?" (Əraf surəsi, 28)**

Göründüyü kimi, atalarının dininə uyanlarda etdikləri pis əmælləri Allahın adına bağlayaraq özlərinə haqq qazandırmağa çalışırlar.

**2)** Təbliğ edilən insanlara təsir etməyə, düşüncələrini qarışdırmağa çalışan bəzi şəxslər vardır. Bunlar ayələrdə "**azğınlıqda qövmün qabaqcıl olanları**" kimi xarakterizə edilir. Metodları insanların fikirlərini qarışdıraraq, bəzi hallarda onları təhdid edərək və onlara tətbiq etdikləri zorakı avtoritetdən istifadə edərək onları inanmaqdan yayındırmaqdır. Bunun səbəbi isə məlumdur: İnanclı insan ağıllı olur, gözüaçıq olur, ona deyilən yalanlara uymur və ən başlıcası dinə qarşı çıxanlarla fikir mübarizəsi aparır.

Təbiidir ki, belə bir cəmiyyətin qurulması "inkara uymuş liderlər" tərəfindən bəyənilmir.

Bir sözlə, inkarçı cəmiyyətin liderlərinin əslində şeytani quruluşun bir parçası olduğunu görürük. Şeytanın firqəsi olmuş liderlər onun təlqini ilə möminlərlə mübarizə aparır, onu məqsədinə çata bilmək üçün "**vasitəçilik**" edir.

**3)** Dini təbliğ edənlərə qarşı mübarizə aparan “liderlər”, dini təbliğ edən rəsulun əslində üstünlük əldə etməyə çalışdığı fikrini irəli sürürlər. Həqiqətlə heç bir əlaqəsi olmayan bu iddia “**rəsullara atılan böhtanlar**” fəslində açıqlanıb.

**4)** “**Ulu babalarımızdan da bunu eşitmişik**” ifadəsi qövmün inkarçı liderlərinin atalarının dininə bağlılığını göstərir. Ancaq Qurandakı **“...Bəs atalarımız bir şey anlamayıb doğru yolda deyildilərsə, necə?”** (Bəqərə surəsi, 170) ya da **“Bəs şeytan onları cəhənnəm odunun əzabına çağırarsa, necə?”** (Loğman surəsi, 21) və ya **“Əgər sizə atalarınızın sitayiş etdiyini gördüyünüz dindən daha doğrusunu gətirmiş olsam, necə?!”** (Zuxruf surəsi, 24) kimi suallar, atalarının dininə bu cür bağlananların nə dərəcədə ağılsız və azğın olduğunu göstərir.

Maraqlıdır ki, atalarının dininə bu dərəcədə bağlanmış insanlar haqq dini təbliğ edən mömінləri özlərinə tabe etmək istəyirlər. Bu haqda Quranda belə deyilir:

**Şüeybin qövmündən olan təkəbbürlü başçılar: “Ey Şüeyb! Səni və səninlə birlikdə iman gətirənləri mütləq məmləkətimizdən çıxaracağıq, ya da siz bizim dinimizə dönəcəksiniz!” – dedilər. (Şüeyb) dedi: “Biz (bunu) istəməsək belə?!**

**(Əraf surəsi, 88)**

Atalarının dininə bağlı insanlar üçün bu “geri qaytarma” hadisəsi mühüm əhəmiyyət kəsb edir. Onlardan biri təbliğ nəticəsində haqq dini qəbul etsə, bu, onları qəzəbləndirər və məyus edər. O insanı dinlərinə qaytarmaq üçün çox

səy göstərirlər. Bu səylər uğursuz olduqda onu özlərindən uzaqlaşdıraraq guya cəzalandırırlar (Əslində bu hərəkətləri mömin üçün bir gözəllikdir). Güc və iqtidara malik liderlər isə təhdidləri getdikcə çoxaldırlar.

Allahın Quranda təsvir etdiyi dindən kənar hər inanc, Qurana zidd hər ənənə əslində ataların dini anlayışını təşkil edir. Bu dinə uyanların axırı isə cəhənnəmdir. Quranda belə deyilir:

**Sonra onların qayıdacaqları yer, əlbəttə, cəhənnəmdir. Onlar (dünya həyatında) atalarını azğınlıq içində gördülər. Buna görə də onlar yüyürə-yüyürə atalarının izindən getdilər. (Saffat surəsi, 68-70)**

# İNKARÇILARIN PLANLARINDAN MÖMİNLƏRİ ALLAHIN QURTARMASI

Şübhəsiz ki, bütün tarix boyu təbliğat aparan mömin qruplarına şiddətlə qarşı çıxıb onlarla mübarizə aparanlar həmişə sayca möminlərdən çox olan və cəmiyyətin qabaqcılları tərəfindən idarə olunan inkarçı dəstələr olmuşdur. Bu, Allahın sünnəsidir və Quranda bildirildiyi kimi, Allahın sünnəsində dəyişiklik etmək mümkün deyil. Bu səbəbdən Quran ayələrinə dayanaraq möminlərlə inkarçılar arasındakı mübarizənin mərhələlərini və Allahın bunu nə ilə nəticələndirəcəyini öyrənə bilərik.

Əvvəlki fəsillərdə inkarçıların möminlərin təbliğatçılıq fəaliyyətinə qarşı çıxdığını, bunun səbəbinin də şeytanlarla qurduğu yaxın əlaqə olduğunu demişdik. Qabaqcılların möminləri hər növ təhdid etdiklərini, onları qorxutmağa, hətta öldürməyə çalışdıqlarını görmüşdük. İndi də möminlərin təbliğatçılıq fəaliyyətinə son qoymasına və daha sonra nələr olduğuna dair Quranda təsvir edilənlərə nəzər salaq.

Bir mömin təbliğat apardığı insanın və ya qövmünün qəti şəkildə müsəlman olmayacağını anladıqdan sonra möminlərin üzərinə düşən, inkarçı cəmiyyətdən uzaqlaşıb ayrılmaqdır. Bu mərhələyə gəldikdə Allah möminlərlə inkarçı qövmün arasını açacaq, möminləri rəhməti ilə onlardan ayıracaq və inkarçı qövmə layiq olduğu şeyləri göstərəcəkdir: İnkarçılara Allahın şiddətli əzabı veriləcək və onlar həlak ediləcəkdir.

Allahın elçiləri inkarçıların əlindən necə qurtardığı bəzi ayələrdə belə anladılır:

Elçilərimiz İbrahimə (iki oğlu olacağına dair) müjdə gətirdikləri zaman: “Şübhəsiz, biz bu məmləkətin xalqını məhv edəcəyik. Çünki oranın xalqı zalımdır”, – dedilər. İbrahim: “Axı Lut da oradadır”, – dedi. Onlar: “Biz orada kimlərin olduğunu çox yaxşı bilirik. Arvadı istisna olmaqla, onu və ailəsini, əlbəttə, xilas edəcəyik. Arvadı (əzab içində) qalanlardan olacaq”. – dedilər. Elçilərimiz Lutun yanına gəldiklərində Lut onlara görə narahat oldu və ürəyi sıxıldı. Onlar belə dedilər: “Qorxma, kədərlənmə! Şübhəsiz, biz arvadın istisna olmaqla, səni və ailəni xilas edəcəyik. O, (əzab içində) qalanlardan olacaqdır. (Ənkəbut surəsi, 31-33)

(Əzaba dair) əmrimiz gəldiyi zaman Salehi və onunla birlikdə iman gətirənləri mərhəmətimizlə əzabdan və o günün rüsvayçılığından xilas etdik. Şübhəsiz ki, sənin Rəbbin güclüdür, qüdrətlidir. (Hud surəsi, 66)

Beləcə, onlar Nuhu yalanladılar. Biz də onu və onunla birlikdə gəmidə olanları xilas etdik. Ayələrimizi yalanlayanları isə suda boğduq. Onlar, həqiqətən, kor bir qövm idi.

(Əraf surəsi, 64)

Bu qurtuluşdan sonra şübhəsiz ki, bütün inkarçılar həlak edilmişlər:

**Onlara, özlərindən əvvəlkilərin – Nuh, Ad və Səmud qövmünün, İbrahim qövmünün, Mədyən xalqının və alt-üst olmuş şəhərlərin xəbəri gəlmədimi?! Peyğəmbərləri onlara açıq-aşkar möcüzələr gətirmişdilər. Allah onlara zülm edəsi deyildi, lakin onlar özlərinə zülm edirdilər. (Tövbə surəsi, 70)**

Quranda deyilən bir çox qövmün həlakı bu gün arxeoloji qazıntılar zamanı üzə çıxarılmışdır. Beləcə, Qurandakı ayələrin dünyadakı əksi görünmüş və ayələr "ibrət olma" xüsusiyyətlərini bir daha büruzə vermişdir. İndi Quranda bəhs edilən inkarçı qövmlərə necə əzablar veriləcəyini ayələrlə əsaslandıraq.

## 1) Alt-üst edilən Lut qövmü

Allahın elçisi Hz. Lutu yalançı deyən və yer üzündə ilk dəfə homoseksuallığı tətbiq edən azğın Lut qövmünə verilən əzab Quran ayələrinə görə belədir:

Göydən iyrənc bir əzab (daş yağdıran bir qasırğa) göndərilməsi, qövmlərinin kor edilməsi, qorxunc və dözülməz bir qışqırıq, yurdlarının alt-üst edilməsi, palçıqdan bişirilmiş və müəyyən bir şəklə salınmış, damğalanmış daş yağması...

## 2) Fironun həlakı

Hz. Musaya qarşı mübarizə aparan Fironun və köməkçilərinin cəzası belədir:

Firon qövmünün dünya həyatında lənətlənməsi, qiyamət günündə isə çirkinləşdirilmiş olmaları, bağçalardan və bulaqlardan, xəzinələrdən və öz yerlərindən çıxarılmaları, ordularının suda boğulmaları, illərlə davam edən quraqlıq və məhsul qıtlığı, iyrənc bir əzabın başlarına yağması, ayrı-ayrı ayələr olaraq tufan, çəyirtkə, buğda güvəsi, qurbağa və qanın əl çəkməməsi, tikdikləri və tikməkdə olduqları (köşk və saraylarının) dağıdılması, əzabın baş alıb getməsi...

## 3) Səmud qövmünə gələn əzab

Hz. Salehi yalançı elan edən Səmud qövmünün cəzası belədir:

Qövmün tamamilə dağıdılması, məhv edilməsi, yurdlarının yerlə-yeksan edilməsi, uçmuş evlərin ibrət üçün saxlanılması, inanılmaz bir səs nəticəsində dizi üstə çökmüş vəziyyətdə sabahı açmaları, dözülməz bir sarsıntıya düçar olmaları, bir fəryadla quru ot kimi olmaları, durduqları yerdə ildırım vurması...

## 4) Nuh tufanı

Hz. Nuhu yalançılıqda ittiham edərək ona böhtan atan və onunla birlikdə iman gətirənlərə əziyyət edən azğın qövm qorxunc bir tufan nəticəsində suda

boğulmuş, bundan əvvəl də Quranın ifadəsi ilə desək, "qorxunc fəryadla bir toz yığını" olmuşdu.

## 5) Ad qövmünün düçar olduğu şiddətli əzab

Şiddətli və ağır bir əzab, qövmün kökünün qurudulması və onun süquta uğradılması.

## 6) Mədyən qövmünü bürüyən dözülməz səs

Hz. Şüeybə düşmənçilik göstərən Mədyən xalqının cəzası isə budur:

Qövmün dözülməz bir səs tərəfindən bürünməsi və zülm edənlərin öz yurdlarında sanki heç rahat yaşamamışlar kimi dizi üstə çökmüş olaraq sabahı açmaları, inanılmaz, amansız bir sarsıntı keçirməsi, "kölgəlik günün əzab"ının yaxalanması.

Bütün bunlar Allahın və dini inkar etmiş cəmiyyətlərin başına gəlmiş həqiqi hadisələrdir. Beləcə, əzaba düçar olmuş və yerlə-yeksan edilərək süquta uğramış bir çox mədəniyyətlərin qalıqları gələcək nəslə ibrət olması baxımından bu günədək qorunub saxlanılmışdır. Dünyanın müxtəlif yerlərinə səpələnmiş bu nümunələr Quranda möminlərə **"Sizdən əvvəl neçə-neçə ilahi qanunlar gəlib keçmişdir. Ona görə də, yer üzündə dolaşın və yalançıların aqibətinin necə olduğunu görün!"** (Ali İmran surəsi, 137) ayəsi ilə xatırladılır.

Dinin hökmlərini yerinə yetirməyən, hətta həyata keçirməkdə ləng davranan hər kəs Ad və ya Mədyən qövmlərinin qarşılaşdıqlarının oxşarını yaşamaqdan qorxmalıdır.

# RƏSULLARIN ALLAHA OLAN GÜCLÜ İMANLARI

Bir insanın güclü imana sahib olub-olmamasının bir çox göstəricisi var. İnsanın yaxşı və çətin günlərdə göstərdiyi reaksiyalar bu göstəricilərdən biri, bəlkə də ən mühümüdür. Əgər insan güclü imana malikdirsə, nə olursa olsun hadisələrə nəzarət edənin Allah olduğunu, Allahın möminlər üçün həmişə xeyir və gözəllik istəyəcəyini bilirsə, bu insanın təvəkkülü bir qədər də güclü olacaq. İstər çətinlik zamanı, istərsə də bolluq dövründə qövmlərin davranışı Quran əxlaqından uzaqlaşmayacaq. Allah ilə qurduğu güclü və yaxın əlaqə nəticəsində Onunla hər an bərabər olduğunu, bütün əməllərini gördüyünü, onu dəstəklədiyini biləcəkdir. Quranda nümunə göstərilən saleh möminlərin də bu xüsusiyyətlərə malik və Allaha qəlbdən sevgi, candan, səmimi hisslərlə bağlı olan rəsullar olduğunu görürük. İndi rəsulların və onların yolu ilə gedən möminlərin Allah ilə qurduğu yaxın əlaqəyə nəzər salaq:

## 1) Çətinliklər zamanı göstərilən təvəkkül

**Bunlar o kimsələrdir ki, insanlar onlara: “Həqiqətən, (düşməniniz olan) insanlar sizə qarşı (əsgər) toplayıblar. Onlardan qorxun!” – dedikləri zaman bu, onların imanını daha da artırdı və onlar: “Allah bizə yetər. O nə gözəl vəkildir!” – dedilər. (Ali İmran surəsi, 173)**

Möminlər arasında Allaha ən yaxın, Onunla əlaqəsi ən güclü olanlar əlbəttə ki, rəsullardır. Dar günlərdə etdikləri təvəkkül buna sübutdur. "Şuəra" surəsinin 61 və 62-ci ayələrində hz. Musanın Fironun orduları ilə dəniz arasında qaldıqda göstərdiyi davranış buna gözəl bir nümunədir. Ətrafdakılar qorxu ilə **"Artıq yaxalandıq"** deyərkən hz. Musa: **"Xeyr, Rəbbim mənimlədir. O, mütləq mənə yol göstərəcəkdir!"** deyir. Budur, bu təvəkküllü hərəkətin və Allaha olan etibarın əvəzində də Allah bir möcüzə ilə hz. Musanı və ətrafındakıları dənizdən keçirərək xilas etmişdir.

Digər gözəl bir nümunə də Peyğəmbərimizin (s) iman gətirənlərə ibrət olan həyatındandır:

**Əgər siz ona (Peyğəmbərə) yardım etməsəniz, (bilin ki,) kafirlər ikinin ikincisini çıxartdıqları zaman Allah ona yardım etmişdi. İkisi mağarada ikən o, öz dostuna: "Kədərlənmə! Şübhəsiz ki, Allah bizimlə bərabərdir", – deyirdi. Beləcə, Allah ona əminlik verdi, sizin görmədiyiniz əsgərlərlə (mələklərlə) onu dəstəklədi və kafirlərin sözünü alçaltdı. Allahın sözü isə ucadır. Allah yenilməz qüvvət və hikmət sahibidir.**

**(Tövbə surəsi, 40)**

Üzərində durulacaq məqam Rəsulullahın (s) Allaha tam təvəkkül etməsindən sonra rahatlıq və etibarlılıq duyğusu göndərilməsi və görünməyən ordularla ona yardım edilməsidir. Həmçinin rəsullar yalnız Allaha təvəkkül etdiklərini və daxilən ona üz tutduqlarını, doğru olan yolları onlara göstərdiyini demişdilər. Allah da **"sən ancaq Allaha təvəkkül et, çünki sən açıq-aydın həqiqi dindəsən"** (Nəml surəsi, 79) şəklində buyuraraq rəsulları Ona təvəkkül etməyə dəvət etmişdir. Başqa bir ayədə Allah Peyğəmbərimizə (s) belə deməsini buyurur: **"De ki: "Allahın bizim üçün yazdığından başqa bizə heç**

**bir şey üz verməz. Buna görə də möminlər yalnız Allaha təvəkkül etsinlər"** (Tövbə surəsi, 51). Bu mərtəbədə təvəkkül ancaq Allaha olan səmimi imanla mümkündür.

Çətin vaxtlarda edilmiş təvəkkülün digər bir nümunəsi də "Yusif" surəsində keçir. 23-cü ayədə hz. Yusifin evində qaldığı qadın onunla yaxınlıq etmək istədiyində hz. Yusif Allaha sığınmış, zindana atılma kimi təhdidlərə baxmayaraq qadının haram olan istəyini yerinə yetirməmişdir. 33-cü ayədə hz. Yusifin verdiyi cavab rəsulların Allaha olan yaxınlığına dair gözəl dəlildir:

> **Yusif dedi: "Ey Rəbbim! Zindan mənim üçün onların məni dəvət etdiklərindən daha yaxşıdır. Əgər onların hiyləsini məndən uzaqlaşdırmasan, onlara meyil salar və cahillərdən olaram". (Yusif surəsi, 33)**

Rəsulların mühüm xüsusiyyətləri, hərəkətləri ilə ətrafına və bütün insanlara nümunə olmalarıdır. Lazım gələndə çox qərarlı, sərt və güzəştə getmədən, bəzən isə sevgi və şəfqətli davranış tərzi nümayiş etdirirlər. Beləcə, onlarla bir mühitdə yaşayan insanlar da bu hərəkət və davranışlardan təsirlənirlər. Həmçinin Fironun qarşısında çox güclü və qərarlı davranan hz. Musa da sehrbazlara imkan vermiş, beləliklə, sehrbazlar iman gətirdikdən sonra onları işgəncə və ölümlə təhdid edən Firona **"Zərəri yoxdur, biz öz Rəbbimizə tərəf dönəcəyik!"** (Şuəra surəsi, 50) demişlər.

Hz. Əyyub da ağır xəstə olduğu vaxt Allaha səmimi dua etmiş, Allah da bunun əvəzində ona sağalmağın yolunu göstərmişdi:

**Bəndəmiz Əyyubu da yad et! Bir zaman o: “Şeytan mənə zərər və əziyyət verdi!” – deyə Rəbbinə səslənmişdi. “Ayağını yerə vur! Bu, yuyunacaq və içiləcək sərin sudur”.**

**(Sad surəsi, 41-42)**

Bütün rəsullar qövmləri onları yalançılıq ittihamı edib böhtan atdığı, öldürməyə və sürgün etməyə çalışdığı zaman Allaha səmimi şəkildə dua edərək kömək istəmişdilər. Əlbəttə ki, rəsulların Allah ilə yaxınlıqları sadəcə “çətin vaxtlar”da deyildi. Onlar bütün möminlərə çox gözəl nümunə olaraq həyatının hər bir anında Allah ilə səmimi, yaxın dialoqa sahibdir. Məsələn, hz. Süleyman ona göndərilmiş cins çapar atları sevən zaman **“...Mən bu atları Rəbbimizin zikrindən dolayı sevirəm...”** (Sad surəsi, 32) deyir. Kafirlər üçün “dünya həyatının müvəqqəti olan və onların azğınlığını artıran” nemətlər hz. Süleymanın Allaha olan yaxınlığını artırır.

Hz. Süleymanın aşağıdakı duası isə bütün möminlər üçün səmimiyyətin bir nümunəsidir:

**“...Rəbbim! Mənə mənim özümə və ata-anama ehsan buyurduğun nemətə şükür etmək, Sənin razı qalacağın yaxşı iş görmək üçün ilham ver! Və məni öz mərhəmətinlə saleh bəndələrinin sırasına daxil et!” (Nəml surəsi, 19)**

Quranda qarşımıza çıxan buna bənzər örnəklər rəsulların istər dar gündə, istərsə də yaxşı vaxtlarında Allah ilə əlaqələrinin kəsilmədiyini, bu yaxınlığın ətrafdakılara nümunə olacaq qədər açıq və təsirli olduğunu göstərir.

## 2) İXLAS SAHİBİ (SƏMİMİ) BƏNDƏLƏRİN RUH HALI

İstər rəsullar, istərsə də onların ətrafındakı möminlər hər işlərində Allaha üz tutduqları və səmimi şəkildə Ona təslim olduqları üçün həmişə istəkli, həyəcanlı, coşqun görkəmə malikdirlər. Bu da çox dərin, hikmətli, acizliyini bilən, axirətə yönəlmiş bir görkəmdir. Bu, hər şeyi idarə edənin Allah olduğunu bilməkdən irəli gəlir. Hz. İbrahimin Quranda bildirilən aşağıdakı sözləri bu mövzuda mühümdür:

**Şübhəsiz ki, aləmlərin Rəbbindən başqaları (bütlər) mənim düşmənimdir. O məni yaratdı və doğru yola yönəltdi. O məni yedirir və içirir. Xəstələndiyim zaman O mənə şəfa verir. O məni öldürəcək, sonra da diriltdəcəkdir. Onun axirət günü xətalarımı bağışlayacağını ümid edirəm.**

**(Şuəra surəsi, 77-82)**

**Musa onların heyvanlarını suladı, sonra da kölgəyə çəkilib belə dedi: "Ey Rəbbim! Sənin mənə bəxş etdiyin hər xeyrə möhtacam". (Qəsas surəsi, 24)**

Hz. Yusif də saleh mömin olan ata-anasını qarşılayanda onları bağrına basır, sonra da çıxarıb taxtında oturdur. Möminlərə, xüsusilə də onu ərsəyə çatdırmış ailəsinə bəslədiyi bu dərin hörmət onun Allaha olan yaxınlığının bir nümunəsi və əksidir.

Həmçinin, möminlər də hər əməllərində Rəbbinə üz tutmağa, ixlas sahibi bir bəndə olmağa səy göstərirlər. Bunun üçün "**...ayaq üstə olanda da,**

**uzananda da Allahı xatırlar, göyləri və yerin yaradılması haqqında düşünərlər..."** (Ali İmran surəsi, 191).

Möminlərin Allaha qarşı göstərdikləri səmimiyyətini daha yaxşı başa düşmək üçün onları "əks olanlar" ilə müqayisə etmək yerinə düşərdi. Möminlər nə qədər səmimidirsə, münafiqlər də bir o qədər qeyri-səmimidir. Məsələn, münafiqlər mübarizədən qaçmaq üçün **"evlərimiz açıq", "hava çox istidir", "gücümüz çatsaydı, mütləq səninlə birlikdə savaşa çıxardıq"** kimi bəhanələr irəli sürürlər. Ancaq möminlər inkarçılarla elmi mübarizə aparmaq üçün adətən yarışırlar. Bu, Tövbə surəsinin 92-ci ayəsində belə anladılır: "Döyüşə getməyə minikdən ötrü yanına gəldikdə: **"Sizin minməyiniz üçün bir heyvan tapmamışam" deyərkən sərf etməyə bir şey tapa bilmədikləri üçün kədərdən gözlərindən yaş axa-axa geri dönənlərdə də heç bir günah yoxdur".**

O möminlər səmimiyyətlərindən və Allaha olan güclü imanlarına görə Quran oxuduqları zaman **"...üzü üstə səcdəyə qapanar"** (İsra surəsi, 107). Allah onları "elmdə dərinləşənlər" kimi səciyyələndirir. Bir başqa ayədə isə belə bildirilir:

**Ağlayaraq üzüstə səcdəyə qapanarlar və (Quran) onların xüşusunu (Allaha bağlılıqlarını) daha da artırar.**

**(İsra surəsi, 109)**

Həmçinin, Maidə surəsinin 83-cü ayəsində də "**Peyğəmbərə nazil olanı dinlədikləri zaman haqq bildikləri üçün gözlərinin yaşla dolduğunu görürsən. Onlar belə deyirlər: "Ey Rəbbimiz! Biz iman gətirdik, bizi şahid olanlarla bir yerdə yaz!"** şəklində bildirilir.

## 3) Peyğəmbərlərin duasındakı səmimiyyət

Həm saleh möminlər, həm də atalarının dininə uymuş insanlar və şirk qoşanlar bir çox səbəbdən Allaha dua edər. İnanmayanların duaları ya dar və sıxıntılı günlərdən qurtarmaq, ya da yaşadıqları dünya həyatında bir az da var-dövlət, sərvət sahibi olmaq üçündür. Allahı yalnız çətin günlərdə xatırlayanlardan Quranda belə deyilir:

> İnsana bir ziyan dəydiyi zaman uzanaraq və ya oturaraq, yaxud ayaq üstə Bizə dua edər. Ancaq onu ziyandan xilas etdiyimiz zaman özünə dəymiş ziyan üçün Bizə dua etməmiş kimi keçib gedər. Həddi aşanlara, etdikləri əməllər bu şəkildə gözəl göstərildi. (Yunis surəsi, 12)

Sadəcə olaraq dünya həyatı üçün dua edənlərdən belə bəhs olunur:

> Kim axirət qazancını istəyərsə, Biz onun qazancını artırarıq. Kim də dünya qazancını istəyərsə, ona ondan (dünya nemətlərindən) verərik. Ancaq axirətdə onun heç bir nəsibi olmayacaqdır. (Şura surəsi, 20)

> Həcc ibadətlərinizi qurtardığınız zaman (keçmişdə) atalarınızı yad etdiyiniz kimi, hətta ondan da güclü şəkildə Allahı yad edin! İnsanlardan eləsi var ki: "Ey Rəbbimiz, bizə bu dünyada ver!" – deyər. Beləsinin axirətdə heç bir nəsibi yoxdur. (Bəqərə surəsi, 200)

Ancaq rəsulların və möminlərin duaları tamamilə axirətlə bağlı olan, nəfslərini düşünməyən, acizliyini bilən səmimi dualardır. Möminlər qiyamət günü alçaldılanlardan olmamaq, o gün cavabını verə bilməyəcəkləri şeyləri etmək və onlara sonsuz cəhənnəm əzabından qurtaracaq əməlləri ilham etməsi üçün Allaha dua edərlər. Bunlar axirətə bağlı dualardır. Allahdan istədikləri günahların və xataların bağışlanması, tövbələrinin qəbul edilməsi, qorunmaq və mərhəmətdir.

Hz. Adəm şeytana uyaraq etdiyi səhvi anladığı zaman Allaha belə dua edir:

**O ikisi belə dedi: “Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər Sən bizi bağışlamaz və bizə rəhm etməzsən, həqiqətən, biz ziyana uğrayanlardan olarıq”. (Əraf surəsi, 23)**

Hz. Nuh isə Allahın hökmünə itaət etməyən oğlu üçün Allahdan əfv diləmiş, ancaq Allah bunun səhv olduğunu ona göstərdikdə tez dua etmiş və **“...Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamasan, rəhm etməsən, ziyana uğrayanlardan olaram”** (Hud surəsi, 47) demişdir. Bu ifadələr bütün möminlərə örnək olan, xətalarında israr etməyən, acizliyinin fərqində olan son dərəcə səmimi möminlərə aid ifadələrdir.

Başqa bir gözəl örnək isə Quranda rəbbanilərin (dində dərin qavrayışa sahib olanların) dilindən bildirilir:

**Onlar yalnız: “Ey Rəbbimiz, günahlarımızı və işlərimizdəki həddi aşmaları bağışla! Ayaqlarımızı (Sənin yolunda)**

**möhkəmləndir və kafirlər qövmünə qarşı bizə yardım et!" – deyirdilər. (Ali İmran surəsi, 147)**

Rəsullar Allaha olan yaxın dostluq və səmimiyyətlərinin açıqca hiss edildiyi digər dualarında insanların dirildiləcəkləri gün təhqir olunmamaq, alçaldılmamaq, cəhənnəm əzabından qorunmaq, nemətlərlə dolu cənnətin mirasçılarından olmaq və hesab günü bütün möminlərin bağışlanması üçün Allaha yalvarırlar.

Ancaq rəsulların duaları əlbəttə ki, yalnız axirətdən ibarət deyil. Onlar öz Rəbbinə dünyada gözəl həyat, inkarçıların əzabla cəzalandırılması və inkarçılardan uzaq olmaq üçün də dua edirlər.

Hz. İbrahimin ona dünyada gözəl həyat verməsi üçün Allaha etdiyi səmimi dua belədir:

**O zaman İbrahim demişdi: "Ey Rəbbim, buranı təhlükəsiz bir şəhər et! Əhalisindən Allaha və axirət gününə inananlara (hər növ) məhsullardan ruzi ver!" Allah dedi: "Kafirləri (dünya nemətlərindən) bir qədər faydalandırar, sonra da cəhənnəm əzabına düçar edərəm. Ora nə pis dönüş yeridir!"**

**(Bəqərə surəsi, 126)**

Bir qədər əvvəl də dediyimiz kimi, inkarçılar da Allaha dua edir. Ancaq onların duası sadəcə olaraq bu dünya həyatına bağlıdır. Allahın bunları yararlandırması da, dünya həyatında da əzab çəkmələri və daha çox günah qazanaraq canlarının alınması üçündür. Bunun əksinə olaraq möminlərin dünya həyatı üçün etdiyi dualar əslində axirətə yönəlib. Yuxarıdakı ayədə hz. İbrahim içində olduğu şəhərin möminlər üçün təhlükəsiz bir yer olması üçün

Allaha dua edir. Beləliklə, möminlər burada yerləşib öz təbliğatını apara biləcək, Allaha və axirət gününə inanmaları səbəbi ilə də nemətlərə qovuşacaqlar.

Hz. Nuh da qövmünə təbliğat apararkən Allahdan bağışlanma diləmələrinin onlara qazandıracaqlarını belə bildirir:

**Mən dedim: "Rəbbinizdən bağışlanmağınızı diləyin! Şübhəsiz ki, O, çox bağışlayandır". (Allahdan bağışlanmağınızı diləyin ki,) O, göydən sizə bol-bol yağış göndərsin, Mal-mülk və oğullar verərək sizə yardım etsin, sizin üçün bağlar və çaylar yaratsın. (Nuh surəsi, 10-12)**

Şübhəsiz ki, hz. Nuhun öz qövmünə Allahın nemətlərini sayması onların şövqünü və Allaha olan yaxınlığını artırmaq və onları hərəkətə gətirmək üçündür.

## 4) Allahın şəninin yüksəldilməsi

**De: "Özünə heç bir övlad götürməyən, hakimiyyətində şəriki olmayan və acizlik səbəbilə bir dosta ehtiyacı olmayan Allaha həmd olsun!" və təkbir gətirərək Onun şanını uca tut!**

**(İsra surəsi, 111)**

Allah ilə yaxın və sıx əlaqə qurmağın bir yolu da heç şübhəsiz ki, Onu tez-tez anmaq, xatırlamaq və yüksəltməkdir. Allahın qüdrətinin hər şeyə çatdığını və hər şeyə nəzarət etdiyini bilən möminlər bu qüdrət qarşısında sevgi qarışıq qorxu duyarlar. Allahın əzəmətindən və müdrikliyindən qaynaqlanan heyranlıq dolu bir qorxudur bu. Və bütün üstün güc qarşısında acizliklərini bilirlər və Onu ayənin ifadəsi ilə desək, "**təkbir edə bildikləri qədər təkbir edirlər**".

Möminləri digər insanlardan ayıran başlıca xüsusiyyətlərdən biri həmişə Allahı düşünmələri və Onu xatırlamalarıdır. Məhz Allah ilə qurduqları yaxın əlaqənin qaynağı elə budur. Onu düşündükləri vaxt istifadə etdikləri ifadə Quranda belə bildirilir:

**Onlar ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlayar, göylərin və yerin yaradılması haqqında düşünərlər (və belə deyərlər:) "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan. Sən pak və müqəddəssən! Bizi cəhənnəm əzabından qoru! (Ali İmran surəsi, 191)**

Ayədən də açıq göründüyü kimi, dünyada həqiqi mənada düşünən ağıllı insanlar olan möminlər təvəkkülləri nəticəsində Allahın ucalığını və gücünü hiss edirlər. Bunun da nəticəsində Allahın şənini yüksəltmək və Onu təkbir etməkdir. Həmçinin, möminlər dualarında belə yalvarırlar:

**Ey Rəbbimiz, bizi kafirlər üçün imtahan vasitəsi etmə! Ey Rəbbimiz, bizi bağışla! Şübhəsiz ki, Sən qüdrətlisən, hikmət sahibisən!" (Mumtəhənə surəsi, 5)**

Eyni şəkildə hz. Musa da Allahın ayəsini görəndə **"...Sən pak və müqəddəssən Rəbbim..."** (Əraf surəsi, 143) demiş, hz. İbrahim də qövmünə təbliğat apararkən **"...Rəbbim hər şeyi öz elmi ilə ehtiva etmişdir..."** (Ənam surəsi, 80) deyərək başlıca vəzifələri olan Allahın şəninin yüksəldilməsini təbii və daxildən gələn bir hərəkət olaraq icra etmişdilər.

Buna bənzər bir ifadə hz. Şueyb tərəfindən də bu şəkildə təkrarlanmışdır:

> **Əgər Allah bizi ondan (küfrdən) xilas etdikdən sonra təkrar sizin dininizə dönərsək, Allaha qarşı yalan uydurmuş olarıq. Rəbbimiz olan Allahın diləməsi istisna olmaqla, küfrə qayıtmaq bizə yaraşmaz. Rəbbimiz elmi ilə hər şeyi əhatə etmişdir. Biz Allaha təvəkkül etmişik...". (Əraf surəsi, 89)**

Quran bizə rəsulların və möminlərin Allah ilə sıx münasibətdə olmasının davranışlarından, Allahı xatırlamalarından və Onun şənini yüksəltmələrindən qaynaqlandığını bildirmişdir. Yuxarıda verdiyimiz nümunələrdən başqa Quranda rəsulların və möminlərin Allaha səmimi xitabları ilə bağlı bir çox örnəklər var. Bunlardan bəziləri belədir:

> **..."Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər onu demiş olsaydım, Sən onu mütləq bilərdin. Sən ürəyimdə olanı bilirsən. Mən isə Sənin zatında olanı bilmirəm. Şübhəsiz ki, gizli olanları bilən Sənsən. (Maidə surəsi, 116)**

**Nuh dedi: "Ey Rəbbim! Şübhəsiz, bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamaz və mənə rəhm etməzsən, ziyana uğrayanlardan olaram!"**

**(Hud surəsi, 47)**

**Ey Rəbbim! Mənə mülkündən bir pay verdin və mənə yuxuların yozumunu öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünya və axirətdə mənim sahibimsən. Canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!"**

**(Yusif surəsi, 101)**

**Ey Rəbbimiz! Şübhəsiz ki, Sən bizim gizlətdiklərimizi də, aşkar etdiklərimizi də bilirsən. Nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz. (İbrahim surəsi, 38)**

**Süleyman dedi: "Ey Rəbbim, məni bağışla və mənə bundan sonra heç kimin əldə edə bilməyəcəyi bir hökmranlıq bəxş et! Şübhəsiz ki, Sən lütf sahibisən. (Sad surəsi, 35)**

Bəs Allah rəsulların və möminlərin bütün bu səmimiyyətinə qarşılıq olaraq necə mükafat verir? Əslində bu mükafatı tək bir cümlə ilə yekunlaşdırmaq mümkündür: **Allahın rizası, mərhəməti və cənnəti...** Nəticədə, Allah möminlərdən, onlar da Allahdan razı olacaq. Yaxşılıq və səbir edənlərin mükafatı qiyamət günü alçaldılmamaları və əməllərinin əvəzi olaraq mirası olduqları cənnətə düşmələri olacaq... Onlara heç bir əziyyət verilmədən,

istədikləri bütün nemətlər arasında, gözlərinin həzz aldığı və nəfslərinin arzu etdiyi hər şeyin içində əbədi olaraq qalacaqlar... Bu, qorxub qorunanların xoşbəxt aqibəti və əbədi qurtuluşudur.

# QURANDA MÜBAHİSƏ

İnsanın yaradılış məqsədi sadəcə olaraq Allaha qulluq etmək, Ona ibadət etmək və cənnəti qazanmaqdır. Bu məqsədə uyğun olaraq möminlər hərəkətlərini Quran ayələrinə görə edirlər. Başqa sözlə, möminin bütün yaşayışı Quran əxlaqına istinadən qurulmuşdur.

İnsan həyatı boyu müxtəlif çətinliklərlə imtahan edilir. Bu sınaqlardan uğurla keçməsi isə ancaq Quran əxlaqı əsasında hərəkət etməsi ilə mümkündür. Bu yolda qarşısına çıxacaq əsas düşmən şübhəsiz ki, şeytan olacaqdır. O İblis ki, insanların doğru yolu üzərində oturaraq onlara tələ qurmağa çalışır. Bunu edərkən də ilk strategiyası Allahın dinini və doğru yolunu unutdurmaq, insanları bu doğru yoldan çəkindirməyə çalışmaqdır.

Bu məqamda qarşımıza çıxan şeytani bir strategiya bizə şeytanın hiyləsi haqqında düşüncə verir: **Mübahisə etmək...** Özünəməxsus xarakterik xüsusiyyətlərdən biri olan mübahisəni insanlar arasında yaymaq şeytanın insanları azdırma məqsədinə çox uyğundur.

Qurana görə, mübahisə nədir? Mübahisə bir neçə müxtəlif mənada işlədilməklə bərabər bunların hamısı ortaq bir nöqtədə birləşir: **Rəhmani xüsusiyyətdən uzaqlaşması, mənasız bir əmələ doğru gedilməsi...**

Mübahisə; susmaq lazım gələndə susmayaraq mövzunu uzatmaq və şok yaradıcı mühit yaradıb Rəhmani xüsusiyyətdən uzaqlaşaraq şeytani xüsusiyyətə meyllənmək mənasına gəlir. Buna “çəkişmək” də deyilir. Mübahisə etməyi Allahın qəti sübutları ilə göndərdiyi dinə, kitaba və müqəddəs məfhumlara qarşı çıxaraq bunları mənasız etməyə səy göstərmək, bunların əksini sübut etməyə çalışmaq kimi təsvir etmək də mümkündür. Bu, Quranda “nümunələr gətirərək mübarizə etmək” şəklində qeyd olunur.

Nəhayət, mübahisə baş verən pis bir hadisəyə görə insanın onu bu hala salanlarla etdiyi gərginlik və peşmanlıq yolu olan dialoqdur. Bunlara Quranda cəhənnəmliklərin öz aralarındakı danışıq üsullarında nəzərə çarpır.

Mübahisə möminlərə yaraşmayan bir üslubdur. Onlar bir-birinə duyduqları sevgi və hörmətə görə onsuz da mübahisə etməzlər. Onlar inkarçılarla da mübahisə etməzlər, aralarındakı dialoq ancaq təbliğ üçün olur, bu zaman da ən təsirli və gözəl üslubdan istifadə edirlər.

# İLK MÜBAHİSƏ

Qurana nəzər saldıqda ilk mübahisənin şeytan tərəfindən meydana gətirildiyini görürük. Quranda bu hadisədən belə bəhs edilir:

**(Ey peyğəmbər!) Vaxtilə sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə yaradacağam", – demişdi. Onlar belə demişdilər: "Orada fitnə-fəsad törədib qan tökəcək birinimi yaradacaqsan? Halbuki biz Sənə şükür edərək şəninə təriflər deyir və Səni müqəddəs tuturuq!" Allah: "Şübhəsiz ki, Mən sizin bilmədiklərinizi bilirəm", – demişdi. Allah Adəmə hər şeyin adını öyrətdi. Sonra onları mələklərə göstərərək: "Əgər doğru deyirsinizsə, bunların adlarını Mənə bildirin!" – dedi. Mələklər dedi: "Sən bütün nöqsanlardan uzaqsan! Biz Sənin bizə öyrətdiklərindən başqa heç bir şey bilmirik. Şübhəsiz ki, Sən hər şeyi bilənsən, hikmət sahibisən!" Allah dedi: "Ey Adəm, bunların adlarını onlara bildir!" Adəm mələklərə onların adlarını bildirdiyi zaman Allah dedi: "Sizə demədimmi ki, Mən göylərin və yerin qeybini, eləcə də sizin gizlətdiklərinizi və aşkar etdiklərinizi bilirəm?!"**

**(Bəqərə surəsi, 30-33)**

Ayədən də göründüyü kimi, mələklər Allahın Adəmin yaradılması ilə bağlı verdiyi hökmünə narazılıq etməklə böyük səhv etmiş olurlar. Allahın sonsuz elminin yalnız kiçik bir hissəsini bildikləri üçün əvvəlcə Adəmin yaradılış hikmətini qavraya bilməmişlər. Buna baxmayaraq Allahın hökmünə riayət etməlidirlər. Ancaq Allahdan Adəmin yaradılış hikmətini öyrənmək

istəyirlər. Allah da onlara Adəmin yaradılışındakı hikməti açıqlayır. Belə halda bütün mələklər Allahın mərhəmətinə sığınır və etdikləri xətadan dönürlər. Sonra da hamısı Allahın bu hökmünə riayət edirlər. Yalnız cin olan birini çıxmaqla; o, inkar edir və Allah ilə mübarizə etməyə (Allahı tənzih edirik) başlayır! Yuxarıdakı ayələrdən sonra Quranda belə bildirilir:

**Biz mələklərə: "Adəmə səcdə edin!" – dedikdə İblisdən başqa hamısı səcdə etdi. O isə təkəbbürlənərək boyun qaçırdı və kafirlərdən oldu. (Bəqərə surəsi, 34)**

Şeytana Adəmin yaradılış hikməti açıqlandığı vaxt Allahın verdiyi "Adəmə səcdə et!" əmrinə qarşı çıxır. Quranın bir başqa surəsində şeytanın bu itaətsizliyinin arxasında duran "məntiq" belə açıqlanır:

**Allah buyurdu: "Mən sənə əmr etdiyim zaman səcdə etməyinə nə mane oldu?" (İblis) dedi: "Mən ondan daha xeyirliyəm (üstünəm). Məni oddan, onu isə palçıqdan yaratmısan". (Əraf surəsi, 12)**

Göründüyü kimi, şeytana Allah ilə mübahisə etmək cəsarətini verən təkəbbürdür. Özünü Adəmdən daha üstün olduğunu zənn etməkdə, Allahın əmrinə itaət edib Ona səcdə etdikdə isə alçalacağını düşünür. Bunu özünə sığışdırmaz və mübahisə etməyə başlayar.

## Mübahisə buradan yaranır: Təkəbbür

Bu vəziyyət mələklərlə şeytanın arasındakı fərqi açıq şəkildə ortaya çıxarır. Mələklər əvvəlcə səhv edər və Allah Adəmi yaradacağını onlara xəbər verdikdə bundan narazılıqlarını bildirərlər. Halbuki, Allahın hər işinin sonsuz hikmət olduğunu bilmələri və heç bir narazılıq etmədən itaət etmələri lazımdır. Bu xətalarına baxmayaraq Allah onlara əzab verməz və Adəmin yaradılışındakı hikməti göstərər. Bundan sonra da böyük xətalarından əl çəkib tövbə edərək Allaha sığınar və Onun əmrinə itaət edərlər.

Şeytan isə bütün mələklərdən fərqli olaraq təkəbbürlüdür. Özünü üstün bir varlıq kimi görür və bu səbəbdən də Adəmin ondan üstün tutulmasına qarşı çıxır. Eyni şəkildə Allah Adəmin yaradılışındakı hikməti açıqlamaqla mələklərin əksinə olaraq Allaha itaət etməz.

Yəni doğrunu görür, vicdanla anlayır, ancaq təkəbbüründən qəbul etmir. Məqsədi doğrunu tapmaq və doğru davranmaq deyil, öz eqoistliyini göstərməkdir.

Bu davranışına guya məntiqi zəmin yaratmaq üçün də ortaya özünün atəşdən yaradılmış olduğu fikrini atır. Ancaq bunun heç bir önəmi yoxdur; hər şey Allah tərəfindən yaradıldığına görə Allah istədiyini digərindən üstün tuta bilər. Ən əsas budur ki, şeytan da bunu bilir, ancaq doğrunu deyil, özünü qane edən nəticəni axtardığı üçün guya bunları görmür və atəş-torpaq müqayisəsi ilə azğın məntiq irəli sürür. Bu məntiqi müdafiə etdiyi üçün də tez-tez mübahisə edir.

Və Allah onu lənətləyir. Quranda bu hadisə belə açıqlanır:

**Allah buyurdu: "Elə isə oradan aşağı en! Orada təkəbbürlənmək sənə yaraşmaz. Dərhal (oradan) çıx! Şübhəsiz, sən zəlil olanlardansan". (İblis) dedi: "(İnsanların)**

dirildəcəkləri günə qədər mənə möhlət ver!" Allah buyurdu: "Şübhəsiz, sən möhlət verilənlərdənsən". (İblis) dedi: "Sən məni azdırdığın üçün, mən də hökmən onları azdırmaq məqsədilə Sənin doğru yolunun üstünə oturacağam. Sonra mütləq önlərindən, arxalarından, sağlarından və sollarından onların yanına soxulacağam. Sən onların çoxunu şükür edən görməyəcəksən". Allah buyurdu: "Rüsvay olub qovulmuş halda oradan çıx! Onlardan kim sənə uyarsa, (bilsin ki,) həqiqətən, cəhənnəmi sizin hamınızla dolduracağam.

(Əraf surəsi, 13-18)

Quranın başqa ayələrində isə eyni hadisədən belə bəhs edilir:

Bir vaxtlar mələklərə: "Adəmə səcdə edin!" – demişdik. İblisdən başqa (onların hamısı) dərhal səcdə etdilər. İblis isə: "Palçıqdan yaratdığın birinəmi səcdə edəcəyəm?" – dedi. (Sonra) belə dedi: "Məndən üstün tutduğuna bir bax! Əgər qiyamət gününə qədər mənə möhlət versən, az bir qismi istisna olmaqla onun nəslini mütləq özümə tabe edəcəyəm!" Allah buyurdu: "Get! Onlardan kim sənə tabe olsa, şübhəsiz, sizin cəzanız tam bir cəza olan cəhənnəmdir. Onlardan gücün çatanları dəvətinlə çaşdır; atlılarını və piyadalarını onlara qarşı səfərbər et, (faizə sövq etməklə) mallarına və (zinaya sövq etməklə) övladlarına ortaq ol! Onlara vədlər ver! Şeytan onlara yalandan başqa heç nə vəd etməz. Şübhəsiz, (ixlaslı) qullarım üzərində sənin heç bir hökmranlığın olmayacaqdır". (Onlar üçün) qoruyucu olaraq Rəbbin yetər.

(İsra surəsi, 61-65)

Kainatdakı ilk mübahisə şeytanın Allah tərəfindən lənətlənməsi və qovulması ilə nəticələnmişdir. Şeytan isə Adəm oğullarını özü kimi azdırmaq üçün Allahdan möhlət almışdır.

Bəs şeytan insanları necə yoldan çıxara bilər? Şübhəsiz ki, bunun müxtəlif yolları olacaqdır. Həmçinin şeytan insanlara **"önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyini"** (Əraf surəsi, 17) deməklə müxtəlif üsullardan istifadə edəcəyini bildirmişdir.

Başlıca üsullardan biri şübhəsiz ki, şeytanın öz xüsusiyyətlərini insanlara keçirməsidir. Şeytana uyanlar da onun kimi təkəbbürlü, üsyankar, nankor və zəlil olacaqlar.

Digər məqsədləri isə eynilə şeytan kimi mübahisəni sevməsidir. Şeytan doğrunu gördüyü halda onu qəbul etmədiyi və öz eqoist xarakterinə uyğun olan hər şeyi mübahisə yolu ilə doğru kimi göstərməyə çalışdığı kimi onlar da təkəbbürlərini qorumaq üçün mübahisə edəcəklər. Mübahisə onlar üçün həyatın bir mənası olacaq, öz aralarındakı dialoqları "**doğrunu tapmaq üçün fikir mübarizəsi**" yerinə hər zaman "**mənafelərini qane edən hər şeyin nə olursa olsun, səhv belə olsa müdafiə etmək üçün dirənmə, inad göstərmə**" məntiqi üzərində quracaqlar.

Din insanın eqoistliyinə ağır gələcək və bəzi dünyəvi mənafeləri ilə toqquşacaq. Bu səbəbdən şeytanın mübahisə sevən xüsusiyyətinə sahib olan insanlar onlara din izah edildiyi zaman da mübahisə yolunu seçəcəklər.

Vicdanları tərəfindən qəbul edilən dini bu istəklərinə görə inkar edəcək, bu davranışlarına guya "məntiq" qata bilmək üçün də eynilə şeytan kimi mübahisə yolunu seçəcəklər.

Şeytan isə insanları Allahın haqq yolundan azdırmaq və bütün həyatını tüfeyli bir şəkildə keçirmələri üçün mübahisəni əlindən gəldiyi qədər qızışdırar və genişləndirər. İnsanların zehnini Allah ilə və axirətlə deyil, heç bir faydası

olmayan boş mövzularla doldurmağa çalışdığı kimi eyni şəkildə mübahisə və çəkişməni də insanlara xoş və gözəl göstərir. Buna görə də, Allah möminləri şeytanın bu mübahisəni qızışdırmasına qarşı xəbərdar etməkdə və Rəsula **"Bəndələrimə de ki: "Gözəl sözlər desinlər". Şeytan insanın açıq düşmənidir"** (İsra surəsi, 53) hökmünü verir. Möminlər bu hökmə uymaqla öz aralarında heç bir mübahisəyə izin verməz və beləcə şeytanın bu xüsusiyyətindən qorunmuş olurlar.

Mübahisə möminlər üçün darıxdırıcı bir şeydir. İnkarçılar isə **"... Şeytan əməllərini onlara gözəl göstərmiş, onları doğru yoldan sapdırmışdır. Buna görə də haqq yolu tapa bilmirlər"** (Nəmi surəsi, 24) ayəsində də bildirildiyi kimi, şeytanın "**bəzəkli sözləri**" ilə aldadılmışlar. Şeytan həmişə onları mübahisəyə yönəldir və onun "bəzəkli sözləri" ilə həm bundan şeytani zövq alır, həm də bunu doğru və normal bir şey kimi qəbul edirlər.

Yaşadığımız həyatda demək olar ki, hər gün buna bənzər bir çox nümunələr müşahidə etmək mümkündür. Gündəlik həyatda hər növ mövzuda bir çox mübahisənin şahidi oluruq. Müxtəlif televiziya kanallarında, internetdə yaxud da küçədəki insanlar arasında aparılan bu mübahisələrin təməl xüsusiyyəti onların bir neçə saatdan sonra heç bir konkret nəticə əldə etmədən bitməsidir. Axır vaxtlar bu mübahisələrdə din mövzusu mühüm yer tutaraq ön plana çıxmışdır. İnsanların çoxu kifayət qədər məlumatı ya da yolgöstərici kitabı olmadığı halda Allah haqqında mübahisələr edirlər. Bəziləri isə insanları doğru yoldan çəkindirmək üçün mübahisəyə girir. İndi Quranda diqqət çəkən nümunələri verilən bu növ mübahisələr və bu mübahisələri edənlərin xarakterik xüsusiyyətlərini araşdıraq.

# İNKARÇILARIN MÖMİNLƏRLƏ MÜBAHİSƏLƏRİ

İnkarçıların Allah haqqındakı mübahisələri Quranda belə açıqlanır:

**De: "Allah haqqında bizimlə mübahisəmi edirsiniz? Halbuki O, bizim də, sizin də Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin əməlləriniz isə sizə aiddir. Biz Ona təslim olanlarıq". (Bəqərə surəsi, 139)**

Şeytanın mübahisəyə meylli olan xarakterik xüsusiyyəti bu şəkildə inkarçılar üzərində əks olunur. Beləliklə, bu insanlar möminlərlə Allah haqqında, Allahın ayələri haqqında və Allahın dini haqqında mübahisələr edirlər. Bəzən bu mübahisələr məsxərəyə və alçaldılmağa qədər davam edir (Hamımız televiziyada və internetdə mübahisəli proqramlarda dini müdafiə edən insanları üzlərində kinayəli "təbəssümlə" dinləyənləri və onları məsxərəyə qoyanları görmüşük). Bu insanların möminlərə hansı gözlə baxdıqları aşağıdakı ayədə açıq ifadə edilmişdir:

**Onlara: "İnsanlar iman gətirdiyi kimi siz də iman gətirin!" – deyildiyi zaman: "Biz də səfehlər kimi iman gətirək?" – dedilər. Bilin ki, səfehlər onların özləridir. Lakin bunu bilmirlər. Onlar möminlərlə qarşılaşdıqları zaman: "Biz də iman gətirmişik", – deyərlər. Şeytanları (dostları) ilə yalnız**

**qalanda isə: “Biz sizinləyik, onlara istehza edirik”, – deyərlər. (Əslində) Allah onlara istehza edir və azğınlıqları içində çaşqın bir vəziyyətdə qalmaları üçün onlara möhlət verir.**

**(Bəqərə surəsi, 13-15)**

Bu ayələrdən də göründüyü kimi, möminlərlə mübahisə edən və onları məsxərəyə qoyan insanların şeytanla mənəvi bağlılığının olması, şeytanla “bərabər” qalması və onun yolunu getməsi danılmaz bir həqiqətdir.

Mübahisələrdə ən çox rastlanan hallardan biri həqiqətləri gizlətmək və yalan danışmaqdır, sonradan isə bu sözü başqa cür düzüb-qoşmaq bu insanların adət etdiyi bir şeydir. Bu mübahisələrdə heç bir nəticə verməyən hikmətsiz sözlər danışılır və həqiqət üzərində əsla durulmur. Ənənəvi cümlələr və adət edilmiş izahlarla hər kəs öz fikrini insanların beyninə yeritməyə çalışır. Bu hal Quranda belə bildirilir:

**Şeytanların kimə nazil olduğunu sizə xəbər verimmi? Onlar günahkar və yalançı olan hər kəsə nazil olarlar. Onlar eşitdiklərini çatdırarlar. Ancaq onların çoxu yalançıdır.**

**(Şuəra surəsi, 221-223)**

İnkarçıların möminləri doğru yoldan döndərmək və dinə meylli xalqı dindən uzaqlaşdırmaq məqsədi ilə istifadə etdiyi bir metod haqq dindən başqa ona alternativ hər hansı bir sistemin təbliğatını aparmaqdır. Bunlar bir tərəfdən öz sistemlərinin təbliğatını apararkən digər tərəfdən də haqq dini pozmağa və gözdən salmağa çalışırlar. İnkarçıların bu fəaliyyətini din haqqında mübahisələr çıxarmaq məqsədi davam etdirdiyini görürük. Saff

surəsinin 8-ci ayəsində bildirildiyi kimi, inkarçılar **"... Allahın nurunu öz ağızları ilə söndürmək istəyirlər..."**

Bu səylərini açıq şəkildə etdikləri yerlər dini hədəf seçən, qarşılıqlı dialoq, mübahisəli proqramlar və yazılı mətbuatdır. Xüsusilə də bəzi qəzet və jurnallarda silsilə şəklində nəşr olunan dinə qarşı yazılar inkarçıların təbliğat materiallarındandır. Bəzi qəzet və yumor məcmuələrində çəkilən sabo ilə, gen şalvarlı və təkkəli müsəlman obrazları, yaradılış həqiqətini inkar edən müxtəlif mətbuat orqanlarında çıxan yazılar və şəkillər inkarçıların "Allahın nurunu söndürmək" məqsədi ilə planlaşdırdığı fəaliyyətdir. Burada "Allahın nurunu söndürmək"də məqsəd Onun dinini, kitabını dəyərsiz etmək, insanların dinə olan inamını məhv edərək onları dindən uzaqlaşdırmaqdır. Şübhəsiz ki, onlar təbliğat aparanları əngəlləmək, təzyiq göstərmək və beləcə, dinin yayılmasını əngəlləməyə də çalışırlar. Ancaq Allah eyni ayədə bu səylərin boşa çıxacağını belə bildirmişdir: **"...Allah isə – kafirlərin xoşuna gəlməsə də – öz nurunu tamamlayacaqdır".**

İman gətirən insanlarla iman gətirməyənlər arasındakı mübahisə çox vaxt iman edənlərin təbliğat aparması zamanı ortaya çıxır. İstər möminlərin anlatdığı dində heç bir fikir sistemlərinə qarşı üstünlük əldə etməsi, istərsə də inkarçıların əslində vicdan və yaradılış olaraq dini qəbul edəcəkləri halda qürurlarına görə inkar etmələri, onları mədəni və səviyyəli bir şəkildə düşünmək əvəzinə cahil olaraq mübahisə və qışqırıq üslubuna sürükləyir. Ümumiyyətlə isə, göstərdikləri nümunələr də əlverişli deyil, davakar mübahisə mövzusu olaraq seçilmiş nümunələrdir. Bu ayə sırf mübahisə yaransın deyə mübahisəyə başlayan inkarçılar barədə bəhs edir:

**Məryəm oğlu İsa misal çəkildiyi zaman sənin qövmün buna sevinərək gülmüşdü. Onlar: "Bizim ilahlarımız daha yaxşıdır, yoxsa İsa?" – dedilər. Bunu sənə yalnız mübahisə etmək üçün deyirdilər. Xeyr! Onlar höcətləşən kimsələrdir.**

**(Zuxruf surəsi, 57-58)**

Allahın ayələri haqqında istehza ilə mübahisə edən insanlarla qarşılaşdıqda Allahın tövsiyəsi, onlar başqa söhbətə başlamayana qədər onlardan üz çevirməkdir:

**(Allah) Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onların (ayələrin) ələ salındığını eşitdiyiniz zaman, onlar (kafirlər) bundan başqa bir sözə (mövzuya) keçənə qədər onlarla birlikdə oturmayın! Yoxsa siz də onlar kimi olarsınız. Şübhəsiz ki, Allah münafiqləri və kafirləri cəhənnəmdə bir yerə toplayacaqdır. (Nisa surəsi, 140)**

Bu insanların həqiqətdə din haqqında heç bir məlumatının olmaması mübahisə etdikləri insanlara "Bizə uyun, sizin günahlarınızı da öz üstümüzə alaq" demələrindən də görünür. Quranda Allahın açıq şəkildə vurğuladığı kimi, **"... Heç bir günahkar başqasının günahını daşımaz..."** (İsra surəsi, 15).

İnanmayan insan mübahisə zamanı əvvəlcə qüdrəti ilə, maddi varlığı ilə və özü kimi fikirləşənlərin sayca çox olması ilə qalib gəlməyə çalışır. Ancaq Allah **"Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allahın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və ancaq yalan danışarlar!"** (Ənam surəsi, 116) hökmünü verir. Deməli, bir fikrə uyanların

sayının çox olması o fikrin düzgün olduğunu göstərməz. Həmçinin, Quranın bir çox ayəsində insanların çoxunun nankorluq edib inadkarlıq etməsindən, şükür etməməsindən, ağıllı düşünməməsindən, haqqı çirkin görməsindən bəhs edilir. Bunlar onsuz da insanların çoxunun azğınlıq içində olduğunu, buna görə də heç bir önəm daşımadığını göstərir. İnkarçılar isə fikrin düzgünlüyünün və gücünün ona inananların sayı ilə bağlı olduğunu zənn edirlər. Bu batil inanc cahil cəmiyyətlərdə tez-tez tələffüz edilən **"bu qədər insan bilmir, bir tək sizmi doğrunu bilirsiniz?"** sualı ilə qarşınıza çıxır.

İnkarçılar din haqqındakı mübahisələri inkarlarına sözdə məntiqi əsas qatmaq üçün edirlər. Eynilə **"məni atəşdən, Adəmi torpaqdan yaratdın"** deyən şeytan kimi ortaya azğın da olsa öz ağıllarına görə məntiqi söz atır və buna əsaslanaraq mübahisəyə başlayırlar. Məqsədləri doğru olduğunu bildikləri, amma qəbul etmək istəmədikləri böyük həqiqəti inkar etmək üçün bəhanə tapmaqdır. Bir ayədə inkarçıların şeytandan öyrəndiyi metod belə açıqlanır:

**...Onlar hər cür möcüzə görsələr də, yenə ona inanmazlar. Hətta kafir olanlar sənin yanına gəldikləri zaman: "Bu (Quran), əvvəlkilərin əfsanələrindən başqa bir şey deyildir", - deyərək səninlə mübahisə edirlər. Onlar həm onu (Quranı dinləməyi) qadağan edir, həm də özləri ondan uzaq dururlar. Onlar fərqinə varmadan ancaq özlərini məhv edirlər.**

**(Ənam surəsi, 25-26)**

Mübahisələrində müəyyən nümunələrdən istifadə etdikləri üçün onları tanımaq çox asandır. Quranda gördüyümüz ayələrdə inkarçılar Peyğəmbərimizlə (s) mübahisə edərkən dini onun anlatdığı kimi görmədiklərini, onun dediklərini keçmiş nəsillərdən də eşitmədiklərini, amma əslində onlarda Allah inancı olduğunu iddia edirlər. Bir çox inkarçılar vəhşi və

anormal xarakterlərini mübahisələrdə nümayiş etdirirlər. Quranda bildirildiyi kimi, möminləri **"yurdlarından çıxarıb qovmaq, ya da mütləq dinlərinə dönməklə"** (İbrahim surəsi, 13), **"daş-qalaq etməklə"** (Məryəm surəsi, 46), **"işgəncə və ölümlə"** (Taha surəsi, 71), **"zindana atmaqla"** (Şuəra surəsi, 29), **"təzyiq göstərib əngəlləməklə"** (Qəmər surəsi, 9) ya da **"oda atmaqla"** (Saffat surəsi, 97) təhdid edirlər. Bu nümunələrin siyahısını genişləndirmək də mümkündür.

Bura qədər olan fəsildə inkarçıların Allah haqqındakı mübahisələrindən danışdıq və möminlərə hansı gözlə baxdıqlarını, həqiqətdən necə qaçdıqlarını və Allahın nurunu söndürməyə çalışdıqlarını açıqladıq. Üstəlik Quranı necə yalan sayaraq müxtəlif səbəblərlə mübahisələr etdiklərinə toxunduq. Ancaq Quranda nümunələri verilən mübahisələr bunlarla kifayətlənmir. Digər bir mübahisə örnəyi "Bəqərə" surəsinin 258-ci ayəsində qarşımıza çıxır:

**Allah İbrahimə hökmranlıq verdiyinə görə Rəbbi barəsində onunla (İbrahimlə) mübahisə edən şəxsi (Nəmrudu) görmədinmi? O zaman İbrahim demişdi: "Mənim Rəbbim dirildir və öldürür". O da: "Mən də dirildir və öldürürəm", - demişdi. İbrahim: "Şübhəsiz ki, Allah Günəşi şərqdən gətirir. Sən də onu qərbdən gətir!" - demiş, həmin vaxt o kafir donub qalmışdı. Allah zalım qövmü doğru yola yönəltməz!**

**(Bəqərə surəsi, 258)**

Ayədən də göründüyü kimi, hz. İbrahimlə mübahisə edən şəxs rifah içində harınlayıb yolundan azmış biridir. Quranın bir çox ayəsində möminlərlə mübahisə edən və mübarizə aparanların məhz o qövmün qabaqcıl, varlı insanları olduğu bildirilir. Həqiqətən də qabaqcıllar qurduqları rejimin pozulmasından, rahat şəkildə etdikləri ədalətsizlik və haqsız davranışların yox

olmasından qorxduqları üçün bu quruluşa qarşı çıxan möminlərlə mübarizə aparırlar. Allahın verdiyi zənginlik bu insanları azdırmış və şirk qoşmalarına səbəb olmuşdur. Hər nə qədər inandıqlarını desələr də bunlar əslində inancsız insanlardır, sahib olmaq istədikləri sərvət isə sadəcə dünyada istədiklərini verir, ancaq onların axirətdəki vəziyyəti çox fərqlidir. Bu insanlar dünyada ikən Allahın dininə iman gətirmələri üçün edilən dəvətlərə fikir verməmiş və inkarda israr etmişlər. Bunun əvəzini isə sonsuz cəhənnəm əzabı ilə alacaqlar. Möminlər də Allahdan sərvət və zənginlik istəyirlər. Allah **"Bəziləri isə: "Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver, bizi cəhənnəm əzabından qoru! " deyirlər"** (Bəqərə surəsi, 201) ayəsi ilə möminlərin bu duasını bildirmişdir. Ancaq möminlərin bu istəkləri yalnız nəfslərini qane etmək və ya dünyada kef içində tüfeyli həyat keçirmək üçün deyil. Onlar zənginliyi hz. Süleyman kimi Allaha yaxınlaşmaq, təbliğdə güclü və təsirli olmaq üçün tələb edirlər. Hz. Süleyman: **"Mən bu atları Rəbbimin zikr etməkdən dolayı sevirəm"** (Sad surəsi, 32) deyir. Bu səmimiyyətinin qarşılığı olaraq Allah ona yaşadığı dövrdə dünya hakimiyyətini vermişdi.

Yuxarıda bəhsi keçən hz. İbrahimlə mübarizə edən **"rahatlıqdan azmış insan"** isə heç nəyin fərqində deyil. Hər şeyi Allahın yaratdığını, Allahın nəzarəti olmadan bir şeyə gücünün çatmayacağını anlamamışdır. Bu zənni də onun İbrahimə **"mən də öldürür və dirildirəm"** deməsinə səbəb olmuşdu. Belə bir azğınlığa sürüklənməsi üçün yol açan isə şübhəsiz ki, şeytandır. Çünki şeytan insana Allaha **"qarşı çıxmağı və dünya həyatını cəlbedici göstərmişdir"** (Hicr surəsi, 39). Beləliklə, o da Allaha və Onun elçilərinə qarşı baş qaldırmış, dünya istəkləri ona qapıları açan var-dövlətlə cazibədar görsənmişdir. Ancaq Hz. İbrahim ağıllı cavabla **"günəşi qərbdən doğurmağı bacarırsanmı"** deyincə, həmin inkarçı Qurandakı ifadə ilə desək, "donub qalmışdır".

Şübhəsiz ki, Allahın köməyi hər işində Rəbbinə üz tutan, ixlas sahibi bəndəsi hz. İbrahimin tərəfində olacaq. Quranda möminlərin inkarçılarla etdikləri söhbətlərdə necə dəstəkləndikləri belə açıqlanır:

**Onların sənə çəkdiyi elə bir məsəl yoxdur ki, Biz sənə (onun) doğru olanını və daha yaxşı izahını gətirməyək.**

**(Furqan surəsi, 33)**

Beləliklə, bu mübarizədən qalib çıxanlar Allahın izni ilə hər zaman möminlərdir.

Möminlərlə bu mübahisələri edənlər Quranda həmişə "**Qövmün inkara uymuş qabaqcılları**" şəklində bildirilir. Bu qabaqcılların ortaq xüsusiyyətləri var-dövlət, sərvət baxımından "**zəngin**" sayılan insanlar, həmçinin siyasət və iqtisadiyyatda rəhbər vəzifədə olmalarıdır. Daha sonra onların əməllərindən də danışılacaq.

İnsanın axirət inancının olmaması və əldə etdiyi sərvət, sanki əbədi onun olacaqmış zənninə sürükləyir. Hətta elə hala düşə bilər ki, bir tərəfdən qiyaməti inkar edərkən, digər tərəfdən də Quranda göstərilən bağçaya sahib zəngin bir insan kimi axirətdə dünyadakından daha yaxşı bir yerdə olacağını zənn edər. Bir tərəfdən Allahın onu sevdiyi bir bəndəsi olduğunu deyərkən, digər tərəfdən ölümdən çox qorxar və Qurandakı ifadə ilə desək, "min il" yaşamasını istəyər. "Ənbiya" surəsinin 44-cü ayəsindəki **"... Ömür onlara (heç bitməyəcək kimi) uzun gəldi..."** ifadəsi bu hissin açıq sübutudur. Ölümsüzlük arzusunun təməlində isə yenə şeytanın təlqini durur. "Əraf" surəsinin 20-ci ayəsində şeytan hz. Adəmi əbədi yaşayışla aldatmağa çalışır. "Taha" surəsinin 120-ci ayəsində də əbədiyyət ağacı və yox olmayacaq bir mülkü vəd etməsi bütün bu anlatdıqlarımıza çox uyğundur. Şeytanın mühüm hiylələrindən biri olan əbədi yaşayış, əbədi sərvət vədi öz firqəsi üçün əsas azdırıcı amillərdəndir. Həqiqətdə insan ruhu onsuz da ölümsüzdür, yox olan bədəndir, ruhun əbədi həyatı yaradıldığı gün başlanmışdır, cənnətə və ya cəhənnəmə gedəcəyi isə zahirən dünyada etdiyi saleh əməllərlə müəyyən olunur. Şeytanın

bu boş vədi və yalanlarına uymuş insandan əsaslı və məntiqli bir şey gözləmək təbii ki, düzgün deyil. Beləri yalnız qışqırıb-bağırır, nəticəsiz mübahisələr edərək qarşısındakını aldadır və ya qorxudur.

Təbliğat apardıqları insanın bu şəkildə davranmasından dinə meyl etməyəcəyini anlayan möminlər bu mövzuda təkid etməz və onu özü seçdiyi yolda qoyarlar. Çünki bundan sonra iki tərəf arasındakı dialoq təbliğə yox, mübahisəyə çevriləcək. Quranda möminlərə mübahisə etmədən söhbətə son qoymaları əmr edilir:

**De: "Allah haqqında bizimlə mübahisəmi edirsiniz? Halbuki O, bizim də, sizin də Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin əməlləriniz isə sizə aiddir. Biz Ona təslim olanlarıq". (Bəqərə surəsi, 139)**

# İNKARÇILARIN ÖZ ARALARINDAKI MÜBAHİSƏLƏRİ

"Qəlbi parçalanan" inkarçılar möminlərlə olduğu kimi öz ətrafındakılarla da tez-tez mübahisə edirlər. Bu, nəfsin **"hər şeydən çox höcət"** (Kəhf surəsi, 54) olmasının nəticəsidir. Şeytanın bu yerdə fəaliyyətə başlaması mübahisələri "həyatın təbii axarı içində rastlanan normal hallar" kimi göstərməsi ilə olur. Buna görə bir-birini sevən insanların belə mübahisə edərək dalaşmasına "həyatın mənasıdır!" deyilməsi əslində şeytanın təsirinin necə geniş yayıldığını göstərir. Xüsusilə də mətbuat bu mövzu üzərində işləyərək insanların mübahisələrini uyğun bir yerə çatdırmağa səy göstərir. İnsanlara qarşılıqlı münasibətlərində səmimi deyil, mənfəətçi və siyasi davranmaları təlqin edilir. Problemləri həll etmək əvəzinə "mübahisə yaradan mövzulara nə qədər az toxunsanız, rahatlığınız da o qədər az pozular" deyə öyüd də verilir!

Bunlardan başqa bütün yanlışlığına baxmayaraq edilən bu təlqindən düzgün olan bəzi şeylər çıxarmaq da mümkündür. Şeytan tərəfindən yoldan çıxarılan inkarçılar həyatı boyu mübahisədən xilas ola bilməyəcəklər.

Dünya həyatında öz daxilində savaşarkən əslində bir-birinə müxtəlif yollardan yanaşır və doğru yoldan azdırmağa çalışırlar. Təlqinə çox açıq olan zəif xarakterə malik insanlar da ailələrinin, yaxınlarının və ətrafının fikirlərini mütləq həqiqət kimi qəbul edirlər. Bu fikirlər adət-ənənə adı ilə ortaya çıxdığı kimi onları insanların ağlına müasirləşmə, qərbləşmə kimi də yeritmək olar. Təbii ki, həm ənənələrdən, həm də müasirləşmədən götürüləcək bir sıra yaxşı tərəflər var. Ancaq bunlar həmişə düzgün və uyğun olmur və dinin yerinə keçməyə başladıqda yaxud da dinin unudulmasına və tərk edilməsinə səbəb olduqda, deməli şeytan öz məqsədinə çatmışdır.

İnkarçıların qiyamətə qədər davam edəcək olan mübahisələri Qiyamət günü hətta cəhənnəmdə də bitmir. Dünyada olduğu kimi axirətdə də bir-biri ilə mübahisə edəcəklər. Quranda bizə bildirildiyinə görə, hadisələr bu şəkildə həyata keçəcək. İnkarçılar dünyada bir-biri ilə mübahisə edərkən qiyamət gələcək (Yasin surəsi, 49) və onlar bir-birini azğınlıqda günahlandıracaqlar (Saffat surəsi, 27-33), cəhənnəmdə Allah ilə (Əraf surəsi, 38-41; Fussulət surəsi, 29; Qaf surəsi, 27-30; Muminun surəsi, 106-108), cəhənnəm gözətçiləri ilə (Zuxruf surəsi, 77-80; Mülk surəsi, 8-11), cənnətdəkilərlə (Hədid surəsi, 13-15) və öz aralarında (Mömin surəsi, 46-50; Səba surəsi, 31-33; Sad surəsi, 5964) mübahisəyə davam edəcəklər. Ancaq bütün bunların hamısı onların alçaldılması və ümidləri qırılmış olaraq əzaba düşməsi üçündür.

Cəhənnəm gözətçiləri onları dinləməyəcək və əslində Allaha yalvarmalarının vacib olduğunu deyəcək. Allah, hətta Onunla danışmalarını da qadağan edəcək. Cənnətdəkilər bütün nemətlərin onlara qadağan olduğunu deyəcək. Onları yoldan çıxaranlar və səcdə etdikləri bütlər belə onları tanımayacaq, onları azdırdıqlarını qəbul etməyəcək. Şeytan da onları sadəcə çağırdığını və onların qaçaraq gəldiyini, əslində onlara qarşı heç bir gücünün olmadığını və artıq əbədi əzabı dadacaqlarını deyəcək (Doğrusunu Allah bilir).

# MÖMİNLƏR ARASINDA MÜBAHİSƏ SALMAĞA ÇALIŞANLAR

Möminlər Allahın yaratdığı fitrətə görə, qarşılıqlı ünsiyyət və söhbətdən zövq alırlar. Bu söhbətdə tez-tez Allahı xatırlayırlar, Onun şənini ucaldır və Ona yaxınlaşmaq üçün yollar axtarırlar. Bu nöqteyi-nəzərdən möminlərin öz aralarındakı mübahisələri dinə və yaradılışa uyğun deyil. Onsuz da **"Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O, sizin qəlbinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz"** (Ali İmran surəsi, 103) deyə xitab edilən insanlar bir-biri ilə ancaq söhbət edərlər. Əgər bu mövzuda aralarında fərqli fikirlər olarsa, bunları məsləhət yolu ilə birlikdə həll edər və düzgün olanı seçib qəbul edərlər. Çünki möminin öz nəfsini digər qardaşlarından üstün tutmaq kimi bir hədəfi ola bilməz. Təkəbbürlü deyil və ümumiyyətlə bir fikir ona aiddir deyə onu qorumaq üçün bəsit davranmaz. Belə əxlaqa sahib insanlardan ibarət bir cəmiyyətdə təbii ki, mübahisə üçün səbəb də ola bilməz.

Bir sözlə, mübahisə bir mömin cəmiyyətinin içinə ancaq "kənardan" daxil olur.

Kənardan gəlmənin isə iki ehtimalı var. Birinci ehtimal bir və ya bir neçə möminin qəflətə düşərək qısa müddətə də olsa Quran əxlaqından uzaqlaşmasıdır. Belə olduqda da cahil mədəniyyətin izləri təkrar görünər və bunun nəticəsi olaraq da şeytanın da qızışdırması ilə mübahisə yarana bilər. Ancaq bu xətanı işləmiş möminlər digər möminlərin müdaxiləsi yaxud sadəcə öz vicdanları ilə tez bunun Qurana zidd hərəkət olduğunu görür, Allahdan əfv diləyir və mübahisənin yarada biləcəyi hər hansı bir qəlb qırıqlığını da **"aranızı düzəldin"** (Ənfal surəsi, 1) əmrinə uyğun olaraq dərhal "təmir" edirlər.

İkinci ehtimal isə tamamilə fərqlidir. Çünki bu dəfə mübahisə “kənardan” daxilə şüurlu və təşkil edilmiş bir şəkildə gəlir. Bu isə iman gətirmədikləri halda qısa müddət ərzində özünü mömin kimi göstərərək mömin cəmiyyətin içində sığınacaq tapan münafiqlərə aid bir hərəkətdir. Münafiq xarakterin ən əsas mübahisə mövzuları itaət qavramıdır. Peyğəmbərin (s) tövsiyələrinə əməl etmək münafiqlərə çətin gəlir, onları sıxır. Xüsusilə də öz mənfəətlərinə əks olan mövzularda mübahisə etmək onların məlum xüsusiyyətlərindəndir. Peyğəmbərimizin (s) dövründə savaş şəraitində münafiqlər Allahın ayələri gələndə və Onun elçisi də yanında olduğu halda bir çox mövzu baxımından ayrılıq salmağa başlamışdılar. Bunların başında mübarizədən qaçmaq və ölüm qorxusu gəlir. Peyğəmbər (s) Allah rizası üçün vuruşmalarını əmr etdikdə əslində hər şey açıq məlum olduğu halda vuruşmaqdan qaçmağa çalışmışdılar. Bəziləri evlərinin açıq olduğunu bəhanə gətirərkən digərləri də Peyğəmbər (s) ilə haqq mövzusunda mübahisə etmişdilər. Ayələrdə bir çox saxta bəhanələrindən söhbət gedir. Bəziləri vuruşmağı bilmədiyini, digərləri də onları ailələrinin məşğul etdiyini iddia edir. Bir hissəsi isə isti havanı bəhanə edirlər. Allahın onlara cavabı isə çox açıqdır: **“Cəhənnəm odu daha istidir”** (Tövbə surəsi, 81).

Bütün bunlar münafiqlərin keçirdiyi ölüm qorxusundan irəli gəlir. Onsuz da hər kəs müəyyən edilmiş bir vaxtda öləcək, öz evində yaxud yüksəkdə tikilmiş qəsrlərdə olması belə bunu dəyişdirə bilməz. Bu səbəbdən onlar cəhənnəmin ən alt mərtəbəsinə atılacaq və ən şiddətli cəzalar görəcəklər.

Münafiqlərin bu höcətliyi təbii ki, şeytana uymalarından və onun xarakterik xüsusiyyətlərini daşımasından irəli gəlir. Allah bunu Quranda belə açıqlayır:

**Şeytan onları ələ keçirmiş, beləcə, Allahı anmağı onlara unutdurmuşdur. Onlar şeytanın tərəfdarlarıdır. Bilin ki, şeytanın tərəfdarları məhz ziyana uğrayanlardır.**

**(Mücadilə surəsi, 19)**

Ayədə diqqət çəkən bir məqam da mübahisəçi münafiqlərin bir xüsusiyyəti olan Allahın zikrini unutmaqdır. Əvvəl də bildirdiyimiz kimi, möminlər Allahı tez-tez zikr edər və beləliklə, şeytanın onlara zərər verməsinə icazə verməzlər. Allah Quranda şeytanın iman gətirən qulları üzərində heç bir təsir gücünün olmadığını bildirir.

Münafiqlərin şeytanla əlaqələri onun xarakterini nümayiş etdirməkdən də irəli getmiş və münafiqlər şeytanın əmrində iş görən cəmiyyət halına gəlmişdilər. Bu haqda "Nisa" surəsinin 76-cı ayəsində belə bəhs olunur:

**İman gətirənlər Allah yolunda döyüşürlər. Kafirlər isə Tağut (şeytan, bütlər) yolunda döyüşürlər. Elə isə, şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir.**

**(Nisa surəsi, 76)**

Allah münafiqləri həmişə mömin cəmiyyətin içindən çıxarmış, onları bəlli bir zamanda möminlərdən ayırmışdır. Küfrə qarşı aparılan mübarizədə münafiqlərin möminlərlə birlikdə olmasına icazə verməmişdir, çünki bu şəraitdə onların mübahisə və ayrı-seçkilik edəcəklərini bilmişdir. "Tövbə" surəsinin 47-ci ayəsində deyildiyi kimi, birlikdə mübarizə zamanı münafiqlər möminlərə zərər verməyə çalışacaq və möminlərin arasına fitnə salmaq üçün səy göstərəcəklər. Bu hərəkətlərini reallaşdırmaq üçün də rəsulu və Allahın

dinini mübahisə mövzusuna çevirəcəklər. Ancaq Allah buna heç vaxt icazə verməyəcəyini Quranda bildirmişdir.

Əvvəl də qeyd etdiyimiz kimi, möminlərin münafiqlərə qarşı bir-biri ilə mübahisə etməsi onların xarakterinə ziddir. Qəlbi Allah tərəfindən uzlaşdırılmışdır və aralarında ayrılıqdan söhbət gedə bilməz. Görəcəkləri işlərə aralarında müşavirə edərək qərar verirlər. Bu müzakirə mübahisəyə tərəf yönəldiyində Allaha olan dərin bağlılıqları və qurduqları səmimi münasibət onları tez Allahı xatırlamağa və mübahisədən əl çəkməyə vadar edir. Höcət xarakteri isə şeytana və münafiqlərə aid olduğunu bilir və Allaha sığınaraq mübahisədən çəkinirlər.

# MÜBAHİSƏ EDƏNLƏRƏ QURANDA CAVABLAR

Quranda möminlərə onlarla mübahisə edənlərə veriləcək cavab olaraq aşağıdakı ayə nümunə göstərilir:

**Sənə gələn bu elmdən sonra buna dair kim səninlə mübahisə edərsə, de ki: "Gəlin, sizlər və bizlər də daxil olmaqla, siz öz oğlanlarınızı, biz də öz oğlanlarımızı, siz öz qadınlarınızı, biz də öz qadınlarımızı çağıraq! Sonra da (Allaha) dua edib Allahın lənətinin yalançıların üzərinə olmasını diləyək!" Həqiqətən, bu, əsil doğru xəbərdir. Allahdan başqa heç bir ilah yoxdur. Şübhəsiz ki, Allah yenilməz qüvvət və hikmət sahibidir. (Ali İmran surəsi, 61-62)**

Yəni möminlər və kafirlər bir çox şahidin gözü qabağında hesablaşır. Hər iki tərəf öz doğrularını ortaya qoyar və yalançıları lənətləyər. Burada möminlərin məqsədi kafirlərin fikirlərinin hər kəsin ortasında etiraf etdirilməsidir. Quranda bildirilən bir həqiqət dinin hakim olduğu və insanların dəstə-dəstə dinə gəldikləri dövrdə bir çox insanın qabaqcadan etdiklərini və dediklərini inkar edəcək və özlərini əvvəlcədən möminlərlə birlikdə imiş kimi göstərməyə çalışacaq olmasıdır. Üstəlik möminlərin kafirləri lənətləməsi Allahın istəklərindən biri, dolayısı ilə bir ibadətdir.

Möminlərin bunlara verdiyi cavab belədir:

**...Allah bizim də, sizin də Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə məxsusdur. Bizimlə sizin aranızda mübahisə ediləcək bir şey yoxdur. Allah bizi (aramızda hökm vermək üçün) bir yerə toplayacaqdır. Axır dönüş Onadır". (Şura surəsi, 15)**

Quranda mübahisə edənlərə verilən konkret və təsirli cavab üslubu təbliğat aparan möminlər üçün çox gözəl bir nümunə və istifadəsi vacib olan bir metoddur. Həqiqətdə bunlar Allahın ehtimal edilən suallara verilməsini istədiyi qəti cavablardır. Mübahisə edənlərə veriləcək bir cavab aşağıdakı ayədə açıqlanır:

**Əgər səninlə mübahisə edərlərsə, de ki: "Mənə tabe olanlarla birlikdə mən özümü Allaha təslim etmişəm". Kitab verilmiş kimsələrə və ümmilərə də belə de: "Siz də (Allaha) təslim oldunuzmu?" Əgər təslim olarlarsa, doğru yola yönəlmiş olarlar. Əgər üz döndərərlərsə, sənin vəzifən ancaq təbliğ etməkdir. Allah bəndələrini görəndir. (Ali İmran surəsi, 20)**

Quranda onlara qarşı istifadə ediləcək bir başqa cavab isə belədir:

**De: "Allah haqqında bizimlə mübahisəmi edirsiniz? Halbuki O, bizim də, sizin də Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin əməlləriniz isə sizə aiddir. Biz Ona təslim olanlarıq". (Bəqərə surəsi, 139)**

Kafirlərin və möminlərlə mübahisə edənlərin mühüm xüsusiyyətlərindən biri onların axirəti inkar etməsidir. “Təğabun” surəsinin 7-ci ayəsi bu azğın inancı və bu inancı müdafiə edənlərə veriləcək mühüm cavabı belə bildirir:

**İnkar edənlər əsla dirildilməyəcəklərini iddia etdilər. De: “Bəli! Rəbbimə and olsun ki, siz dirildiləcəksiniz! Sonra etdiyiniz əməllər mütləq sizə xəbər veriləcəkdir. Bu, Allah üçün asandır. (Təğabun surəsi, 7)**

Bunlardan başqa, Allahın möminlərə örnək olaraq verdiyi bəzi cavab tərzləri belədir:

## Cənnətə gedəcəyini iddia edənlərə

**De: “Əgər Allah yanındakı axirət yurdu (cənnət) başqa insanlara deyil, yalnız sizə məxsusdursa və doğru deyirsinizsə, onda ölümü arzulayın!” (Bəqərə surəsi, 94)**

## ALLAHIN HAQQ DİNİNDƏN BAŞQA ATALARININ DİNİNƏ UYANLARA

Onlara: "Allahın nazil etdiyinə iman gətirin!" – deyildiyi zaman onlar: "Biz özümüzə nazil olana iman gətiririk", – deyirlər və ondan başqasını inkar edirlər. Halbuki o, onların əllərindəkini təsdiqləyən həqiqətdir. De ki: "Əgər həqiqətən iman gətirmişdinizsə, bəs nə üçün əvvəllər Allahın peyğəmbərlərini öldürürdünüz?" (Bəqərə surəsi, 91)

Vaxtilə sizdən əhd alıb dağı üstünüzə qaldıraraq: "Sizə verdiyimizdən möhkəm yapışın, (oradakı hökmləri) dinləyin!" – demişdik. Onlar isə: "Eşitdik və qarşı çıxdıq!" – demişdilər. Küfrləri səbəbilə qəlblərini buzov sevgisi bürümüşdü. De ki: "Əgər iman gətirmisinizsə, imanınızın sizə onu əmr etməsi necə də pisdir!" (Bəqərə surəsi, 93)

Onlar Allahı qoyub özlərinə nə bir xeyir, nə də bir zərər verə bilən bütlərə ibadət edir və: "Bunlar, Allah dərgahında bizim şəfaətçilərimizdir!" – deyirlər. De ki: "Siz Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz? Allah onların şərik qoşduğu şeylərdən uzaq və ucadır!" (Yunis surəsi, 18)

De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqların və gözlərin sahibi kimdir? Ölüdən dirini, diridən də ölünü çıxardan kimdir? Hər cür işi nizamlayan kimdir?" Onlar:

"Allah!" – deyə cavab verəcəklər. O zaman de ki: "Elə isə Allahdan çəkinmirsinizmi?! (Yunis surəsi, 31)

De: "Etdikləri əməllər baxımından ən çox ziyana uğrayanları sizə xəbər verəkmi? (Bunlar) yaxşı işlər gördüklərini zənn etdikləri halda, dünya həyatındakı səyləri hədər getmiş kəslərdir. Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən və beləcə, əməlləri puça çıxan kəslərdir. Buna görə də qiyamət günü Biz onlar üçün heç tərəzi də qurmayacağıq. (Kəhf surəsi, 103-105)

De: "Əgər bilirsinizsə, (deyin görək) yer üzü və orada olanlar kimindir?" Onlar: "Allahındır!" – deyəcəklər. Sən də: "Elə isə heç düşünmürsünüzmü?" – de. De ki: "Yeddi göyün və əzəmətli ərşin Rəbbi kimdir?" Onlar: "Allahındır!" – deyəcəklər. De ki: "Elə isə siz (Allahdan) qorxmursunuzmu?" De: "Əgər bilirsinizsə, (deyin görək) hər şeyin hökmranlığı əlində olan, (hər şeyi) himayə edən və heç bir himayəçiyə ehtiyacı olmayan kimdir?" Onlar: "(Bu sifətlər) Allaha məxsusdur!" – deyəcəklər. De ki: "Bəs necə olur ki, ovsunlanırsınız (aldanıb haqdan üz döndərirsiniz)?" (Muminun surəsi, 84-89)

Əgər onlardan: "Göydən su endirib onunla ölü torpağa can verən kimdir?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyərlər. De ki: "Həmd Allaha məxsusdur!" Ancaq onların çoxu düşünməz. (Ənkəbut surəsi, 63)

Onlardan: “Göyləri və yeri kim yaratmışdır?” – deyə soruşsan, onlar hökmən: “Allah!” – deyəcəklər. De ki: “Elə isə deyin görək, əgər Allah mənə bir zərər yetirmək istəsə, Allahdan başqa dua etdikləriniz Onun zərərini dəf edə bilərlərmi? Yaxud Allah mənə mərhəmət etmək istəsə, onlar Onun mərhəmətinə mane ola bilərlərmi?” De: “Allah mənə yetər. Təvəkkül edənlər ancaq Ona təvəkkül edərlər!” De: “Ey qövmüm! Bacardığınızı edin, mən də bacardığımı edəcəyəm. Siz tezliklə biləcəksiniz.” (Zumər surəsi, 38-39)

“Həqiqətən, Allah bizə əmr etdi ki, (göydən enən) alovun yeyəcəyi (yandırıb yox edəcəyi) bir qurban gətirməyincə heç bir peyğəmbərə inanmayaq!” – deyənlərə de ki: “Məndən əvvəl sizə peyğəmbərlər açıq-aşkar möcüzələr və (xüsusilə) sizin dediyinizi (möcüzəni) gətirmişdilər. Əgər doğru kimsələrsinizsə, bəs nə üçün onları öldürdünüz?”

(Ali İmran surəsi, 183)

Onlar pis bir iş gördükləri zaman: “Atalarımızın bu yolda olduğunu gördük. Bunu bizə Allah əmr etmişdir”, – deyirlər. De: “Şübhəsiz, Allah ədəbsizliyi əmr etməz. Allaha qarşı bilmədiyiniz şeylərimi söyləyirsiniz?” (Əraf surəsi, 28)

## ALLAHI, DİNİ, QURANI İNKAR EDƏNLƏRƏ

Kafirlərə de: "Siz məğlub olacaqsınız və cəhənnəmə yığılacaqsınız! (Ora) necə də pis bir yerdir!"

(Ali İmran surəsi, 12)

De: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (ortaq) bir sözə gəlin! (Beləki,) Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" Əgər yenə də onlar üz döndərərlərsə, belə deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!" (Ali İmran surəsi, 64)

De: "Allahdan başqa dua etdiklərinizə ibadət etmək mənə qadağan edilmişdir!" De: "Əsla sizin arzularınıza uymaram. Elə olsaydı, (haqq yoldan) azmış olardım və doğru yola yönələnlərdən olmazdım". De: "Həqiqətən, mən Rəbbimdən gələn açıq-aydın bir dəlilə əsaslanıram. Siz isə onu təkzib etdiniz. Sizin tez gəlməsini istədiyiniz (əzab) mənim ixtiyarımda deyil. Hökm ancaq Allahındır. Haqqı O bəyan edər. O, (haqq ilə batili) ayırd edənlərin ən yaxşısıdır". De: "Əgər tez gəlməsini istədiyiniz (əzab) mənim ixtiyarımda olsaydı, mənimlə sizin aranızda iş, əlbəttə, bitirilmiş olardı. Allah zalımları daha yaxşı tanıyır". (Ənam surəsi, 56-58)

Allahı layiqincə tanımadılar. Belə ki, onlar: “Allah heç bir bəşərə hər hansı bir şey nazil etməmişdir”, – dedilər. De ki: “Musanın insanlara bir nur və hidayət olaraq gətirdiyi kitabı kim nazil etmişdir? Siz onu vərəqlərə yazıb (istədiyinizi) açıqlayırsınız, bir çoxunu da gizlədirsiniz. Sizin və atalarınızın bilmədiyi şeyləri (Qurandan) öyrənmiş olursunuz”. Sən: “Allah!” – de. Sonra onları burax ki, qoy düşdükləri bataqlıqda oynaya-oynaya qalsınlar.

(Ənam surəsi, 91)

Kafirlərə de: “Əgər (küfrdən və Peyğəmbərə qarşı düşmənçilikdən) əl çəksələr, onların keçmiş günahları bağışlanacaq. Əgər (o işlərə) geri qayıtsalar, əvvəlkilərin başına gələnlər onların da başına gələcəkdir.

(Ənfal surəsi, 38)

(Öldükdən sonra) bizimlə qarşılaşacaqlarına ümid etməyənlər özlərinə ayələrimiz açıq-aydın oxunduğu zaman: “Ya bundan başqa bir Quran gətir, ya da onu dəyişdir!” – deyirlər. De ki: “Onu özbaşıma dəyişməyim mənə yaraşmaz. Mən ancaq mənə gələn vəhyə tabe oluram. Rəbbimə asi olacağım təqdirdə, həqiqətən, böyük günün əzabından qorxaram”. De: “Əgər Allah diləsəydi, onu sizə oxumazdım və (Allah) onu sizə bildirməzdi. Mən (Quran nazil edilməzdən) əvvəl də sizin aranızda ömür sürmüşəm. Yenə də dərk etmirsinizmi?” (Yunis surəsi, 15-16)

# QİYAMƏT SAATINI SORUŞANLAR VƏ ƏZABI GÖRMƏK İSTƏYƏNLƏRƏ

İnsanlar səndən qiyamətin vaxtı haqqında soruşurlar. De ki: "Onun məlumatı yalnız Allah yanındadır!" Nə bilirsən, bəlkə də, qiyamət yaxın bir zamanda baş verəcək.

(Əhzab surəsi, 63)

Kafirlər: "Qiyamət bizə gəlməyəcək!" – dedilər. De ki: "Xeyr! Qeybi bilən Rəbbimə and olsun ki, o, mütləq sizə gələcəkdir. Göylərdə və yerdə zərrə qədər bir şey belə Ondan gizli qalmaz. Hətta ondan daha kiçik və daha böyük elə bir şey yoxdur ki, açıq-aydın bir kitabda (lövhi-məhfuzda) olmasın". (Səba surəsi, 3)

Onlar: "Əgər doğru deyirsinizsə, bu vəd (əzab) nə zaman (gerçəkləşəcək)?" – deyirlər. De ki: "Onu yalnız Allah bilir. Mən ancaq açıq-aşkar xəbərdar edənəm". Onun (əzabın) yaxınlaşdığını gördükləri zaman inkar edənlərin üzləri qaralacaq və onlara: "Sizin israrla istədiyiniz (əzab) budur!" – deyiləcəkdir. De: "Deyin görüm, Allah məni və mənimlə birlikdə olanları məhv etsə, yaxud bizə rəhm etsə, bəs kafirləri acı əzabdan kim xilas edəcək?! De: "O, Rəhmandır (çox mərhəmətlidir)! Biz Ona iman gətirmiş və Ona təvəkkül etmişik. Kimin açıq-aydın bir azğınlıq içində olduğunu yaxın

bir vaxtda biləcəksiniz". De: "Deyin görüm, əgər suyunuz çəkilsə (qurusa), onda kim sizə axar su gətirə bilər?"

(Mülk surəsi, 25-30)

## Dinə qəzəblənənlərə

Baxın, siz o kimsələrsiniz ki, onlar sizi sevmədikləri halda siz onları sevirsiniz. Siz bütün kitablara inanırsınız. Sizinlə görüşdükləri zaman: "Biz iman etmişik", – deyərlər. Ancaq xəlvətdə olduqları zaman sizə qarşı qəzəblərindən barmaqlarının uclarını gəmirərlər. De: "Ölün acığınızdan!" Şübhəsiz ki, Allah ürəklərdə olanları biləndir.

(Ali İmran surəsi, 119)

De: "Ey qövmüm, əlinizdən gələni edin! Mən də (öz üzərimə düşəni) edirəm. Yaxın bir vaxtda (dünya) yurdunun sonunun kimin xeyrinə olacağını biləcəksiniz. Şübhəsiz ki, zalımlar nicat tapa bilməzlər". (Ənam surəsi, 135)

Yoxsa onların (bütlərin) yeriyən ayaqları, tutan əlləri, görən gözləri, eşidən qulaqlarımı var?! De: "Şərik qoşduqlarınızı çağırın! Sonra mənə tələ qurun və mənə heç möhlət də verməyin! (Əraf surəsi, 195)

Başlarına gələn müsibətdən sonra insanlara bir rəhmət (rahatlıq) dadızdırsaq, yenə ayələrimiz barəsində onların bir hiyləsi olar. De ki: "Allahın hiyləsi daha sürətlidir". Şübhəsiz, elçilərimiz (mələklər) qurduğunuz hiylələri yazırlar".

(Yunis surəsi, 21)

Ayələrimiz onlara açıq-aydın oxunduğu zaman kafirlərin üzlərində bir məmnuniyyətsizlik sezərsən. Az qalsın, onlara ayələrimizi oxuyanların üstünə hücum etsinlər. De ki: "Bundan daha pisini sizə xəbər verimmi? Cəhənnəm! Allah onu kafirlər üçün vəd etmişdir. O nə pis dönüş yeridir!"

(Həcc surəsi, 72)

## ALLAHIN AYƏ GÖNDƏRMƏSİNİ İSTƏYƏNLƏRƏ

Onlar: "Ona (Peyğəmbərə) Rəbbindən bir möcüzə endirilməli deyildimi?" – dedilər. De: "Şübhəsiz ki, Allah möcüzə endirməyə qadirdir". Lakin onların çoxu bilməz.

(Ənam surəsi, 37)

# Möcüzə istəyənlərə

De: “Mən sizə: “Allahın xəzinələri mənim yanımdadır”, – demirəm. Mən qeybi də bilmirəm. Həmçinin sizə: “Mən bir mələyəm”, – demirəm. Mən, sadəcə, mənə gələn vəhyə tabe oluram”. De: “Kor ilə gözü görən eyni olarmı? Heç düşünmürsünüzmü?” (Ənam surəsi, 50)

Allaha ürəkdən and içdilər ki, əgər onlara bir möcüzə gəlsə, ona mütləq inanacaqlar. De: “Möcüzələr ancaq Allahın dərgahındadır. Bəs, (möcüzə) gəlsə belə, yenə də iman gətirməyəcəklərini bilmirsinizmi?” (Ənam surəsi, 109)

Onlar ancaq özlərinə mələklərin, yaxud, Rəbbinin və ya Rəbbinin bəzi əlamətlərinin gəlməsinimi gözləyirlər?! Rəbbinin bəzi əlamətlərinin gələcəyi gün, əvvəlcədən iman gətirməmiş və ya imanından bir xeyir qazanmamış kimsəyə artıq imanı fayda verməyəcək. De: “Gözləyin! Şübhəsiz, biz də gözləyirik”. (Ənam surəsi, 158)

Onlar: “Ona (Məhəmmədə) Rəbbindən bir möcüzə nazil edilməli deyildimi?!” – deyirlər. De ki: “Qeyb yalnız Allaha məxsusdur. Ona görə də gözləyin! Şübhəsiz, mən də sizinlə birlikdə gözləyirəm”. (Yunis surəsi, 20)

Kafirlər: “Rəbbindən ona bir möcüzə endirilməli deyildimi?” – deyirlər. De ki: “Allah dilədiyi kimsəni (haqq yoldan) azdırar, Ona yönələn kimsəni də hidayətə (İslama) çatdırar”.

(Rad surəsi, 27)

De: “Əgər yer üzündəkilər arxayın gəzən mələklər olsaydı, əlbəttə, onlara peyğəmbər olaraq göydən bir mələk göndərərdik”. De: “Mənimlə aranızda şahid olaraq Allah yetər. Şübhəsiz ki, O, qullarından xəbərdardır, (onları) görür”. (İsra surəsi, 95-96)

Onlar: “Rəbbindən ona möcüzələr endirilməli deyildimi?” – dedilər. De ki: “Möcüzələr yalnız Allah dərgahındandır. Mən isə yalnız açıq-aşkar xəbərdar edənəm”. (Ənkəbut surəsi, 50)

## ELÇİNİ İSTİSMAR ETMƏKDƏ İTTİHAM EDƏNLƏR

Onlar (o peyğəmbərlər) Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yoluna tabe ol! De: “Bunun müqabilində sizdən bir əvəz istəmirəm. Bu (Quran), aləmlər üçün ancaq bir nəsihətdir”. (Ənam surəsi, 90)

De: “Mən sizdən heç bir əvəz istəmirəm, o sizin olsun. Mənim mükafatım yalnız Allaha aiddir. O, hər şeyə şahiddir”.

(Səba surəsi, 47)

## Elçini yalançı hesab edənlər

Əgər səni yalanlasalar, de: “Rəbbiniz geniş mərhəmət sahibidir. Onun verəcəyi əzab isə günahkar qövmdən dəf edilə bilməz”. (Ənam surəsi, 147)

Əgər səni yalanlasalar, de ki: “Mənim əməlim mənə, sizin əməliniz də sizə aiddir. Siz mənim etdiyim əməldən uzaqsınız, mən də sizin etdiyiniz əməllərdən uzağam!” (Yunis surəsi, 41)

## “Quranı elçi uydurdu” deyənlərə

Yoxsa onlar: “(Məhəmməd) onu özündən uydurdu!” – deyirlər? De ki: “Əgər haqlısınızsa, Allahdan başqa bacardığınız kimsələri (köməyə) çağırın və siz də ona bənzər bir surə gətirin!” (Yunis surəsi, 38)

Yoxsa onlar: “Quranı özündən uydurdu!” – deyirlər?! De ki: “Əgər doğru deyirsinizsə, siz də Allahdan başqa kimi bacarırsınızsa, köməyə çağırın və onun kimi on surə uydurub gətirin!” (Hud surəsi, 13)

Yoxsa onlar: “Onu özündən uydurdu!” – deyirlər?! De ki: “Əgər onu uydurmuşamsa, günahım mənə aiddir. Ancaq mən sizin işlədiyiniz günahlardan uzağam!” (Hud surəsi, 35)

De: “Əgər bu Qurana bənzər bir şey gətirmək üçün insanlar və cinlər bir yerə yığışsalar və bir-birinə dəstək olsalar, yenə də onun bənzərini gətirə bilməzlər”. (İsra surəsi, 88)

Yoxsa: “Onu özündən uydurmuşdur!” – deyirlər?! De: “Əgər onu özümdən uydurmuşamsa, onda Allahdan (gələcək əzaba qarşı) məni heç cür qoruya bilməzsiniz. O, sizin (Quran barəsində) etdiyiniz dedi-qoduları çox yaxşı bilir. Mənimlə sizin aranızda şahid olaraq Allah yetər. O, bağışlayandır, rəhmlidir”. De: “İlk peyğəmbər mən deyiləm. Onun (Allahın) mənə və sizə nə edəcəyini də bilmirəm. Mən yalnız mənə gələn vəhyə tabe oluram. Mən yalnız açıq-aşkar xəbərdarlıq edən bir peyğəmbərəm”. De: “Deyin görüm, əgər (bu Quran) Allah tərəfindən nazil olduğu halda siz onu inkar etsəniz, İsrail oğullarından da bir şahid onun bənzərini görüb iman gətirdiyi halda siz təkəbbürlənsəniz, zülm etmiş

olmazsınızmı? Şübhəsiz ki, Allah zalımları doğru yola yönəltməz”. (Əhqaf surəsi, 8-10)

## ŞİRK QOŞANLARA

Müşriklər: “Əgər Allah diləsəydi, biz də, atalarımız da müşrik olmazdıq və heç bir şeyi haram etməzdik”, - deyəcəklər. Onlardan əvvəlkilər də bu şəkildə (peyğəmbərləri) təkzib etmiş və sonunda əzabımızı dadmışdılar. De: “Yanınızda bizə göstərə biləcəyiniz bir bilgi (dəlil) varmı? Siz ancaq zənnə uyursunuz və yalan söyləyirsiniz”. (Ənam surəsi, 148)

Hər kəsin qazandığına nəzarət edən Allah (bütlər kimi olarmı)?! Yenə də onlar (bütləri) Allaha şərik qoşdular. De: “Onlara bir ad verin! Yoxsa Allaha yer üzündə bilmədiyi bir şeyimi xəbər verirsiniz, yaxud boş sözlərmi (söyləyirsiniz)? Əksinə, kafirlərə hiylələri gözəl göstərildi və onlar (haqq) yoldan döndərildilər. Allah kimi zəlalətə salmışsa, ona doğru yolu göstərən olmaz. (Rad surəsi, 33)

Onlar (insanları) Allahın yolundan azdırmaq üçün Ona şəriklər qoşdular. De ki: “(Dünya nemətlərindən) faydalanın! Şübhəsiz ki, sizin dönüş yeriniz cəhənnəmdir”.

(İbrahim surəsi, 30)

De: "Allahı qoyub dua etdiyiniz şəriklərinizi gördünüzmü?! Mənə göstərin görək, onlar torpaqdan nə yaradıblar? Yaxud göylərdə onların bir şərikliyimi var? Yoxsa Biz onlara (bu barədə) bir kitabmı vermişik və buna görə də onlar oradakı bir dəlilə əsaslanırlar? Xeyr! Zalımlar bir-birlərinə ancaq yalan şeylər vəd edirlər. (Fatir surəsi, 40)

İnsana bir zərər toxunduğu zaman Rəbbinə yönələrək Ona dua edər. Sonra Allah Öz tərəfindən ona bir nemət versə, daha əvvəl dua etdiyini unudar və Allahın yolundan azdırmaq üçün Ona şəriklər qoşar. De: "Küfrünlə bir az kef çək. Şübhəsiz ki, sən cəhənnəm əhlindənsən!" (Zumər surəsi, 8)

## ŞÜBHƏ EDƏNLƏRƏ

De: "Ey insanlar! Əgər mənim dinimə şübhə edirsinizsə, bilin ki, mən Allahı qoyub sizin ibadət etdiklərinizə ibadət etmərəm. Lakin sizin canınızı alan Allaha ibadət edərəm. Mənə, iman gətirənlərdən olmağım əmr olunmuşdur. (Yunis surəsi, 104)

## İman gətirməyənlərə

İman gətirməyənlərə de: "Əlinizdən gələni edin, biz də (əlimizdən gələni) edəcəyik. Gözləyin! Biz də gözləyirik". (Hud surəsi, 121-122)

## Peyğəmbərliyi qəbul etməyənlərə

Kafirlər: "Sən peyğəmbər deyilsən", – deyirlər. De ki: "Allah və Kitabı bilənlər mənimlə sizin aranızda şahid olaraq kifayətdir". (Rad surəsi, 43)

## Yenidən dirilməyi yalan sayanlara

Bir də deyirlər ki: "Həqiqətən, biz sür-sümük olub çürüdükdən sonra yenidən dirildiləcəyikmi?" De: "İstər daş olun, istər dəmir, Yaxud da xəyalınızda böyütdüyünüz bir məxluq olun!" Onlar: "Kim bizi təkrar (həyata) qaytaracaqdır?" – deyəcəklər. De ki: "İlk dəfə sizi yaradan (Allah)!" Bu zaman onlar başlarını bulayaraq (istehza ilə) sənə belə deyəcəklər: "O nə vaxt olacaq?" De ki: "Ola bilsin ki, yaxın bir vaxtda olacaqdır! (İsra surəsi, 49-51)

O öz yaradılışını unudaraq Bizə qarşı bir misal çəkib: "Çürümüş sümükləri kim dirildəcək?!" – deyir. De ki: "Onları ilk dəfə yaradan dirildəcəkdir. O, hər cür yaratmağı yaxşı bilir". (Yasin surəsi, 78-79)

De: "Bəli, həm də siz zəlil olaraq dirildiləcəksiniz".

(Saffat surəsi, 18)

## Möminlərlə mübarizə aparanlara

Əgər səninlə mübahisə etsələr, de ki: "Allah sizin etdiyiniz əməlləri daha yaxşı bilir. Allah qiyamət günü ixtilafda olduğunuz məsələlər barəsində sizin aranızda hökm verəcəkdir". (Həcc surəsi, 68-69)

## Kafirlərə Allahın verəcəyi cəzanın bildirilməsi

De: "Allah yanında cəza etibarilə bundan (bu dediklərinizdən) daha pisini sizə xəbər verimmi? Allah kimə lənət etmiş, qəzəblənmiş, meymunlara və donuzlara döndərmiş, eləcə də

taģuta ibadət edənlərə çevirmişsə, onların yeri daha pisdir və onlar doğru yoldan daha çox azmışlar". (Maidə surəsi, 60)

## İNSANIN ƏZABININ DEYİLMƏSİ

De: "Əgər doğru danışırsınızsa, deyin görək, sizə Allahın əzabı gələr, yaxud qiyamət sizə gəlib çatarsa, Allahdan başqasınamı yalvaracaqsınız?" (Ənam surəsi, 40)

De: "Deyin görüm, əgər Allah eşitmə və görmə qabiliyyətinizi (əlinizdən) alsa və qəlblərinizə də möhür vursa, Allahdan başqa hansı ilah onları sizə geri gətirə bilər?" Bax gör, ayələri necə açıqlayırıq! Sonra onlar yenə (haqdan) üz çevirirlər. De: "Deyin görək, əgər Allahın əzabı sizə qəflətən və ya açıq-aşkar gələrsə, zalım qövmdən başqasımı məhv edilər?!" (Ənam surəsi, 47)

De: "Qurunun və dənizin qaranlıqlarından (təhlükələrindən) sizi kim xilas edir?" O zaman siz gizli-gizli yalvararaq: "Əgər bizi bundan xilas etsən, mütləq (Sənə) şükür edənlərdən olacağıq!" - deyə dua edirdiniz. De: "Allah sizi ondan da, hər cür çətinlikdən də xilas edər. Sonra siz (yenə Ona) şərik qoşursunuz?" De: "O (Allah), üstünüzdən (göydən) və ya ayaqlarınızın altından (yerdən) sizə əzab göndərməyə, yaxud sizin aranızı qarışdırıb bir-birinizə zərər verdirməyə

qadirdir". Bax, başa düşsünlər deyə, ayələri onlara necə açıqlayırıq! (Ənam surəsi, 63-65)

De: "Deyin görək, əgər Allah qiyamət gününə qədər sizi gecəyə qərq etsəydi, Allahdan başqa hansı ilah sizi aydınlığa çıxarardı? Hələ də (haqqı) eşitmirsinizmi?" De: "Deyin görək, əgər Allah qiyamət gününə qədər gündüzü sizin üçün daimi etsəydi, Allahdan başqa hansı ilah dincəldiyiniz gecəni sizə gətirəcəkdi? Hələ də (haqqı) görmürsünüzmü?"

(Qəsas surəsi, 71-72)

De: "Əgər Allah sizə pislik etmək istəsə, sizi Ondan kim qoruya bilər, yaxud O sizə mərhəmət etmək istəsə, (buna kim mane ola bilər)?" Onlar özləri üçün Allahdan başqa nə bir dost, nə də bir yardımçı tapa bilərlər. (Əhzab surəsi, 17)

De: "Həqiqətən, Rəbbim istədiyinin ruzisini artırar, istədiyinin ruzisini də azaldar. Lakin insanların çoxu bunu bilmir".

(Səba surəsi, 36)

# CƏHƏNNƏM ƏHLİNİN ÖZ ARALARINDAKI MÜBAHİSƏSİ

**Həqiqətən, cəhənnəm əhlinin bir-biri ilə olan bu çəkişməsi gerçəkdir. (Sad surəsi, 64)**

Quranda kafirlərin həyatına son qoyularkən böyük əzab çəkəcəklərindən xəbər verilir. Arxalarına və üzlərinə vurularaq canlarının çətinliklə çıxarılacağı, ölümün əzablı sarsıntılarını yaşayacaqları və mələklərin onları əbədi əzabla müjdələyəcəkləri ayələrdə bildirilmişdir. Bu vəziyyət ayələrdə belə ifadə edilir:

**Mələklər özlərinə zülm edənlərin canlarını alarkən dedilər: "Nə işlə məşğul idiniz?" Onlar dedilər: "Biz yer üzündə aciz idik". Mələklər dedilər: "Allahın yeri hicrət edəcəyiniz qədər geniş deyildimi?!" Onların sığınacaqları yer cəhənnəmdir. O necə də pis dönüş yeridir! Kişilər, qadınlar və uşaqlardan aciz olub heç bir çarə və hər hansı bir yol tapa bilməyənlər isə istisnadır. Ola bilsin ki, Allah onları bağışlasın. Allah əfv edəndir, bağışlayandır. (Nisa surəsi, 97-99)**

Buradan da anladığımız kimi, kafirlərin ölüm vaxtı özlərini zəif, çarəsiz və günahsız göstərmək səyləri nəticəsiz qalacaq. Bu, onları getdikcə artan ümidsizliyə və cəhənnəmin qorxunc olmasının yol açdığı dəhşətə sürükləyir. Bu səbəbdən bütün cəhənnəmlik insanlar ətrafındakıları "satmaqda", özünün

əzabdan qurtarmayacağını anladıqda dostlarının da eyni əzabı, hətta daha şiddətlisini çəkməsini istəyir. Quranda bu məsələ belə açıqlanır:

**...Hər tayfa girdikcə yoldaşlarına lənət oxuyacaqlar. Nəhayət, hamısı bir-biri ardınca orada toplandığı zaman sonradan gələnlər, daha əvvəl gələnlər barəsində: "Ey Rəbbimiz! Bizi bunlar sapdırdı. Ona görə də onlara ikiqat cəhənnəm əzabı ver!" – deyəcəklər. (Allah da): "Hər kəs üçün ikiqatı (əzab) vardır, lakin siz bilmirsiniz", – deyəcəkdir. (Əraf surəsi, 38)**

Cəhənnəmdə bu insanlar keçmişdə itaət etdikləri və onları yoldan çıxarmış "əfəndilərinə" və "böyüklərinə" Allahdan ikiqat böyük əzab və lənət istəyərlər. Aralarındakı birlik və həmrəylik, inananlara qarşı ortaq cəhd və əməkdaşlıq artıq əbədiyyən yox olmuşdur. Burada nə dostluq, nə də qohumluq əlaqəsi davam etməyəcək.

Quranın ifadəsi ilə desək, **"orada bir-biri ilə çəkişib mübahisə edərək"** belə deyərlər: **"...İndi artıq nə şəfaət edən kimsələrimiz, nə də bir mehriban dostumuz var!"** (Şuəra surəsi, 100-101). Əksinə, cəhənnəmliklər onları azdırmış dostlarını **"...onları ayaqlarımızın altına salıb cəhənnəmin dibinə göndərək..."** (Fussilət surəsi, 29) deyərlər. Bu qarışıq şəraitdə aralarındakı mübahisələr də bir-birini günahlandırmaqdan ibarətdir. Quranda belə deyilir:

**Kafirlər: "Biz nə bu Qurana, nə də ondan əvvəlkilərə inanacağıq!" – dedilər. Kaş o zalımları Rəbbinin hüzurunda dayandırıldıqları zaman bir-birlərinə söz qaytararkən görəydin. (Dünya həyatında) zəif olanlar təkəbbürlü**

**kimsələrə: "Əgər siz olmasaydınız, biz mömin olardıq!" – deyəcəklər. (Səba surəsi, 31)**

Başqa bir ayədə də belə deyilir:

**Onlar cəhənnəmdə bir-biri ilə mübahisə etdikləri zaman (dünyada ikən) aciz olanlar təkəbbürlənənlərə: "Biz sizin arxanızca gedirdik. İndi siz cəhənnəm əzabının bir hissəsini bizdən sovuşdura bilərsinizmi?" – deyəcəklər.**

**(Mömin surəsi, 47)**

Göründüyü kimi, cəhənnəm əhlinin arasındakı mübahisələr bir-birini günahlandırmaq, özlərini məsum, günahsız qəbul etdirmək və başlarına gələn bu qorxunc aqibətin tək səbəbi kimi qarşısındakını göstərmə şəklində olur. Dünya həyatında Allahı və dini inkar edib Qurana inanmamaqda "inadkarlıq" edərkən, cəhənnəmə girəndə **"... əgər sizlər olmasaydınız, bizlər möminlər olardıq"** (Səba surəsi, 31) demələri, sahib olduqları ikiüzlü və bəsit xarakteri açıq şəkildə ortaya qoyur.

Burada diqqət çəkən bir məqam daha var: Bu insanlar hər nə qədər mömin olmayıb və azğın xarakterə sahib olsa da, onları yoldan çıxarmaq üçün xüsusi səy göstərən, planlar quran bəzi insanlar da var. "Səba" surəsinin 33-cü ayəsində cəhənnəmdəkilərin mübahisələrindən danışarkən belə bir dialoq diqqət çəkir:

**Zəiflər də təkəbbürlənənlərə: “Əksinə, siz gecə-gündüz hiylə qururdunuz. O zaman bizə Allahı inkar etməyimizi və Ona şəriklər qoşmağımızı əmr edirdiniz”, - deyəcəklər...**

**(Səba surəsi, 33)**

“Saffat” surəsinin 28-ci ayəsinə görə də cəhənnəmliklər azdıranlara **“Həqiqətən, siz bizə sağ tərəfdən gəlirdiniz (özünüzü haqlı göstərirdiniz)”** deyəcəklər. Bəs kimdir bu planları quranlar və insanları Allahın doğru yolundan azdırmağa çalışanlar? Bunlar şübhəsiz ki, “**şeytanın firqəsidir**”.

# QURANDA DANIŞIQ ƏDƏBİ

Əvvəl də bildirdiyimiz kimi, möminlər üçün qarşılıqlı söhbət və bu söhbət əsnasında Allahın xatırlanması çox önəmli ibadətdir. Qarşılıqlı sevgi və hörmətə dayanan bir şəraitdə səviyyəli danışıq üslubu ilə imani mövzulardakı düşüncələrini bir-birinə anladır, ayələri birlikdə oxuyub düşünürlər. Üslubda sevgi və hörmətin gözlənilməsi çox mühümdür. Həmçinin, Allah; **"Qullarıma de ki, sözün ən gözəlini söyləsinlər. Həqiqətən, şeytan onların arasına fitnə salar. Şübhəsiz ki, şeytan insanın açıq-aşkar düşmənidir."** (İsra surəsi, 53) əmri ilə bu üslubun qorunmasını hökmə bağlayır. "Zumər" surəsinin 18-ci ayəsində isə Allahın doğru yola çəkdiyi insanların, yəni təmiz ağıl sahiblərinin **"sözü dinləyib onun ən gözəlinə uyduqlarını"** bildirmişdir.

Möminlərin yaşadığı evlər barədə Allah; **"Allahın isminin ucaldılmasına və zikr edilməsinə izn verdiyi yerlər"** deyilir. Möminlər **"orada səhər-axşam Onu təbliğ edib şəninə təriflər deyərlər"** (Nuh surəsi, 36). Məhz bu evlərdə iman gətirənlər qarşılıqlı söhbət edir və Allahı anırlar. Üstəlik "Ənfal" surəsinin 2-ci ayəsində deyildiyi kimi, onların **"Allah adı çəkiləndə qəlbi qorxudan titrəyər"**. Bu səbəbdəndir ki, möminlərin Allahı anlaması bəsit bir söhbət deyil, çox səmimi, hər kəlməsi hikmətli, Quran ayələrindən nümunələrlə bəzədilmiş ixlaslı söhbətlərdir.

Həqiqətdə möminlər dünyada da cənnət mühitini mümkün olduğu qədər yaşatmağa çalışırlar. Bu məqsədlə yaşadıqları evlər əslində orada cənnətdəkilərinin bənzəri olan söhbətlər edilən, sevincli söhbətlərin olduğu, eyni zamanda Allahın ayələrinin oxunduğu, hikmətinin danışıldığı yerlərdir. Quranda ətraflı təsvir edilmiş cənnət söhbəti üzbəüz taxtlar üzərində əyləşməklə aparılır. Möminlər orada Allahı anarlar, mənasız və boş danışıq

olmaz. Bütün möminlər onlara mərhəmət göstərən və bağışlayan Allaha şükür edərlər.

Cənnətdəki söhbətin və zikrin oxşarı əlbəttə, dünyada da möminlər arasında həyata keçir. Həmçinin Qurana görə, möminlər üçün ən böyük ibadət Allahı zikr etməkdir. Bunun məkanı və vaxtı yoxdur, möminlərin arasında hər şəraitdə Allahın xatırlandığı söhbətlər gedə bilər. Bu məsələ Quranda belə anladılır:

**Onlar ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlayar, göylərin və yerin yaradılması haqqında düşünərlər (və belə deyərlər:) "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan. Sən pak və müqəddəssən! Bizi cəhənnəm əzabından qoru! (Ali İmran surəsi, 191)**

Möminlərin söhbətləri bir-birindən çox fərqli mövzularda ola bilər, nəticədə hər danışıq, hər söhbət mütləq Allaha bağlandığı üçün möminin söhbətində "mənasız danışıq" olmaz. Allahdan bəhs edilməyən, nəticəsinin Allaha bağlanmayan bir söhbət insanı darıxdıran boş bir söhbətə çevrilər. Buna görə də möminlər gözəl və estetik bir ev görəndə bu haqda söhbət edərlər, çünki gözəl və estetik evlər cənnət nemətlərindəndir. Bu mövzuda söhbət etmək möminin şövqünü və cənnətə olan istəyini gücləndirər. Mühüm olan isə bu evin dünyanın müvəqqəti nemətlərindən olduğunu, yox olmağa məhkum olduğunu, Allahın bu görüntünü möminləri sınamaq məqsədi ilə yaratdığını unutmamaqdır. Çünki inkarçılar da belə bir ev haqqında saatlarla danışa bilərlər. Möminlə onların fərqi bütün danışıqlarında Allahı xatırlamasıdır. Çünki **"qəlbi yalnız Allahı zikr etməklə rahatlıq tapar"** (Rad surəsi, 28).

Allah möminlərə xas xüsusiyyətləri sayarkən **"nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən... yayındırmaz"** (Nur surəsi, 37) demişdir. Tək

olanda da, iki nəfərlə və ya cəmiyyət içində də Allahı zikr etmək olar. Şübhəsiz ki, insanın tək zikr etməsi çox mühümdür. Çünki onun ruhundakı bu dəyişiklik hərəkətlərinə təsir edəcəkdir. Beləliklə də mömin Allah ilə olan yaxınlığını heç vaxt itirməyərək qarşısına çıxan sınaqları asanlıqla aşacaq, etdiyi bütün hərəkətləri savab qazanma niyyəti ilə edəcəkdir.

## Söhbət ədəbi

İnsanların fikirləri, qarşı tərəfə olan sevgi və hörmətləri ən çox söhbətlərinə əks olunar. Buna görə də, əhəmiyyətli olan, İslam əxlaqının gərəyi olan söhbət ədəbinə uyğun davranışla, hər kəsin söhbətdən istifadə etməsini təmin etməkdir.

## Çoxbilmiş kimi özünü göstərməmək

Söhbət edərkən narahat edən mövzular meydana gətirən davranışlardan biri çoxbilmişlik etməkdir. Çoxbilmiş kimi özünü göstərmək; həmişə öz doğrularını önə çıxararaq, hörmətsiz üslubla danışmaqdır. Belə bir üslubla danışan insanlar, düşündüklərinin əksinə qarşı tərəfdə son dərəcə uzaqlaşdırıcı təəssürat oyandırarlar.

## Başqalarına da danışma haqqı vermək

Danışan bir adamı sözünü kəsmədən, nəzakətlə sonuna qədər dinləmək, dediklərini anlamağa çalışmaq Allahın razılığını qazandıracağı ümid edilən gözəl rəftarlardan biridir. Bu rəftar, natiqə və söylədiklərinə qarşı hörmətin bir

göstəricisidir. Ancaq "məcbur edici şəkildə, həmişə vurğulu tonda danışanlar hörmətli, əla insanlardır" məntiqi də olduqca səhvdir. Əksinə səsini yüksəldərək, başqasının sözünü kəsən, yanındakılara danışma haqqı tanımayan insanların bu davranışı, cəhalətlərinin göstəricisidir. Bir müddət sonra yanındakılara danışma haqqı verməyən və onları susduran bir adamla danışmaq, söhbətdən daha çox əziyyətə çevrilə bilər. Həmin anda yanındakıların susması isə, o adamı dinlədiklərinin və əhəmiyyət verdiklərinin deyil, ümumiyyətlə artıq bu mərhələdən sonra ona dözdüklərinin bir göstəricisidir.

Professionallıq tələb edən mövzularda, mütəxəssis adamın danışması təbii ki, çox normaldır. Ancaq şəxsi qənaət və fikir bildirilən mövzularda söhbətə hər kəs qatılmalı, hər kəs öz fikrini ifadə etməlidir. Bu şəkildə hər kəsin qənaəti öyrənilər, şəxsiyyəti haqqında fikir əldə etmə imkanı meydana gələr. "Məndən az bilir, buna görə də, danışmasın" ya da "ancaq bilənlər danışsın" şəklindəki düşüncə şəkilləri son dərəcə səhvdir. Bəlkə bir adam digərinə görə daha az şey bilir, amma Allahın lütf etdiyi hikmət sayəsində hadisələrin daha çox bilinməyən, dolaşıq tərəflərini fərq etmiş ola bilər. Mövzuya bütün detalları ilə hakim olan adam isə, bəlkə detallarda boğulmuş və o mövzunun hikmətli tərəflərini görə bilməmiş ola bilər. Buna görə də, çıxışa qatılan hər adamın öz fikrini bəyan etməsi, ortaya yeni fikirlərin və fərqli dünyagörüşlərinin çıxması baxımından çox əhəmiyyətlidir.

## Nəfsini ön plana çıxardacaq sözlərdən qaçmaq

Bir çox söhbət mühitində insanların danışana qulaq asmamaları, bir-birlərinin sözünü dinləməmələri, eyni anda müzakirə edərək danışmaları alışılmış davranışlardır. Xüsusilə televiziya efirində bəzi müzakirə proqramlarında bunun nümunələrinə tez-tez rast gəlmək olar. Hər biri öz sahəsində mütəxəssisləşmiş kəslər belə bəzən nəzakətdən və hörmətdən tamamilə uzaq bir üslub sərgiləyə bilməkdədirlər. Bu cür insanlar, bir-birlərinin izah etdiklərindən istifadə etmək yerinə, qürurlu bir üslubla öz sözlərini dinlədib qəbul etdirməyə çalışarlar.

Müsəlmanların isə özlərini ön plana çıxarmaq, önə keçib üstə çıxmaq, son sözü demək kimi eqoist məqsədləri yoxdur. Buna görə də, üslubları etidallı və sakitdir. Quran əxlaqından qaynaqlanan nəzakət anlayışları ilə prioriteti hər zaman bir-birlərinə tanıyar, bir-birlərinin izah etdiklərindən ən yaxşı şəkildə istifadə etməyə çalışarlar.

## Gərəksiz danışmaqdan qaçmaq

Bəzi natiqlər bəzən sırf bir mövzuda nə qədər dərin məlumata sahib olduqlarını ortaya qoya bilmək üçün, dinləyənlərin heç bir şəkildə işinə yaramayacaq bir çox gərəksiz çıxış edərlər. Bəzən də qısa bir neçə cümlə ilə izah edə biləcəkləri bir mövzunu, iki-üç saatlıq çıxışın içində boğarlar. Bu cür çıxış qarşıdakı adamın qəlbində istənən təsiri oyandırmadığı kimi, eyni zamanda da onu sıxar. Heç kim belə insanları dinləməyi sevməz.

Sözü uzadaraq qarşı tərəfdə narahatlıq yaratmamaq, çıxış əsnasında çox diqqət yetiriləcək əsas məqamların başında gəlməkdədir. Xüsusilə də tək bir adamın söz alıb, dayanmadan danışması, digər insanlara söz verməyərək çıxışı tək şəxsiyyət konfransına çevirməsi, müsəlmanların səmimi danışıq ədəblərinə uyğun gəlməyən davranışdır. Halbuki iman edən insan, bir mövzunu mümkün olan ən açıq və aydın, ən köklü, təsir edici və qarşı tərəfə fayda verəcək üslub ilə izah edər. Çıxışında həmişə hikmətin əsas olduğunu bilərək hərəkət edər.

## Uzun cümlələrdən, təkrarlardan qaçmaq

Bundan əlavə çıxış edərkən çox uzun cümlələr qurmaq da qarşı tərəfi narahat edər. Ədəbin, danışma arasında boşluq buraxaraq, qarşı tərəfin əgər varsa fikrinin alınması şəklində olması lazımdır. Sözü alan adamın da eyni şəkildə cümləları

təkrarlamadan, uzun danışmamağa diqqət yetirməsi əhəmiyyətlidir. Birinin demək istədiyi bir sözü varkən mövzunu dəyişdirib başqa mövzuya keçməməyi, qarşıdakı insanı onun üzünə baxaraq dinləməsi, vaxtı olmayan, gedəcək birini dinləmək məcburiyyətində qalmaması lazımdır.

## MÜLAYİM SƏS TONU İSTİFADƏ ETMƏK

Söhbət əsnasında edilən vacib səhvlərdən biri də, istifadə edilən səs tonudur. Bəzi insanlar özlərini haqlı göstərmək, qarşı tərəfi qorxutmaq, razı salmaq və ya susdurub önə çıxmaq üçün yüksək səs tonu ilə danışarlar. Halbuki müsəlmanların səs tonu mülayimdir. Allah Quranda bu mövzunu möminlərə, Hz. Loğmanın (ə.s) oğluna verdiyi öyüdü bildirərək xatırlatmışdır:

> **Yerişində mötədil ol və səsini alçalt! Şübhəsiz, səslərin ən çirkini uzunqulaqların səsidir. (Loğman surəsi, 19)**

## TƏMKİNLİ, NƏZAKƏTLİ VƏ HÖRMƏTLİ ÜSLUBDAN İSTİFADƏ ETMƏK

Möminlər gözəl əxlaqın tələbi olaraq danışıqlarında son dərəcə "təmkinli və hörmətli üslub istifadə edərlər". Qarşılarındakı adamın yaşı, mədəniyyət səviyyəsi, zəka ya da ağıl səviyyəsi, varlı ya da kasıb olması onların bu üslubunu dəyişdirməz. Rəbbimizin Quranda bildirdiyi **"...Hər elm sahibinin üstündə daha yaxşı bilən biri vardır."** (Yusif surəsi, 76) ayəsindəki kimi təvazökar və qarşılarındakı insanların düşüncələrinə dəyər verərlər.

## DİN VƏ DİNİ MENTALİTETLƏ ƏLAQƏDAR DANIŞARKƏN

Söhbət əsnasında diqqət edilməyən ən dəhşətli səhvlərdən biri də din və dini mentalitetlə əlaqədar edilən zarafatlar, lağlağı danışıqlardır. Əgər söhbət əsnasında kimsə bu şəkildə danışarsa, o adamın sözü dərhal kəsilməli, hörmətə uyğun olmayan bu zarafatın səhvi bu adama izah edilməli və xəbərdar edilməlidir. Belə bir zarafat ya da lağlağı sözlər qarşısında gülmək, eyni səhvə ortaq olmaq mənasını verəcəyi üçün, bütün müsəlmanlar belə bir hərəkətə dərhal etiraz etməli, bu narahatlığı çox açıq və qəti formada ifadə etməlidirlər. Allah Nisa surəsində iman edənlərə bu şəkildə əmr edir:

**(Allah) Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onların (ayələrin) ələ salındığını eşitdiyiniz zaman, onlar (kafirlər) bundan başqa bir sözə (mövzuya) keçənə qədər onlarla birlikdə oturmayın! Yoxsa siz də onlar kimi olarsınız. Şübhəsiz ki, Allah münafiqləri və kafirləri cəhənnəmdə bir yerə toplayacaqdır. (Nisa surəsi, 140)**

Din və dini mentalitet ilə əlaqədar zarafatlar etmək, yenə bu mövzuda lətifələri istifadə edərək nalayiq danışmaq, cənnət və cəhənnəm ilə əlaqədar lətifələr demək bir növ dinsizlik təbliğatıdır. Və bütün müsəlmanlar da belə səhvə ortaq olmaqdan qəti şəkildə uzaq olmalıdırlar. Allah Quran ayələrində ancaq iman etməyən insanların din və dini mentalitet ilə lağ etdiklərini bildirməkdədir:

**Əgər onlardan (nə üçün istehza etdiklərini) soruşsan: “Sadəcə olaraq başımız söhbətə qarışıb zarafatlaşırdıq”, – deyərlər. De ki: “Allaha, Onun ayələrinə və Peyğəmbərinəmi istehza edirsiniz? (Tövbə surəsi, 65)**

Elə buna görə də, müsəlmanlar bu cür üsluba diqqət etdikləri kimi, hörmətə uyğun olmayan üslubdan istifadə edənlərə də, ən açıq şəkildə etiraz etməli, narahat olduqlarını dilə gətirməli və onları səmimiyyətlə xəbərdar etməlidirlər. Çünki Quran əxlaqına uyğun olan davranış budur.

## ƏN GÖZƏL QARŞILIĞI VERMƏK

Möminlər Quran əxlaqını, Allahın razılığını qazana bilmək üçün yaşayarlar. Qarşılarındakı insanları müstəqil varlıq olaraq düşünüb, hər birinə ayrı formada yaxınlaşsalar, Quran əxlaqını lazımi şəkildə yaşaya bilməyəcəklərini bilirlər. Buna görə də, qarşılaşdıqları hər insanın, dünya həyatında Allahın onlar üçün yaratdığı imtahanın bir parçası olduğunu və İslam əxlaqını təmsil etməyi dərk edərək hərəkət edərlər. Hər insanın sözünə ən gözəl şəkildə cavab verməyə çalışarlar. Quranda möminlərin bu əxlaqı belə bildirilmişdir:

**Sizə salam verilən zaman, siz ondan daha gözəl bir şəkildə və ya eynisi ilə salama cavab verin! Şübhəsiz ki, Allah hər şeyin haqq-hesabını çəkəndir. (Nisa surəsi, 86)**

Uca Rəbbimizin Quran ayələri və Peyğəmbərimiz (s) vasitəsilə bildirdiyi danışıq ədəbi, insanlara həm bu dünyada, həm də axirətdə saysız gözəllik qazandıracaqdır. Bu Quran ayələrində belə bildirilər:

**Allahın, gözəl bir sözü, kökü (yerdə) sabit duran, budaqları isə göydə olan gözəl bir ağaca bənzədərək necə bir misal**

çəkdiyini görmədinmi?! O (ağac), Rəbbinin izni ilə hər zaman bar verər. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alalar. (İbrahim surəsi, 24-25)

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə ortaya atılmış, ancaq heç bir müvəffəqiyyət qazana bilməmiş elmdən uzaq bir sayıqlamadan başqa bir şey deyil. Canlı aləmin cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə elmin kainatda və canlılarda çox açıq bir "nizam" olmasını sübut etməsi ilə çürümüşdür. Beləliklə, bütün kainatın və canlıların Allah tərəfindən yaradılması həqiqəti elm tərəfindən də sübut olunmuşdur. Təkamül nəzəriyyəsini ayaqda saxlaya bilmək üçün bu gün bütün dünyada aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, bu həqiqətlərin birtərəfli şəkildə izah olunmasına, elm görüntüsü altında deyilən yalanlara və yol verilən saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat da həqiqəti ört-basdır edib gizlədə bilmir. Təkamül nəzəriyyəsinin elm tarixindəki ən böyük yalan olması faktı son 20-30 ildə elm dünyasında getdikcə daha yüksək səslə dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinistlərin iddialarının tamamilə yanlış olduğunu ortaya qoymuş və bu həqiqət bir xeyli alim tərəfindən qeyd edilmişdir. Ələlxüsus da ABŞ-da biologiya, biokimya, paleontologiya kimi müxtəlif elm sahələrində çalışan alimlər darvinizmin artıq öz qüvvəsini itirdiyini görür, canlıların mənşəyini artıq "idraki nizam" (intelligent design) qavramı əsasında açıqlayırlar. Bəhs edilən "idraki nizam" bütün canlıların Allah tərəfindən yaradılmasının elmi cəhətdən sübut olunmuş bir dəlilidir.

Təkamül nəzəriyyəsinin süqutunu və yaradılışın dəlillərini başqa əksər çalışmalarımızda bütün elmi təfərrüatları ilə qeyd etdik və qeyd etməyə davam edirik. Ancaq bu məsələ çox əhəmiyyətli olduğu üçün burada da bir çox məsələləri xülasə etmək zəruri və faydalıdır.

## DARVİNİ YIXAN ÇƏTİNLİKLƏR

Təkamül nəzəriyyəsi tarixi kökləri qədim Yunanıstana qədər gedib çıxan bir təlim olsa da o, yalnız XIX əsrdə əhatəli şəkildə ortaya çıxdı. Nəzəriyyəni elm dünyasının gündəminə salan ən mühüm hadisə Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Cinslərin mənşəyi" adlı kitabı oldu. Darvin bu kitabda canlıların müxtəlif növlərinin Allah tərəfindən ayrı-ayrılıqda yaradılması həqiqətinə qarşı çıxırdı. Darvinə görə, bütün cinslər müştərək bir atadan gəlirdi və onlar zaman ötdükcə kiçik dəyişikliklər sayəsində bir-birindən fərqlənmişdilər.

Darvinin nəzəriyyəsinin heç bir maddi dəlili yox idi. O, özü də bunu qəbul edirdi ki, bu nəzəriyyə yalnız "ortaya atılan məntiq fikir" idi. Hətta Darvinin öz kitabındakı "Nəzəriyyənin çətinlikləri" başlıqlı geniş hissədə də etiraf etdiyi kimi, bu nəzəriyyə bir çox mühüm sual qarşısında aciz qalırdı.

Darvin belə zənn edirdi ki, onun nəzəriyyəsinin qarşısında dayanan çətinliklər elmin inkişafı ilə aradan qaldırılacaq, yəni elmi kəşflər bu nəzəriyyənin elmi əsaslarını gücləndirəcək. O, bunu kitabının çox yerində bildirmişdi. Ancaq durmadan inkişaf edən elm Darvinin bu ümidlərinin tam əksinə olaraq həmin nəzəriyyənin başlıca müddəalarını bir-birinin ardınca sarsıdırdı.

Darvinizmin elm qarşısındakı məğlubiyyəti üç əsas başlıqda incələnə bilər:

1) **Bu nəzəriyyə həyatın Yer üzündə ilk dəfə necə ortaya çıxdığını heç cür açıqlaya bilmir.**

2) **Darvinizm nəzəriyyəsinin ortaya atdığı "təkamül mexanizmləri"nin həqiqətdə təkmilləşdirici təsirə malik olduğunu göstərən heç bir elmi sübut yoxdur.**

3) **Daşlaşmış bitki qalıqları və torf qatları təkamül nəzəriyyəsinin irəli sürdüyü proqnozların tam əksini ortaya çıxarır.**

Bu bölümdə bu əsas müddəaları onların mahiyyəti baxımından incələyəcəyik.

## KEÇİLƏ BİLMƏYƏN İLK PİLLƏ: HƏYATIN MƏNŞƏYİ

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin ibtidai dünyada təxminən 3, 8 milyard il əvvəl meydana çıxan yeganə bir canlı hüceyrədən əmələ gəldiyini iddia edir. Tək hüceyrənin milyonlarla kompleks canlı növünü necə meydana gətirməsi və belə bir təkamül əgər həqiqətən də olubsa, bunun izlərinin daşlaşmış bitki qalıqlarında, torf qatlarında niyə tapılmaması darvinizm nəzəriyyəsinin cavablandıra bilmədiyi suallardır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül mərhələsinin ilk pilləsində dayanmaq lazımdır: bəhs edilən o "ilk hüceyrə" necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı rədd etdiyi və heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün "ilk hüceyrə"nin heç bir plan və nizam-intizam olmadan, təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə görə, cansız maddə təsadüflər nəticəsində ortaya canlı bir hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən əsas bioloji qanunlara zidd iddiadır.

## "Həyat həyatdan gəlir"

Darvin öz kitabında həyatın mənbəyi barədə heç nə qeyd etməyib. Çünki onun dövründəki ibtidai elm canlıların çox sadə bir quruluşa malik olduğunu güman və iddia edirdi. Orta əsrlərdən bəri böyük etimad bəslənən və "spontan generasiya" adlanan nəzəriyyənin tərəfdarları cansız maddələrin təsadüfən bir yerə yığışıb canlı bir varlıq meydana gətirməsinə inanırdı. Bu dövrdə böcəklərin yemək qalıqlarından, siçanların isə buğdadan əmələ gəldiyinə şübhə etmirdilər. Bunu isbat etmək üçün hətta qəribə təcrübələr də aparmışdılar. Çirkli bir parçanın üstünə bir az buğda qoyulmuş, bir qədər gözləyərlərsə, bu çulğaşmadan siçanların meydana gələcəyi zənn edilmişdi.

Çiy ətin qurd salması da həyatın cansız maddələrdən meydana gəlməsinə dəlil sayılırdı. Halbuki daha sonralar məlum olacaqdı ki, ətin üstündə yaranan qurdlar öz-özünə meydana gəlmir, milçəklərin gətirib ora qoyduğu gözlə görünməyən sürfələrdən çıxırlar.

Darvin özünün "Cinslərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə elm dünyası belə hesab edirdi ki, bakteriyalar cansız maddədən meydana gəlir. Halbuki məşhur fransız bioloqu Luis Paster təkamülün əsası olan bu inancı Darvinin kitabının nəşr edilməsindən beş il sonra qəti olaraq rədd etdi. Paster apardığı çalışma və təcrübələrdən sonra gəldiyi nəticəni belə xülasə edirdi: "Cansız maddələrin həyat əmələ gətirməsinə dair iddia daha qəti olaraq tarixin arxivinə verilmişdir" (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, Marcel Dekker, New York, 1977, səh. 2).

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin gəldiyi nəticələrə qarşı uzun müddət mübarizə apardılar. Ancaq inkişaf edən elm canlı hüceyrənin mqəlbkəb quruluşunu ortaya çıxarandan sonra həyatın öz-özünə meydana gəlməsi iddiasının çürüklüyü bir daha və qəti şəkildə aydın oldu.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusu ilə bağlı proseslərin önündə gedən ilk təkamülçü məşhur rus bioloqu Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrənin təsadüfən meydana gələ biləcəyini isbat etməyə çalışdı. Ancaq onun bu axtarışların nəticəsiz qaldı. Oparin bunu etiraf etməyə məcbur oldu: "Təəssüf ki, hüceyrənin mənşəyi problemi təkamül nəzəriyyəsini bütövlükdə əhatə edən ən qaranlıq məsələni təşkil edir" (Alexander I. Orarin, Origin of Life, Dover Publications, New Uork, (1936), 1953 (rerrint), səh. 196).

Oparinin arxasınca gedən təkamülçülər həyatın mənşəyi mövzusunu bir yerə çıxara bilmək üçün təcrübələr aparmağa səy göstərdilər. Bu təcrübələrin ən məşhuru amerikalı kimyagər Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. S. Miller ibtidai dünyanın atmosferində olduğunu iddia etdiyi qazları bir təcrübə vasitəsilə birləşdirərək və bu reaksiyaya enerji əlavə edərək proteinlərin tərkibindəki bir neçə üzvi molekulu (aminoasit) sintez etdi. Həmin illərdə əhəmiyyətli bir mərhələ kimi təqdim olunan bu təcrübənin nəticəsiz qalması və təcrübədə istifadə edilən atmosferin həqiqi dünya atmosferindən çox fərqli olması gələcək illərdə ortaya çıxacaqdı ("New Evidence on Evolution of Early Atmosrhere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasgm 1982, ss. 1328-1330).

Uzun müddət davam edən bu səssizlikdən sonra Millerin özü də istifadə elədiyi atmosferin həqiqi olmadığını etiraf etdi (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7).

Həyatın mənşəyi məsələsini açıqlamaq üçün təkamülçülərin XX əsrdə apardığı bütün səylər nəticəsiz qaldı. San Dieqo Skripps institutundan olan tanınmış geokimyaçı Ceffri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə nəşr edilən bir məqalədə bu həqiqəti belə qəbul edir: "Bu gün XX əsri arxada

qoyarkən hələ XX əsrə daxil olanda malik olduğumuz ən böyük həllini tapmamış problemlə qarşı-qarşıyayıq: həyat Yer üzündə necə başladı?" (Jeffrey Bada, Earth, Cubat 1998, səh. 40).

## HƏYATIN KOMPLEKS QURULUŞU

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi mövzusunda çox ciddi çətinliyə düşməsinin əsas səbəbi ən sadə hesab edilən canlı orqanizmlərin inanılmayacaq dərəcədə qarmaqarışıq quruluşa malik olmasıdır. Canlı varlığın hüceyrəsi insan övladının düzəltdiyi texniki məhsullardan daha mqəlbkəbdir. Belə ki, bu gün dünyanın ən inkişaf etmiş laboratoriyalarında da cansız maddələri bir yerə yığaraq canlı hüceyrə əldə etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazım olan şərtlər heç vaxt təsadüflərlə izah edilməyəcək qədər çoxdur. Hüceyrənin əsaslarından biri olan proteinlərin təsadüfi olaraq tezləşmə ehtimalı isə 500 aminoasitlik yuvarlaq bir protein üçün 10. 950-də 1-dir. Ancaq riyaziyyatda 10. 50-də 1-dən aşağı olanlar "imkansız" sayılır. Hüceyrənin nüvəsində yerləşən və özündə genetik bilgini gizlədən DNT molekulu isə inanılmaz bir məlumat bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi məlumatın əgər kağıza köçürülməyə çalışılsa, 500 səhifədən ibarət olan 900 cildlik bir kitabxananın meydana gələcəyi hesablanır. Bu nöqtədə çox maraqlı bir dilemma da var: DNT ancaq bəzi xüsusiləşmiş proteinlərin köməyi ilə cütləşə bilir. Ancaq bu proteinlərin sintezi də ancaq DNT-dəki məlumatlara uyğun olaraq həyata keçir. Bir-birinə bağlı olduqlarına görə cütləşmənin meydana gələ bilməsi üçün onların ikisinin də eyni anda mövcud olması lazımdır. Bu isə həyatın özü-özündən meydana gəlməsi barədəki ssenarini çətinliyə salır. San Dieqo Kaliforniya Universitetindən məşhur təkamülçü alim, professor Lesli Orgel (Leslie Orgel)

“Scientific American” jurnalının 1994-cü ilin oktyabr ayındakı sayında bu həqiqəti belə etiraf edir:

“Son dərəcə kompleks quruluşlara sahib olan proteinlərin və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni vaxtda təsadüf nəticəsində əmələ gəlməsi hətta ehtimaldan da həddindən artıq uzaqdır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Dolayısı ilə insan həyatın kimyəvi yollarla ortaya çıxmasının heç vaxt mümkün olmaması nəticəsinə gəlmək məcburiyyətində qalır” (Leslie E. Orgel, “The Origin of Life on Earth”, Scientific American, c. 271, Oktyabr 1994, səh. 78).

Şübhəsiz ki, əgər həyatın təsadüflərlə ortaya çıxmasının qeyri-mümkünlüyü təsdiqlənirsə, bu vəziyyətdə onun fövqəltəbii şəkildə yaradıldığını qəbul etmək lazımdır. Bu həqiqət isə əsas məqsədi yaradılışı rədd etmək olan təkamül nəzəriyyəsinin açıq-aşkar mənasızlığını ortaya çıxarır.

## TƏKAMÜLÜN XƏYALİ MEXANİZMLƏRİ

Darvinizm nəzəriyyəsini puç edən başqa ikinci böyük məsələ bu nəzəriyyənin “təkamül mexanizmləri” kimi ortaya atdığı iki anlayışın da əsl həqiqətdə heç bir təkmilləşdirici gücə malik olmamasının sübuta yetirilməsidir. Darvin ortaya atdığı təkamül iddiasını tam şəkildə “təbii seleksiya” mexanizminə bağlamışdı. Onun bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da görünürdü: “Cinslərin mənşəyi təbii seleksiya yolu ilə”.

Təbii seleksiya təbii seçmə deməkdir və təbiətdəki həyat mübarizəsində təbii şərtlərə uyğun olan güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən ürküdülən bir maral sürüsündə daha sürətli qaça bilənlər həyatda qalacaqlar. Beləliklə, maral sürüsü sürətlilərdən və güclülərdən meydana gəlməlidir. Ancaq bu mexanizm

maralları əlbəttə, təkmilləşdirməz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Dolayısı ilə təbii seleksiya mexanizmi heç bir təkmilləşdirici gücə malik deyil. Darvin də bu həqiqətin fərqində idi və "Cinslərin mənşəyi" kitabında "faydalı dəyişikliklər meydana gəlmədiyi vaxtda təbii seleksiya heç nə edə bilməz" demək məcburiyyətində qalmışdı (Charles Darwin, The Origin of Srecies: A Facsimile of the First Edition, Narvard University Press, 1964, səh. 189).

## LAMARKIN TƏSİRİ

Yaxşı, bəs bu "faydalı dəyişikliklər" necə meydana gəldi? Darvin öz dövrünün ibtidai elm anlayışı daxilində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloqu Lamarka görə, canlılar həyatı boyu məruz qaldıqları fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə ötürüləræk yığılan bu xüsusiyyətlər nəticəsində isə yeni cinslər meydana çıxır. Məsələn, Lamark deyirdi ki, zürafələr ceyranlardan əmələ gəliblər. Belə ki, hündür ağacların yarpaqlarını yemək üçün səy göstərərkən onların nəsildən-nəslə boyları uzanıb.

Darvin də buna oxşar misallar gətirmiş, məsələn, "Cinslərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların bir müddət sonra balinalara çevrildiyini iddia etmişdi (Charles Darwin, The Origin of Srecies: A Facsimile of the

First Edition, Narvard University Press, 1964, səh. 184).

Amma Mendel tərəfindən kəşf olunmuş və XX əsrdə inkişaf edən genetika elmi ilə öz qəti təsdiqini tapmış atavizm qanunları qazanılmış

xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini qəti olaraq darmadağın etdi. Beləliklə, təbii seleksiya bütünlüklə təsirsiz bir mexanizm olaraq qaldı.

## NEODARVİNİZM VƏ MUTASİYALAR

Darvinistlər isə bu vəziyyətə bir çözüm tapa bilmək üçün 1930-cu illərin axırlarında "Müasir sintetik nəzəriyyə"ni, daha məşhur adı ilə desək, neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seleksiya konsepsiyasına "faydalı dəyişikliklərin səbəbi" kimi mutasiyaları, yəni canlıların genlərinə radiasiya kimi xarici təsirlərin, ya da köçürmə səhvləri nəticəsində meydana gələn pozuntuları əlavə etdi.

Bu gün dünyada təkamül adına hələ də qəbul edilən model neodarvinizmdir. Nəzəriyyə Yer üzündə olan milyonlarla canlı növünün, bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız kompleks orqanlarının "mutasiyalara", yəni genetik pozuntulara əsaslanan bir mərhələ nəticəsində əmələ gəldiyini iddia edir. Ancaq nəzəriyyəni kəsərsiz edən açıq bir elmi həqiqət var: mutasiyalar canlıları inkişaf etdirməz, əksinə, onlara həmişə zərər verərlər.

Bunun səbəbi çox sadədir: DNT çox kompleks bir quruluşa malikdir. Bu molekul üzərində meydana gələn hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B. G. Ranganathan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir hallarda meydana gəlirlər və ən yaxşı ehtimalla təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamülçü bir inkişafa səbəb ola bilməyəcəyini göstərir. Onsuz da yüksək dərəcədə əlahiddələşmiş bir orqanizmdə meydana gələn təsadüfi bir hal ya təsirsiz olacaq, ya da zərərli. Bir qol saatında meydana gələcək təsadüfi dəyişiklik onu inkişaf etdirməyəcəkdir. Böyük ehtimalla ona zərər verəcək və

ya ən yaxşı ehtimalla təsirsiz qalacaq. Bir zəlzələ bir şəhəri inkişaf etdirməz, əksinə, onu dağıdar" (B. G. Ranganathan, Origins, The Banner Of Truth Trust, Pennsylvania, 1988).

Bu günə qədər heç bir faydalı mutasiya nümunəsi olmayıb. Bütün mutasiyaların zərərli olduğu müəyyənləşdi. Aydın oldu ki, təkamül nəzəriyyəsinin "təkamül mexanizmi" kimi göstərdiyi mutasiyalar həqiqətdə canlılara ancaq ziyan verən, onları şikəst edən bir genetik hadisədir. (İnsanlarda mutasiyanın ən çox görünən təsiri xərçəng xəstəliyidir). Əlbəttə, zərərverici bir mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seleksiya isə Darvinin də qəbul etdiyi kimi, "özbaşına heç nə edə bilməz". Bu həqiqət bizlərə təbiətdə heç bir "təkamül mexanizmi"nin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə isə təkamül deyilən xəyali mərhələ də ola bilməz.

## DAŞLAŞMIŞ QALIQLARDA KEÇİD FORMALARININ İZİ YOXDUR

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin baş verməməsinin ən açıq sübutu isə daşlaşmış bitki qalığı qatları, torf laylarıdır. Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birindən törəmişdir. İlk canlı növü vaxt keçəndən sonra başqa formaya çevrilmiş və bütün cinslər bu şəkildə ortaya çıxmışdır. Nəzəriyyəyə görə, bu dəyişiklik yüz milyon illər boyu sürərək mərhələ-mərhələ davam etmişdir.

Bu vəziyyətdə iddia edilən uzun dəyişiklik müddəti boyunca saysız-hesabsız "ara cinslər"in meydana gəldiyini və yaşadığını qəbul etmək lazımdır. Məsələn, keçmişdə özündə balıq xüsusiyyətlərinin olmasına baxmayaraq bir yandan da bəzi sürünənlərin xüsusiyyətlərini qazanmış yarı balıq-yarı sürünən canlılar yaşamış olmalı idi. Yaxud da sürünənlərin xüsusiyyətlərinə malik olarkən bir yandan da bəzi quş xüsusiyyətləri qazanmış

sürünən-quşlar ortaya çıxmalı idi. Ancaq onlar keçid mərhələsində olduqları üçün şikəst, nöqsanlı və qüsurlu canlılar olmalı idilər. Təkamülçülər keçmişdə yaşadıqlarına inandıqları bu nəzəri məxluqlara "ara keçid forması" adını verirlər.

Əgər həqiqətən keçmişdə bu cür canlılar yaşayıbsa, onda onların sayları və növləri milyonlarla, hətta milyardlarla olmalı idi. Və bu qəribə canlıların qalıqlarına mütləq daşlaşmış qalıqlarda, torf laylarında rast gəlinməli idi. Darvin "Cinslərin mənşəyi"ndə bunu belə açıqlamışdır: "Əgər nəzəriyyə düzdürsə, cinsləri bir-birinə bağlayan saysız ara keçid növləri mütləq yaşamalıdır... Bunların yaşamasına dair sübutlar da təkcə daşlaşmış bitki qalıqları qatları arasında tapıla bilər (Charles Darwin, The Origin of Srecies: A Facsimile of the First Edition, Narvard University Press, 1964, səh. 179.).

## DARVİNİN PUÇ OLAN ÜMİDLƏRİ

Ancaq XIX əsrin ortalarından bu yana dünyanın dörd bir tərəfində daşlaşmış qalıqlar tədqiq edilsə də həmin laylarda bu ara keçid formalarına heç vaxt rast gəlinməyib. Aparılmış qazıntı və araşdırmalar zamanı əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə olaraq göstərdi ki, canlılar Yer üzündə birdən-birə, nöqsansız və qüsursuz bir şəkildə ortaya çıxıblar.

Tanınmış ingilis paleontoloqu Derek U. Eger özü təkamülçü olsa da bu həqiqəti belə etiraf edir:

> **"Problemimiz budur ki, geoloji layları, daşlaşmış qatları bütün təfərrüatı ilə araşdıranda, istər cinslər, istərsə də**

**siniflər səviyyəsində olsun, davamlı olaraq həmişə eyni həqiqətlə qarşılaşırıq: mərhələli təkamüllə inkişaf edən yox, Yer kürəsində birdən-birə meydana gələn qruplar görürük (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)**

Yəni bütün canlı növləri daşlaşmış laylarda aralarında heç bir keçid forması olmadan, nöqsansız şəkildə ani olaraq ortaya çıxırlar. Bu isə Darvinin düşüncülərinin tam əksi və canlı növlərinin yaradıldığını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün özü-özündən təkmilləşməsinin, heç bir ata olmadan bir anda və qüsursuz olaraq ortaya çıxmasının yeganə izahı o cinsin yaradılmasıdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül hazırda yaşayan canlıların mənşəyi haqqında iki mümkün açıqlamalardır. Canlılar dünya üzərində ya tamamilə mükəmməl və nöqsansız bir şəkildə ortaya çıxmışdır, ya da belə olmamışdır. Əgər belə olmayıbsa, onda bir dəyişiklik mərhələsi sayəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərinin təkamülü yolu ilə meydana gəlməlidirlər. Amma onlar əgər qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxıblarsa, o halda sonsuz güc sahibi bir ağıl tərəfindən yaradılmalıdırlar (Douglas J. Futuyma, Science on Trial, Pantheon Books, New York, 1983, səh. 197).

Daşlaşmış qalıqlar da canlıların Yer üzündə qüsursuz və mükəmməl şəkildə ortaya çıxdığını göstərir. Yəni cinslərin mənşəyi Darvinin iddiasının əksinə olaraq təkamül deyil, yaradılışdır.

## İNSANIN TƏKAMÜLÜ NAĞILI

Təkamül nəzəriyyəsini müdafiə edənlərin ən çox gündəmə gətirdiyi məsələ insanın mənşəyi məsələsidir. Bu məsələdəki darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bəzi məxluqlardan əmələ gəldiyini bildirir. 4-5 milyon il bundan əvvəl başlandığı qəbul edilən bu mərhələdə müasir insanla onun əcdadları arasında bəzi "ara forma"ların yaşadığı iddia olunur. Həqiqətdə isə bütünlüklə xəyali olan bu ssenaridə dörd əsas "kateqoriya" sadalanır:

1) **Australopithecus**
2) **Homo habilis**
3) **Homo erectus**
4) **Homo sapiens.**

Təkamülçülər insanların guya ilk meymunabənzər əcdadlarına "cənub meymunu" mənasına gələn "australorithecus" adını verirlər. Bu canlılar həqiqətdə nəsli tükənmiş bir meymun cinsindən başqa bir şey deyil. İngiltərə və ABŞ-dan olan lord Soli Zakerman (Lord Solly Zuckerman) və prof. Çarlz Oksnerd (Charles Oxnard) kimi dünyanın iki məşhur anatomistinin australorithecus nümunələri üzərində apardıqları çox əhatəli çalışmalar bu canlıların yalnız nəsli kəsilmiş bir meymun cinsinə aid olmasını və onların insanlarla heç bir oxşarlığa malik olmadığını göstərmişdir (Solly Zuckerman, Beyond The Ivory Tower, Torlinger Publications, New York, 1970, ss. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389).

Təkamülçülər insan təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan olaraq təsnif edirlər. İddialara görə, homo sırasındakı canlılar australorithecuslardan daha çox inkişaf etmişdilər. Təkamülçülər bu fərqli canlılara aid fəsilləri ard-arda düzərək xəyali bir təkamül cədvəli təşkil edirdi. Bu cədvəl xəyalidir, çünki həqiqətdə bu müxtəlif siniflər arasında təkamül əlaqəsinin olduğu heç vaxt sübut edilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm müdafiəçilərindən biri olan Emst Meyr (Emst Mayr) “Homo sapiensə uzanan zəncir həqiqətdə itkindir” deyərək bunu qəbul edir (J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, dekabr 1992).

Təkamülçülər australorithecus-homo habilis-homo erectus- homo sariens sıralamasını tərtibləyərkən bunların hər birinin ondan sonra gələnin atası olması təsvirini yaratmağa çalışırlar. Halbuki paleoantropoloqların son tapıntıları australorithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını sübut etmişdir (Alan Walker, Science, c. 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antrorology, 1. nəşr, J. B. Lirincott Co., New York, 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge University Press, Cambridge, 1971, səh. 272).

Homo erectus sinfinə daxil edilən insanların bir hissəsi müasir dövrlərə qədər, homo sapiens neandertal və homo sapiens isə sapiens (müasir) insanla eyni şəraitdə yan-yana yaşamışlar (Time, noyabr 1996).

Bu isə əlbəttə, bu siniflərin bir-birinin əcdadı olması iddiasının qüvvədə qalmadığını aydın şəkildə ortaya qoyur. Harvard Universiteti (ABŞ) paleontoloqlarından Stefan Cey Quld (Sterhen Jay Gould) özü bir təkamülçü olsa da darvinizm nəzəriyyəsinin bu çətinliyini belə izah edir:

Əgər bir-biri ilə paralel olaraq yaşayan üç müxtəlif hominid (insanabənzər) cizgisi varsa, elə isə bizim nəsil ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən meydana çıxmış ola bilməz. Bunların biri digəri ilə müqayisə ediləndə təkamül nəticəsində bir inkişaf ardıcıllığı göstərə bilmirlər (S. J. Gould, Natural Nistory, c. 85, 1976, səh. 30).

Qısası, mətbuatda və ya dərs kitablarında qeyd edilən və xəyalların məhsulu olan bəzi "yarımeymun, yarıinsan" canlı- ların şəkilləri ilə, yəni ancaq təbliğat yolu ilə güclə saxlanmağa çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər araşdıran, xüsusilə australorithecus fəsilləri üzərində 15 il tədqiqat aparan İngiltərənin ən məşhur və mötəbər alimlərindən biri lord Soli Zakerman özü bir təkamülçü idi, amma o da ortada meymunabənzər canlılardan insana gəlib çıxan həqiqi bir nəsil ağacının olmadığı nəticəsinə gəlmişdir.

Lord S. Zakerman bir də maraqlı bir "elm şkalası" hazırlamışdı. O, elmi olaraq qəbul etdiyi elm sahələrindən elmdən uzaq olaraq qəbul etdiyi elm sahələrinə qədər bir cədvəl təşkil etmişdi. Lord S. Zakermanın bu cədvəlinə görə, elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra biologiya elmləri, sonra da sosial elmlər yerləşir. Cədvəlin sonunda, yəni ən elmdən kənar hesab edilən hissədə isə telepatiya, "altıncı hiss" kimi "hissdənkənar dərk etmək" anlayışı, bir də "insanın təkamülü" vardır! Lord Zakerman cədvəlin bu hissəsini belə izah edir:

Obyektiv həqiqiliyin sahəsindən çıxıb da bioloji elm olaraq qəbul edilən bu sahələrə, yəni hissdənkənar idraka və insanın daşlaşmış tarixinin izah edilməsinə daxil olanda təkamül nəzəriyyəsinə inanan bir adam üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, öz nəzəriyyələrinə qəti olaraq inanan bu adamların hətta bəzi ziddiyyətli qərarları eyni anda qəbul etməsi də mümkündür (Solly Zuckerman, Beyond The Ivory Tower, Torlinger Publications, New York, 1970, səh. 19).

İnsanın təkamülü nağılı da öz nəzəriyyələrinə kor-koranə inanan bəzi insanların tapdıqları bəzi daşlaşmış qalıqları əvvəlcədən qəbul etdikləri fikirlərinə uyğun olaraq izah etməkdən ibarətdir.

## DARVİN DÜSTURU!

Bura qədər qeyd etdiyimiz bütün texniki sübutlarla yanaşı təkamülçülərin necə cəfəng bir inanca malik olmasını bir də uşaqların da başa düşəcəyi qədər aydın bir misalla xülasə edək.

Təkamül nəzəriyyəsi canlı aləmin təsadüfən meydana gəldiyini iddia edir. Dolayısı ilə bu iddiaya görə, cansız və şüursuz atomlar bir yerə yığılaraq əvvəlcə hüceyrəni, sonra da eyni atomlar hər hansısa bir şəkildə digər canlıları və insanı meydana gətirmişdir. İndi fikirləşək. Canlı aləmin əsasları olan karbon, fosfor, azot, potasium bircə canlı da meydana gətirə bilməzlər. İstəsəniz bu məsələdə bir "təcrübə" aparaq və təkamülçülərin əslində müdafiə etdikləri, ancaq uca səslə deyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" ilə incələyək.

Təkamülçülər canlı aləmin əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən çoxlu sayda böyük çənin içinə bol miqdarda qoysunlar. Hətta adi hallarda olmayan, ancaq bu qarışığın içində olmalıdır dedikləri bəzi ləvazimatları da bu çənə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər (təbii şəraitdə əmələ gəlməsi mümkün olmayan) aminosit, istədikləri miqdarda da (birinin də təsadüfən meydana gəlmə ehtimalı 10-950 olan) protein doldursunlar. Bu qarışığa istədikləri kimi istilik və rütubət versinlər. Bunları istədikləri inkişaf etmiş cihazlarla qarışdırsınlar. Çənlərin yanına da bu dünyanın ən məşhur alimlərini dəvət etsinlər. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il davamlı olaraq çənlərin yanında gözləsinlər. Bir canlının meydana gəlməsi üçün hansı şərtləri mövcud olmasına inanırlarsa, hamısından istifadə etmək sərbəst olsun. Ancaq nə edirlərsə-etsinlər, o çənlərdən qətiyyən bir canlı çıxara bilməyəcəklər. Zürafələri, şirləri, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, yemişləri, qarpızları,

əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuzquşularını, qırqovulları, müxtəlif rəngli kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Burada adını qeyd etdiyimiz bu canlı varlıqların tək bir hüceyrəsini də əldə edə bilməzlər.

Qısası, şüursuz atomlar bir yerə yığılaraq hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni bir qərar verərək bir hüceyrəni iki yerə ayıran, daha sonra bir-birinin ardınca fərqli qərarlar verən, elektron mikroskopunu kəşf edən, sonra öz hüceyrə quruluşunu bu mikroskopun altında incələyən professorları da əmələ gətirə bilməzlər.

Maddə ancaq Allahın üstün yaratması ilə canlı ola, həyat tapa bilər. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə təfəkkür və idraka tamamilə zidd olan bir cəfəngiyatdır. Tə- kamülçülərin ortaya atdığı iddialar ətrafında bir az düşünmək haqqında yuxarıda danışılan nümunədə olduğu kimi bu həqiqəti də aydın şəkildə göstərir.

## Gözdəki və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin heç vaxt izah edə bilməyəcəyi başqa bir məsələ isə gözdəki və qulaqdakı mükəmməl hissetmə (lamisə) keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “necə görürük?” sualına qısa da olsa cavab verək. Bir cisimdən gələn şüalar gözə tərs olaraq düşürlər. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa tərəfindəki görmə mərkəzi deyilən kiçik bir nöqtəyə ötürülür. Bu elektrik siqnalları sıra ilə davam edən icraatlardan sonra beyindəki bu mərkəzdə görüntü olaraq hiss edilir və görülür.

Bu məlumatdan sonra indi bir az fikirləşək. Beyin işıq üçün qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin olduğu yerə qədər gedib çıxa

bilməz. Görüntü mərkəzi deyilən yer zülmət qaranlıq, işığın heç vaxt çata bilmədiyi, bəlkə də heç vaxt rast gəlmədiyiniz qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlığında işıqlı, parlaq bir dünyanı seyr edirsiniz. Həm də bu o qədər aydın və keyfiyyətli bir görüntüdür ki, XXI əsrin texnologiyası da hər cür imkan sahibi olmasına baxmayaraq bu görüntünü əldə edə bilməmişdir. Məsələn, hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın. Sonra başınızı qaldırın və ətrafınıza nəzər salın. İndi gör- düyünüz aydınlıq və keyfiyyətdəki bu görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın bir görüntünü sizə dünyanın bir nömrəli televizor şirkətinin istehsal etdiyi ən mükəmməl televizor ekranı da verə bilməz. 100 ildir minlərlə mühəndis bu aydınlığı əldə etməyə çalışır. Bunun üçün fabriklər, nəhəng təsisatlar qurulur, tədqiqatlar aparılır, planlar və layihələr hazırlanır. Yenə də bir televiziya ekranına baxın, bir də əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizor ekranı sizə iki ölçülü bir görüntü göstərir, halbuki siz üçölçülü, dərin bir perspektivi görürsünüz.

Uzun illərdir on minlərlə mühəndis üçölçülü televizor hazırlamağa, gözün görmə keyfiyyətinə yiyələnməyə səy göstərir. Bəli, üçölçülü televizor sistemini hazırlaya bildilər, ancaq onu da eynəksiz görmək mümkün deyil. Bu eyni zamanda süni bir üçölçülü sistemdir. Arxa tərəf daha bulanıq, qarşı tərəf isə kağızdan hazırlanmış dekorasiya kimi görünür. Heç vaxt gözün gördüyü qədər dəqiq və keyfiyyətli bir görüntü ola bilməz. Kamerada da, televizorda da mütləq görüntü itkisi baş verir.

Təkamülçülər bu keyfiyyətli və dəqiq görüntünü təşkil edən mexanizmin təsadüfən meydana gəldiyini iddia edirlər. İndi bir adam sizə otağınızın bir küncündəki televizorun təsadüflər nəticəsində meydana gəldiyini, “atomlar bir yerə toplandı və bu göstərən cihazı meydana gətirdi” desə, nə fikirləşərsiniz? Minlərlə adamın bir yerə yığışaraq düzəldə bilmədiyini şüursuz atomlar necə edə bilər?

Gözün gördüyündən daha ibtidai olan bu görüntünü meydana gətirən cihaz təsadüfən meydana gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi aydın məsələdir.

Bu məsələ qulaq üçün də eynidir. Xarici qulaq ətrafdakı səsləri qulaq çömçəsi vasitəsilə yığıb orta qulağa ötürür. Orta qulaq aldığı səs tirtəyişlərini gücləndirərək daxili qulağa ötürür. Daxili qulaq da bu titrəyişləri elektrik siqnallarına döndərərək beyinə göndərir. Eynilə görmə məsələsində olduğu kimi eşitmək icraatları da beyindəki eşitmə mərkəzində həyata keçir.

Gözdəki vəziyyət qulaq üçün də qüvvədə qalır, yəni beyin işığa olduğu kimi səsə də qapalıdır, səsi keçirmir. Dolayısı ilə ətraf nə qədər gurultulu da olsa beynin içi tamamilə səssizdir. Buna baxmayaraq ən dəqiq səslər beyində hiss edilir. Səs keçirməyən beynimizdə bir orkestrin simfoniyalarını eşidərsiniz, izdihamlı bir məkanın bütün gurultusunu eşidərsiniz. Ancaq həmin anda həssas bir cihazla beynimizin içindəki səs səviyyəsi ölçülsə, burada mütləq bir səssizliyin hakim olduğu görünəcək.

Dəqiq bir görüntü əldə edə bilmək üçün indiyə qədər texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər onlarla ildir ki, davam edir. Səsi qeyd etmək cihazları, çoxlu elektrik aləti, səsi qeyd edən musiqi sistemləri bu səylərin bəzilərinin nəticələridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada işləyən minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq qulaqdakı dəqiq və keyfiyyətli bir səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi alətini fikirləşin. Səsi qeyd edəndə mütləq səsin bir hissəsi itir və ya az da olsa mütləq xışıltı əmələ gəlir. Musiqi cihazını açanda musiqi başlamamışdan əvvəl bir xırıltılı səsi mütləq eşidəcəksiniz. Ancaq insan bədənindəki texnologiyanın məhsulu olan səslər çox dəqiq və qüsursuzdur. Bir insan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi xırıltılı və ya pozuntulu səs hiss etməz, səs necədirsə, onu tam və dəqiq olaraq eşidir. Bu vəziyyət insan yaradıldığı gündən indiyə qədər bu cürdür.

Bu günə qədər insan oğlunun istehsal etdiyi, hazırladığı heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və uğurlu bir lamisə sistemi ola bilməmişdir.

Ancaq görmə və eşitmə hadisəsində bütün bunlardan başqa çox böyük həqiqət var.

## BEYİNİN İÇİNDƏKİ GÖRƏN VƏ EŞİDƏN ŞÜUR KİMƏ AİDDİR?

Beynin içində cürbəcür rəngli bir dünyanı seyr edən, simfoniyaları, quşların səsini eşidən, çiçəkləri iyləyən kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn xəbərdarlıqlar elektrik siqnalı olaraq beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə meydana gəlməsinə dair çoxlu təfərrüatlar oxuya bilərsiniz. Ancaq bu məsələ haqqındakı həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz ki, beyində bu elektrik siqnallarını görüntü, səs, iy və hiss olaraq qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyni təşkil edən sinirlərə, yağ təbəqəsinə və sinir hüceyrələrinə aid deyil. Buna görə də hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist materialistlər bu suallara heç vaxt cavab verə bilmir. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruh görüntünü seyr etmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyac hiss etməz. Bunlardan da başqa fikirləşmək üçün beyinə də ehtiyacı olmaz.

Bu aydın və elmi həqiqətləri oxuyan hər bir insanın beyinin daxilindəki bir neçə santimetrlik, qapqaranlıq məkana bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı olaraq sığışdıran Allahı fikirləşib, Ondan qorxub Ona sığınması lazımdır.

# MATERİALİST İNANC

Bura qədər araşdırdıqlarımız təkamül nəzəriyyəsinin elmi kəşflərlə açıq şəkildə ziddiyyət təşkil edən bir iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, ortaya atdığı təkamül mexanizmlərinin heç bir təkmilləşdirici təsiri yoxdur və dünyanın daşlaşmış qatları darvinizm nəzəriyyəsinin vacib saydığı keçid formalarının yaşamadıqlarını göstərir. Belədə təkamül nəzəriyyəsinin əlbəttə ki, elmə zidd bir fikir kimi kənara atılması lazımdır.

Tarix boyu təkamül modeli kimi bir çox düşüncə sistemi elmin gündəmindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsini təkidlə elmi gündəmə gətirmək istəyirlər. Hətta bəzi adamlar bu nəzəriyyənin tənqidini "elmə hücum" kimi qələmə verməyə çalışır. Görəsən nəyə görə?

Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi mühitlər üçün heç cür əldən buraxılmayacaq ehkamçı bir inanc olmasıdır.

Bu adamlar materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiətə verilə biləcək yeganə materialist izah olduğu üçün mənimsəyirlər.

Bəzən bunu açıq şəkildə etiraf da edirlər. Harvard Universitetindən məşhur genetik və tanınmış təkamülçü olan Riçard Levontin "əvvəlcə materialist, sonra alim" olduğunu belə etiraf edir:

Bizim materializmə bir etiqadımız var, aprior (əvvəlcədən qəbul edilmiş, doğru sayılan, təcrübədən asılı olmayan, təcrübədən qabaq mövcud olan) bir inancdır bu. Bizi dünyaya materialist bir açıqlama gətirməyə məcbur edən şey elmin istiqamət və qaydaları deyil. Əksinə, materializmə olan aprior bağlılığımız üzündən dünyaya materialist açıqlama gətirən araşdırma üsullarını və qavramları təqdir edirik. Materializm mütləq doğru olduğuna görə də ilahi bir açıqlamanın səhnəyə daxil olmasına icazə verə bilmərik

(Richard Lewontin, “The Demon-Naunted World”, The New Uork Review of Books, 9 yanvar 1997, səh. 28).

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq ucbatından yaşadılan bir ehkam olmasının açıq ifadəsidir. Bu ehkam maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Buna görə də cansız, məntiqsiz maddənin həyatı yaratdığına inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, böcəklərin, ağacların, çiçəklərin, balinaların və insanların cansız maddənin öz içindəki dəyişikliklərə, yəni yağan yağışla, çaxan şimşəklə onun içindən meydana gəldiyini qəbul edir. Həqiqətdə isə bu, həm ağla, həm də elmi həqiqətlərə zidd qənaətdir. Amma darvinistlər “ilahi bir açıqlamanın səhnəyə girməməsi” üçün bu qənaəti müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə əvvəlcədən qəbul edilmiş materialist düşüncə ilə baxmayan hər kəs isə bu açıq həqiqəti görəcəkdir: “Bütün canlılar üstün bir gücə, məlumata və ağla sahib olan bir Yaradanın əsərləridir. O Yaradan bütün kainatı yoxdan var edən, canlıları da yaradıb şəkilləndirən Allahdır”.

## Təkamül nəzəriyyəsi bəşər tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, əvvəlcədən qəbul edilmiş mənfi fikirləri olmayan, heç bir ideologiyanın təsiri altında qalmayan, ancaq ağlını və məntiqini işlədən hər bir insan elmdən və mədəniyyətdən uzaq olan cəmiyyətlərin xurafatlarını əks etdirən təkamül nəzəriyyəsinin inanılması mümkün olmayan bir iddia olduğunu asanlıqla başa düşəcəkdir.

Yuxarıda da qeyd etdiyimiz kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə çoxlu atomu, molekulu, cansız maddəni dolduran və bunların

qarışmasından vaxt ərzində fikirləşən, dərk edən, kəşflər edən professorların, tələbələrin, Eynşteyn, Hubbl kimi elm adamlarının, Frenk Sinatra, Çarlton Heston kimi sənətçilərin, bununla yanaşı ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəni, təhsilli insanlardır. Buna görə də təkamül nəzəriyyəsi üçün "dünya tarixinin ən böyük və ən təsirli sehri" ifadəsini işlətmək daha münasib olacaq. Çünki bəşər tarixində insanların ağlını başından bu dərəcədə alan, ağıl və məntiqlə fikirləşməsinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan bir başqa inanc və ya iddia da yoxdur. Bu, qədim misirlilərin günəş ilahsı Raya, bəzi afrikalı qəbilələrin totemlərə, Səba xalqının günəşə sitayiş etməsindən, hz. İbrahimin tayfasının öz əlləri ilə düzəltdiyi bütlərə, hz. Musanın xalqının qızıldan düzəltdiyi buzova sitayiş etməsindən daha dəhşətli və qəbuledilməz bir korluqdur. Həqiqətdə bu vəziyyət Allahın Quranda işarə etdiyi bir ağılsızlıqdır. Allah bəzi insanların idrak qabiliyyətinin qapanacağını və həqiqətləri görməkdən aciz vəziyyətə düşəcəyini əksər ayələrində bildirir. Bu ayələrdən bəziləri bunlardır:

"Həqiqətən, inkar edənləri əzabla qorxutsan da, qorxutmasan da onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!" ("Bəqərə" surəsi, 26-7). "... Onların qəlbi vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!" ("Əraf" surəsi, 7/179). Allah başqa ayələrdə isə bu insanların möcüzələr görsələr də inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

"Əgər onlara göydən bir qapı açsaq və onunla durmadan yuxarı dırmaşsalar, yenə də "Gözümüz bağlanmış, biz sehrlənmişik" deyərlər" ("Hicr" surəsi, 15/14-15). Bu qədər geniş bir kütlənin üzərində bu sehrin təsirli olması, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildir bu sehrin pozulmaması isə sözlərlə deyilə bilməyəcək qədər heyrətamiz bir

vəziyyətdir. Çünki bir və ya bir neçə insanın imkan xaricində olan ssenarilərə, cəfəngiyat və məntiqsizliklərlə dolu iddialara inanması aydın ola bilir. Ancaq dünyanın dörd bir tərəfindəki insanların şüursuz və cansız atomların ani bir qərarla bir yerə yığılıb, fövqəladə bir təşkilatlanma, nizam-intizam, ağıl və şüur göstərib qüsursuz bir sistemlə işləyən kainatı, canlı aləm üçün uyğun olan hər cür xüsusiyyətə sahib olan Yer planetini və saysız kompleks sistemlə təchiz edilmiş canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa bir izahı və adı yoxdur.

Həmçinin, Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi adamların etdiyi sehrlərlə insanları təsir altına aldıqlarını hz. Musa və firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini başa salanda firon hz. Musaya öz "elmli sehrbazları" ilə insanların yığışdıqları bir yerdə qarşılaşmalarını istəyir. Hz. Musa sehrbazlarla qarşılaşanda əvvəlcə sehrbazlara onların mərifətlərini göstərməsini əmr edir:

**"(Musa:) "Siz atın!" dedi. Onlar (əllərindəkini yerə) atdıqda adamların gözlərini bağlayıb onları qorxutdular və böyük bir sehr göstərdilər". (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrbazları gözbağlamalarla - hz. Musa və ona inananlar istisna olmaqla - insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarının əvəzində hz. Musanın göstərdiyi dəlil onların bu sehrini, ayələrin ifadəsi ilə desək, "uydurub düzəltdikləri bütün şeyləri udmuş", yəni təsirsiz hala gətirmişdir:

**"Biz də Musaya: "Əsanı tulla!" deyə vəhy etdik. Bir də baxıb gördülər ki, əsa onların uydurub düzəltdikləri bütün şeyləri**

**udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. Sehrbazlar orada məğlub edildilər və xar olaraq geri döndülər" (Əraf surəsi, 117-119)**

Ayədə də bildirildiyi kimi, əvvəl insanları sehrləyərək öz təsiri altına bu adamların etdiklərinin bir saxtakarlıq olmasının üzə çıxıb təsdiqlənməsindən sonra qeyd edilən adamlar pis vəziyyətə düşmüşdülər. Günümüzdə də bir sehrin təsiri ilə elm pərdəsi altında çox cəfəng iddialara inananlar və bunları müdafiə etməyə həyatını həsr edənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə açığa çıxanda və "sehr pozulanda" onlar da pis vəziyyətə düşəcəklər.

Təkamül nəzəriyyəsini müdafiə edən və ateist bir filosof olan Malkolm Maqqric (Malcolm Muggeridge) belə bir vəziyyətdən qorxduğunu belə etiraf edir:

Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrin gələcəyin tarix kitablarındakı ən böyük gülünc vəziyyətlərdən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən olan bir hipotezin inanılmaz bir sadəlövhlüklə qəbul edilməsini heyrət içində qarşılayacaqlar (Malcolm Muggeridge, The End of Christendom, Grand Rarids: Eerdmans, 1980, səh. 43).

Bu gələcək uzaqda deyil, əksinə, çox yaxın bir gələcəkdə insanlar "təsadüflər"in ilah ola bilməyəcəyini başa düşəcəklər və təkamül nəzəriyyəsi bəşər tarixinin ən böyük yalanı və ən şiddətli sehri olaraq tanıdılacaq. Bu şiddətli sehr böyük sürətlə dünyanın dörd bir tərəfində özünün insanlar üzərindəki təsirini azaltmağa başlamışdır. Təkamül yalanının sirrini öyrənən əksər insanlar bu yalana necə inandıqlarını heyrət və təəccüb içində götür-qoy edirlər.

**...“Sən bütün nöqsanlardan uzaqsan! Biz Sənin bizə öyrətdiklərindən başqa heç bir şey bilmirik. Şübhəsiz ki, Sən hər şeyi bilənsən, hikmət sahibisən!” (Bəqərə surəsi, 32)**

# ARXA CİLD

Təbliğ; Quranın diqqət edilməyən əhəmiyyətli hökmlərindən biridir. İnsanların bir çoxu "İslamı yaşamaq" deyiləndə bunu yalnız bəzi fiziki fərzləri yerinə yetirmək hesab edər. Namaz, oruc, həcc, zəkat kimi fərzlərin yerinə yetirilməsini mükəmməl müsəlman olması üçün yetərli olduğunu düşünər. Halbuki İslami mənəviyyat və sevgi üzərinə oturdulmuş bir dindir. Əlbəttə fiziki olaraq yerinə yetiriləcək fərzlər vardır. Ancaq bu fərzləri, Allaha və Allahın yaratdıqlarına qarşı sevgi və şəfqət dolu olan, gözəl əxlaqlı, Allahın dinini öz istəklərinin üzərində tutan səmimi və dərin bir dindarlıq ruhu ilə etmək lazımdır. Necə ki, din əslində həyat şəklidir və təbliğ isə bu həyat şəklinin ana damarlarından biridir. Hər müsəlmanın mütləq təbliğ fərzini yerinə yetirməsi lazımdır. Bu kitabda təbliğin hansı məntiq və üsullarla müsəlmana yaraşar şəkildə ediləcəyi detallı şəkildə araşdırılmış, buna qarşı cahiliyyənin mübahisə məntiqinin ardındakı şeytanı xarakter də Quran ayələri işığında detallı olaraq təsvir edilmişdir.

**YAZIÇI HAQQINDA**: Harun Yəhya təxəllüsünü istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada doğuldu. 1980-ci illərdən bu yana, imani, elmi və siyasi mövzularda bir çox əsər hazırladı. Bunlarla yanaşı, yazarın təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və Darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Yazıçının bütün çalışmalarındakı ortaq hədəf, Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və azğın tətbiqlərini gözlər önünə sərməkdir. Necə ki, yazıçının, bu günə qədər 73 ayrı dilə çevrilən 300-dən çox əsəri, dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən izlənilməkdədir.

Harun Yəhya Külliyyatı, (Allahın icazəsi ilə) XXI əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur və sülhə, düzgünlük və ədalətə, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.